# Xalq qəzeti

Xalqın qəzeti!

№ 149 (30265) 19 iyul 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


## Günün sözü

**Prezident İlham Əliyev:**

**Ekoloji təhlükə mənbəyi sayıla biləcək müəssisələrin yaradılması qonşu ölkələrlə mütləq razılaşdırılmalıdır və biz bunu Ermənistandan tələb edirik. Əgər hansısa müəssisə yaratmaq istəyirlərsə, bu, onların daxili işidir. Amma əgər bu müəssisə bizim sərhədimizin 500 metrliyində yerləşirsə, bu, bizim məsələmizdir.**

# İraq Kürdüstan Regionu ilə əməkdaşlığımızın dinamikası artır



**İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə işgüzar səfərdə olan İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə təkbətək görüşü olub.**

Əvvəlcə birgə foto çəkdirildi.

Söhbət zamanı Prezident İlham Əliyev ilə Neçirvan Bərzani arasında bu ilin fevralında Münxendə keçirilən görüş xatırlandı. Həmin görüşdə əməkdaşlığın əsas istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı səmərəli müzakirələrin aparıldığı qeyd olundu, Neçirvan Bərzaninin səfərinin əməkdaşlığımızın dinamikasının artması işinə töhfə verəcəyi bildirildi.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdi.

Görüşdə dövlətimizin başçısı İraq Prezidenti Əbdüllətif Camal Rəşidin Qoşulmama Hərəkatının Zirvə toplantısı çərçivəsində bu ilin martında Azərbaycana səfəri və ikitərəfli əlaqələrimizin inkişafına dair onunla apardığı müzakirələri, həmçinin İraq Baş nazirinin müavini, xarici işlər naziri Fuad Hüsseynin ölkəmizə səfəri zamanı keçirdiyi görüşü və əlaqələrimizin inkişafı ilə əlaqədar müzakirələri məmnunluqla xatırlatdı.

Söhbət zamanı İraq Kürdüstan Regionu ilə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, sərmayələr, enerji sahəsində əməkdaşlıq, turizm imkanlarının artırılması, birbaşa aviareyslərin açılması və digər məsələlərlə bağlı müzakirələr aparıldı.

***AZƏRTAC***

# Rusiyalı politoloqlar separatizmi körükləyirlər

**Azərbaycan Xarici İşlər Nazirliyinin iyulun 15-də yaydığı bəyanat Rusiyadan və Ermənistandan olan bəzi ekspertlərin kürkünə birə salıb. Onlar bəyanatda əksini tapan tənqidi məqamlardan nəticə çıxarmaq əvəzinə, ölkəmizi ittiham edirlər. Rusiyalı ekspertlər Moskvanın 2020-ci ilin payızında Cənubi Qafqazda qan tökülməsini dayandırmaq istiqamətində xüsusi səy göstərdiyini, müharibədən sonra humanitar problemlərin həllində mühüm rol oynadığını, indi isə iki ölkə arasında sülh sazişinin imzalanmasına çalışdığını vurğulayırlar. Ancaq onların nə deməsindən asılı olmayaraq, fakt faktlığında qalır.**



Fakt isə bundan ibarətdir ki, regionda sülh və əmin-amanlığın yaranmasında Rusiya səmimi deyil. Moskva 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli Bəyanatın şərtlərinin yerinə yetirilməsindən, xüsusilə onun dördüncü maddəsinin (erməni silahlı qüvvələrinin Qarabağdan çıxarılması) icrasından indiyədək yayınır. Məqsəd aydındır: Qarabağ məsələsində istənilən dəyişiklik, Ermənistan–Azərbaycan münasibətlərinin yaxşılaşmasına yönələn bütün təşəbbüslər Rusiyanın ürəyincə deyil. Əgər Rusiya 2020-ci ilədək mövcud olan münaqişə ilə bağlı status-kvonun qalmasında maraqlı idisə, hazırda 2020-ci ildən sonrakı vəziyyətin dəyişməz olaraq qalmasının tərəfdarıdır.

*(ardı 8-ci səhifədə)*

## Karasin niyə qızarmır?

Səhifə ⇨ 7

## “Oturaq” təxribat



Səhifə ⇨ 7

## Qarabağ və Şərqi Zəngəzurdan Avropaya “yaşıl enerji” ixracı



Səhifə ⇨ 11

## İrəvanın iflasa məhkum “beynəlxalq kampaniyası”



Səhifə ⇨ 8

## Ağdam Qarabağın müasir sənaye mərkəzi olacaq

Səhifə ⇨ 10



## Ermənistanın ekoloji cinayətləri sərhəd tanımır



Səhifə ⇨ 10

## Atırau – Turanın çay kənarındakı cazibədar şəhəri



Səhifə ⇨ 13

## Qəlbində Vətən sevgisi yaşadanlar



Səhifə ⇨ 15

## İslam ölkələrinin investorları bərpa bölgəsinə dəvət edilib

Səhifə ⇨ 11

# “Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 avqust tarixli 429 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 avqust tarixli 429 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 637; 2011, № 12, maddə 1161; 2013, № 6, maddə 703, № 9, maddə 1088; 2014, № 4, maddə 404, № 7, maddə 864; 2016, № 4, maddələr 738, 750; 2018, № 1, maddə 99; 2019, № 9, maddə 1487; 2020, № 3, maddə 304, № 4, maddə 535) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** “təhsil” sözündən əvvəl “elm və” sözləri əlavə edilsin.

**2.** “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri” sözləri “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktoru” sözləri ilə əvəz edilsin.

**3.** “Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri” sözləri “Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının sədri” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 iyul 2023-cü il**

# 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının monitorinq portalının təqdimatı



**Dünən Nazirlər Kabinetində Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının monitorinq portalının təqdimatı keçirilib.**

Aparatın rəhbəri Rüfət Məmmədov Prezident İlham Əliyevin 2022-ci il 22 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” barədə söz açıb. Bildirib ki, strategiyada müəyyən edilmiş 5 prioritet üzrə genişmiqyaslı tədbirlərin görülməsi nəzərdə tutulur.

Sonra aparat rəhbəri Azərbaycan Prezidentinin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə qəbul olunan işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı üzrə görülən işlər və həyata keçiriləcək tədbirlər barədə məlumat verib. Qeyd edib ki, sərəncamda Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqinin və qiymətləndirilməsinin Nazirlər Kabinetinin sifarişinə əsasən, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) tərəfindən həyata keçirilməsi qeyd olunub.

Diqqətə çatdırılıb ki, bu strategiyanın həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin 2 sərəncamı olub. Proqram çərçivəsində işlərin gedişinə nəzarətin səmərəli təmin olunması məqsədilə İİTKM-yə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə “İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair Dövlət Proqramının icrasına nəzarət və hesabatlılıq Portalı”nın formalaşdırılması tapşırılıb. Monitorinq, qiymətləndirmə və nəzarət xüsusi yaradılmış portal üzərindən həyata keçiriləcək, görülən bütün işlərlə bağlı məlumatlar portalda yerləşdiriləcək. Verilən məlumatlar əsasında qiymətləndirmələr aparılacaq, görülən işlərin gedişatı müzakirə ediləcək. Eyni zamanda, Strategiyanın həyata keçirilməsi ilə bağlı görülən işlərin nəticələrinə dair dövlətimizin başçısına hesabat təqdim olunacaq.

Sonra İİTKM-in icraçı direktoru Vüsal Qasımlı azerbaijan2030.gov.az portalı haqqında məlumat verib. Bildirib ki, 2030-cu ilə kimi müəyyən olunan 5 Milli Prioritet üzrə qoyulan hədəflərə çatmaq məqsədilə strategiyada 2022–2026-cı illər üçün 10 məqsəd müəyyənləşdirilib. Bu məqsədlərə çatmaq üçün 20 əsas hədəf indikatoru təyin edilib. Strategiyanın təsirinin qiymətləndirilməsi metodologiyası “Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası”na uyğun olaraq, 2025-ci ildə 2022–2024-cü illər üzrə görülmüş işlərin, 2027-ci ildə 2022–2026-cı illərdə görülmüş işlərin təsirini qiymətləndirmək üçün aparılacaq.

Qiymətləndirmənin aparılmasında qabaqcıl beynəlxalq təcrübəyə əsaslanaraq effektivlik, uyğunluq, səmərəlilik, davamlılıq və təsir kriteriyaları əsas götürülməklə qiymətləndirmə sualları tərtib olunacaq.

***“Xalq qəzeti”***

# Şuşada Azərbaycan – Özbəkistan əməkdaşlıq müzakirələri



**İqtisadiyyat naziri Mikayıl Cabbarov Şuşada Özbəkistanın investisiyalar, sənaye və ticarət naziri Ləziz Kudratovla görüşüb.**

Tərəflər iqtisadi tərəfdaşlığın müxtəlif istiqamətlər üzrə gücləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirə aparıblar.

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 12-ci iclasında iqtisadiyyat naziri, hökumətlərarası komissiyanın həmsədri Mikayıl Cabbarov tədbirin Şuşada təşkil olunmuş ilk hökumətlərarası komissiya iclası olduğunu vurğulayıb. İqtisadiyyat naziri xalqlarımızı və ölkələrimizi dostluq münasibətləri, ortaq tarix, kök, ənənələr və mədəniyyətin birləşdirdiyini qeyd edib, əlaqələrin genişləndirilməsi məqsədilə reallaşdırılan tədbirlərin önəmini diqqətə çatdırıb. İclasda Özbəkistan tərəfindən Füzulidə 960 şagird yerlik məktəb binasının tikildiyi vurğulanıb, Qarabağın bərpasında iştirak etdiyinə görə qardaş ölkəyə minnətdarlıq ifadə olunub.

Özbəkistanın investisiyalar, sənaye və ticarət naziri Ləziz Kudratov bildirib ki, onun ölkəsi işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinə töhfə verməyə daim hazırdır. Ləziz Kudratov ölkələrimiz arasında müxtəlif sahələrdə uğurlu tərəfdaşlıq əlaqələrini vurğulayıb, yeni əməkdaşlıq istiqamətləri, işgüzar münasibətlərin inkişafı və birgə layihələrin icrası barədə fikirlərini bölüşüb.

İclasın sonunda Hökumətlərarası Komissiyanın həmsədrləri tərəfindən Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclasının yekunlarına dair Protokol imzalanıb. Azərbaycanın İqtisadiyyat Nazirliyi ilə Özbəkistanın Yenidənqurma və İnkişaf Fondu arasında Azərbaycan–Özbəkistan İnvestisiya Şirkətinin yaradılması haqqında saziş, həmçinin energetika sahəsində əməkdaşlığın genişləndirilməsinə dair sənədlər də imzalanıb.

***“Xalq qəzeti”***

# Azərbaycan–Türkiyə münasibətləri ən yüksək səviyyədədir



**İyulun 18-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Fuat Oktayın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

S.Qafarova Fuat Oktayın Türkiyənin vitse-prezidenti, həmçinin Türkiyə və Azərbaycan arasında İqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın həmsədri olduğu dövrdəki fəaliyyətini yüksək qiymətləndirib və onu TBMM-in Xarici əlaqələr komitəsinin sədri vəzifəsinə seçilməsi münasibətilə təbrik edib, Türkiyədə keçirilmiş seçkilərdə AKP-nin qələbəsinin, cənab Rəcəb Tayyib Ərdoğanın yenidən dövlət başçısı seçilməsinin Azərbaycanda da diqqətlə izlənildiyini qeyd edən parlamentin Sədri bildirib ki, Milli Məclisin 30-a yaxın deputatı da müxtəlif beynəlxalq təşkilatların missiyaları çərçivəsində bu seçkiləri müşahidə edib.

Söhbət zamanı Prezident İlham Əliyevin Türkiyəyə son səfərinin əhəmiyyəti vurğulanıb, yüksək səviyyəli görüşlərin və danışıqların iki ölkə arasında münasibətlərin inkişafındakı rolundan danışılıb. Həmçinin Türkiyənin hər zaman olduğu kimi, Vətən müharibəsində də Azərbaycanın haqq işini dəstəklədiyi diqqətə çatdırılıb. Vətən müharibəsindən sonra dost və qardaş ölkələrimizin dövlət başçıları tərəfindən Şuşa Bəyannaməsinin imzalanması isə Azərbaycan – Türkiyə münasibətlərini yeni səviyyəyə qaldırıb.

İki ölkənin parlamentlərarası əlaqələrindən danışan spiker, qarşılıqlı dostluq qruplarının sıx əməkdaşlığını qeyd edib, bu ilin aprel ayında Azərbaycan Milli Məclisi ilə Türkiyə Böyük Millət Məclisi arasında imzalanmış əməkdaşlıq haqqında Sazişin münasibətlərimizin inkişafına öz töhfəsini verəcəyinə inamını ifadə edib. Bununla yanaşı, Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işləri, sülh prosesinin gedişi barədə də məlumat verilib.

Azərbaycana səfərindən məmnunluq ifadə edən TBMM-in Xarici əlaqələr komitəsinin sədri səfər çərçivəsində Prezident İlham Əliyevlə keçirdiyi görüş barədə təəssüratlarını bölüşüb və deyib ki, iki ölkə arasında Şuşa Bəyannaməsi çərçivəsində yaradılmış müttəfiqlik çərçivəsi bizə çox ciddi fürsətlər verir.

Qonaq bu ilin fevralında Türkiyədə baş vermiş zəlzələ zamanı Azərbaycan dövlətinin və xalqının hər zaman olduğu kimi, Türkiyəyə qardaş dəstəyinə görə bir daha təşəkkürünü bildirib. Komitə sədri parlament diplomatiyasının əhəmiyyəti, TürkPA çərçivəsində əməkdaşlığın perspektivləri, ölkələrimiz arasında iqtisadi, ticarət, enerji, nəqliyyat və digər sahələrdə əlaqələrin daha da genişləndirilməsi, bölgədə həyata keçirilən nəhəng layihələr barədə fikirlərini bölüşüb.

***Ə.BƏDƏLOV,***
***“Xalq qəzeti”***

# Azərbaycan QHT-lərinin BMT-yə müraciəti

## Ölkəmizin vətəndaş cəmiyyəti beynəlxalq birliyi Ermənistanın ekoloji cinayətlərini dayandırmağa təsir etməyə çağırır

**Azərbaycan Respublikasında fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatları Ermənistan Respublikasının dağ-mədən sənayesinin fəaliyyəti nəticəsində yaranan, Yer kürəsinin ekosisteminə regional və qlobal təsir göstərən ekoloji fəlakətlə əlaqədar beynəlxalq ictimaiyyətə və Birləşmiş Millətlər Təşkilatına (BMT) müraciət ünvanlayıb. Ölkənin 29 QHT rəhbərinin BMT Baş katibinə və əksər qurumlarına, Ümumdünya və Avropa ekoloji təşkilatlarına ünvanladığı müraciətdə bildirilir:**

– Azərbaycan Respublikasında fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatları olaraq Birləşmiş Millətlər Təşkilatına və beynəlxalq ictimaiyyətə müraciət edirik ki, Ermənistan Respublikasının dağ-mədən sənayesinin fəaliyyəti nəticəsində yaranan, Yer Kürəsinin ekosisteminə regional və qlobal təsir göstərən ekoloji fəlakətə təcili diqqət yetirilsin (sübutlar və əsaslandırılmış faktlar əlavə olunur). Ermənistanın Azərbaycanla sərhəd bölgəsində davam edən mədən əməliyyatları ekosistemin deqradasiyası ilə nəticələnib və bu, yalnız Ermənistanın ətraf mühiti üçün deyil, həm də qonşu ölkələr üçün ciddi təhlükə yaradır. Mədən fəaliyyətinin ətraf mühitə vurduğu ziyan həm regionda, həm də ondan kənarda icmaların sağlamlığına və rifahına təhlükə törədərək transsərhəd təsir göstərir.



**Sənəddə daha sonra deyilir ki, Ermənistanın dağ-mədən sənayesində qeyri-şəffaf və hesabatlılığı olmayan istismar fəaliyyətinin geniş təsir dairəsində davamlı inkişaf üçün yaranmış təhlükə insanlara və ətraf mühitə zərər verir:** “Sənaye müəssisələrinin yüksək zəhərli kimyəvi tullantıları, demək olar ki, bütün transsərhəd suları çirkləndirir. Bu ekoloji təsir insanların sağlamlığına və təhlükəsizliyinə, flora, faunaya, torpaq, hava və su strukturlarına təsir göstərir. Bu tullantıların Araz çayına axıdılması çayın canlılar aləminə və suvarma üçün onun suyundan istifadə edən geniş təsərrüfatlara ciddi təhlükə yaradır. İçməli su təchizatına potensial zərər insanların sağlamlığı və su təhlükəsizliyi üçün risklər yaradır ki, bu da sərhədyanı bölgələrdə yoluxucu xəstəliklərin yayılması ilə nəticələnə bilər. Bu vəziyyət həm Azərbaycan, həm də Ermənistan üçün ciddi ictimai səhiyyə böhranı yarada bilər”.

**Ermənistanın Azərbaycana qarşı düşmənçilik siyasətini ekoloji sferada da davam etdirdiyini sübuta yetirən sənəddə bu ölkənin beynəlxalq və Avropa ekoloji konvensiyalarına məhəl qoymadığı vurğulanır:** “Ermənistanın Konvensiyasının, “Su və sağlamlıq haqqında” protokolunun, o cümlədən BMT-nin “Avropa İqtisadi Komissiyasının Təhlükəli tullantıların transsərhəd daşınmasına və utilizasiyasına nəzarət” haqqında Bazel Konvensiyasının, “Uzunmüddətli transsərhəd havanın çirklənməsinə dair” Konvensiyanın, “Transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə Avropa İqtisadi Komissiyası” Konvensiyasının (Espoo Konvensiyasının) tələblərini, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini, Biznes və İnsan Hüquqları üzrə BMT-nin Rəhbər Prinsiplərini və s. kobud şəkildə pozur”.

**Müraciət aşağıdakı çağırışla bitir:** “Biz bilirik ki, Birləşmiş Millətlər Təşkilatı və beynəlxalq, regional qurumlar ekoloji problemlərin həllində mühüm rol oynayır və Ermənistanın yaratdığı ekoloji problemlərin həllində dəstək göstərə bilərlər. Biz Ermənistandakı sənaye müəssisələrinin fəaliyyətini izləməklə bu təşkilatlara müraciət edirik ki, Ermənistanı mövcud ekoloji konvensiyalara əməl etməyə çağırsınlar. Biz onlardan beynəlxalq ekoloji normalara riayət olunmasını təmin etmələrini xahiş edirik”.

***“Xalq qəzeti”***

# E.O.Əmirbəyovun Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elçin Oktyabr oğlu Əmirbəyov Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 iyul 2023-cü il**

# E.O.Əmirbəyovun Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi vəzifəsindən azad edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elçin Oktyabr oğlu Əmirbəyov Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 iyul 2023-cü il**

# "Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 sentyabr tarixli 3488 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 sentyabr tarixli 3488 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1066) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** "Azərbaycan Respublikası Baş nazirinin müavini" sözlərindən əvvəl "Şahin Mustafayev –" sözləri əlavə edilsin.

**2.** "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri".

**3.** "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri" abzasının sonundan nöqtə işarəsi çıxarılsın və həmin abzasdan sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 iyul 2023-cü il**

# "Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyası haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 iyul 2023-cü il**

# Azərbaycan Respublikası Prezidentinin "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə" Dövlət Proqramının təsdiq edilməsi haqqında" 1998-ci il 17 sentyabr tarixli 895 nömrəli, "Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" 2010-cu il 5 mart tarixli 785 nömrəli, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında" 2011-ci il 27 dekabr tarixli 1938 nömrəli, "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 27 dekabr tarixli 852 nömrəli, "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020 2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 22 iyul tarixli 2173 nömrəli, "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 27 noyabr tarixli 2306 nömrəli, "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 27 noyabr tarixli 2307 nömrəli və "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında" 2022-ci il 22 iyul tarixli 3378 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 17 sentyabr tarixli 895 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 582; 2010, № 2, maddə 80; 2016, № 6, maddə 1028; 2019, № 5, maddə 911; 2020, № 8, maddə 1064; 2021, № 6 (I kitab), maddə 607; 2022, № 8, maddə 909; 2023, № 3, maddə 391) ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı"nın III hissəsinin 12-ci, 13-cü və 15-ci bəndlərinin "İcra orqanları" sütununda "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

**2.** "Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 5 mart tarixli 785 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 3, maddə 213; 2014, № 6, maddə 644; 2016, № 8, maddə 1384, № 9, maddə 1464; 2020, № 5, maddə 615; 2023, № 3, maddə 391) 1-ci hissəsində "Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktoru" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli 1938 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1217; 2012, № 12, maddə 1322; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1470; 2017, № 3, maddə 353; 2018, № 11, maddə 2378; 2019, № 2, maddə 257, № 5, maddə 877; 2020, № 8, maddə 1064; 2021, № 6 (I kitab), maddə 607, № 8, maddə 947; 2022, № 8, maddə 909; 2023, № 3, maddə 391, № 4 , maddə 535) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.7-ci, 2.8-ci və 2.15-ci bəndlərin ikinci abzaslarına "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözlərindən sonra ", Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri əlavə edilsin;

3.2. 4.18-ci bəndin ikinci abzasına "Nazirliyi" sözündən sonra ", Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 852 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2701; 2021, № 6 (I kitab), maddə 606; 2022, № 5, maddə 532, № 8, maddə 912; 2023, № 3, maddə 390, № 4, maddə 534) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı"nın "7. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsinin 7.4.4.5-ci və 7.5.3.1 – 7.5.3.3-cü yarımbəndlərinin "Əsas icraçı qurum" sütununda "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 iyul tarixli 2173 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 937; 2022, № 5, maddə 530; 2023, № 3, maddə 390, № 4, maddə 534) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020–2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın "4. Milli Fəaliyyət Planının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsinin 4.4.3-cü, 4.4.6-cı, 4.5.2-ci, 4.5.5-ci, 4.6.4-cü, 4.7.5-ci və 4.7.6-cı yarımbəndlərinin "İcraçı orqanlar" sütununda "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli 2306 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1374; 2021, № 8, maddə 946; 2022, № 5, maddə 534; 2023, № 3, maddə 390, № 4, maddə 534; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 iyun tarixli 3914 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı"nın "5. Fəaliyyət Planının icrası üçün Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 5.2.1 – 5.2.3-cü və 5.2.7-ci yarımbəndlərin "İcraçı qurumlar" sütununda "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin;

6.2. 5.2.4 – 5.2.6-cı və 5.3.10-cu yarımbəndlərin "İcraçı qurumlar" sütununa "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözlərindən sonra ", Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri əlavə edilsin.

**7.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli 2307 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1375; 2021, № 6 (I kitab), maddə 607; 2022, № 5, maddə 534; 2023, № 3, maddə 390, № 4, maddə 534) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın "12. Milli Fəaliyyət Planının həyata keçirilməsi ilə bağlı Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1. 12.2.4-cü və 12.5.3-cü yarımbəndlərin "İcraçılar" sütununda "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin;

7.2. 12.6.3-cü yarımbəndin "İcraçılar" sütununa "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözlərindən sonra ", Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri əlavə edilsin.

**8.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 790; 2023, № 3, maddə 391) "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın "7. Tədbirlər planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1.1.10-cu yarımbəndin 3-cü abzasının, 3.1.8-ci yarımbəndin 1-ci abzasının, 3.3.1-ci yarımbəndin 1-ci və 2-ci abzaslarının, 3.3.2-ci yarımbəndin 1-ci və 2-ci abzaslarının, 3.3.3-cü yarımbəndin 2-ci abzasının, 3.3.4-cü yarımbəndin 1-ci və 2-ci abzaslarının "Digər icraçılar" sütununda "İTSDA" akronimi "TƏBİB" akronimi ilə əvəz edilsin;

8.2. 3.3.1-ci yarımbəndin 3-cü və 4-cü abzaslarının, 3.3.2-ci yarımbəndin 3-cü abzasının, 3.3.3-cü yarımbəndin 1-ci abzasının, 3.3.7-ci yarımbəndin 1-ci, 3-cü və 4-cü abzaslarının "Digər icraçılar" sütununa "İTSDA" akronimindən əvvəl "TƏBİB," akronimi əlavə edilsin;

8.3. 3.3.5-ci yarımbənd üzrə:

8.3.1. 2-ci və 5-ci abzasların "Əsas icraçı orqan (qurum)" sütununda "İTSDA" akronimi "TƏBİB" akronimi ilə əvəz edilsin;

8.3.2. 3-cü abzasın "Digər icraçılar" sütununa "İTSDA" akronimindən sonra "(tibbi xidmətlərin keyfiyyət standartları sisteminin işlənilib hazırlanmasına, kliniki protokolların yenilənməsinə münasibətdə) TƏBİB" sözləri əlavə edilsin;

8.4. 3.3.6-cı yarımbəndin 1-ci abzasının "Digər icraçılar" sütununa "SN" akronimindən sonra ", TƏBİB" akronimi əlavə edilsin;

8.5. 5.1.1-ci yarımbəndin 1-ci abzasının "Digər icraçılar" sütunundan "İTSDA," akronimi çıxarılsın;

8.6. "AKRONİMLƏR VƏ İXTİSARLAR" hissəsinə "İTSDA Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözlərindən sonra ", TƏBİB Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 iyul 2023-cü il**

# "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 31 may tarixli 896-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1997-ci il 25 iyul tarixli 622 nömrəli, "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2003-cü il 5 iyun tarixli 878 nömrəli, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 790-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2013-cü il 25 noyabr tarixli 38 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 31 may tarixli 896-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin səkkizinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 12-ci maddəsinin səkkizinci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi nəzərdə tutulur.

**2.** "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 622 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 498; 2007, № 11, maddə 1114; 2009, № 12, maddə 977; 2011, № 2, maddə 84; 2014, № 3, maddə 242; 2017, № 6, maddə 1116, № 7, maddə 1317; 2020, № 6, maddə 690, № 7, maddə 881, № 12 (I kitab), maddə 1501; 2021, № 6 (I kitab), maddə 567, № 11, maddə 1219) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. dördüncü abzasda "və beşinci hissələrində" sözləri ", beşinci hissələrində, altıncı hissəsinin ikinci cümləsində və həmin maddənin "Qeyd" hissəsinin 2-ci bəndində" sözləri ilə əvəz edilsin;

2.2. beşinci abzasda "birinci və dördüncü hissələrində" sözləri "dördüncü hissəsində" sözləri ilə əvəz edilsin;

2.3. doqquzuncu abzasdan "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, digər tibb müəssisələrinə münasibətdə isə" sözləri çıxarılsın;

2.4. onuncu, on birinci və on ikinci (hər iki halda) abzaslarda "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin;

2.5. on üçüncü abzasda "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki dövlət tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "tabeliyindəki tibb müəssisələrinə münasibətdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə və həmin abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

2.6. aşağıdakı məzmunda on dördüncü abzas əlavə edilsin:

"həmin Qanunun 12-ci maddəsinin səkkizinci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi nəzərdə tutulur.".

**3.** "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 5 iyun tarixli 878 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 284) 2-ci hissəsi ləğv edilsin.

**4.** "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 790-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 25 noyabr tarixli 38 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 11, maddə 1342) 3-cü hissəsi ləğv edilsin.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 56-cı maddəsinin altıncı hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi tərəfindən tətbiq edilən cərimələrdən toplanan və həmin qurumun hesabına köçürülən vəsaitdən istifadə qaydasını üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

5.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 iyul 2023-cü il**

# “Yerin təkindən istifadənin dövlət tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 975 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# Azərbaycan Respublikasının Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, yer təkindən istifadənin səmərəliliyinin təmin edilməsi, istifadəçilərin bu sahədə fəaliyyətə giriş imkanlarının asanlaşdırılması və şəffaflığın təmin edilməsi məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 975 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 580; 2006, № 7, maddə 590; 2008, № 6, maddə 500, № 8, maddə 719, № 9, maddə 798; 2010, № 7, maddə 610; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384; 2017, № 6, maddə 1114; 2022, № 8, maddə 852) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədə “müsabiqə və hərracların keçirilməsi qaydaları və şərtləri haqqında Əsasnamə” sözləri “hərracların (auksion və müsabiqələrin) keçirilməsi Qaydaları” sözləri ilə əvəz edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş “Yer təkinin istifadəyə verilməsi üzrə müsabiqə və hərracların keçirilməsi qaydaları və şərtləri haqqında Əsasnamə” aşağıdakı redaksiyada verilsin:

**“Yer təkinin istifadəyə verilməsi üzrə hərracların (auksion və müsabiqələrin) keçirilməsi Qaydaları**

**1. Ümumi müddəalar**

1.1. Bu Qaydalar “Yerin təki haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 13-cü maddəsinin ikinci hissəsinin birinci cümləsinə uyğun olaraq hazırlanmışdır və yer təkinin istifadəyə verilməsi üzrə hərracın keçirilməsi mexanizmini müəyyən edir.

1.2. Yer təkinin istifadəyə verilməsi üzrə hərraclar Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Qanuna və bu Qaydalara uyğun olaraq, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi (bundan sonra – Agentlik) tərəfindən təşkil edilir, auksion və ya müsabiqə formasında keçirilir.

1.3. Bu Qaydalara uyğun olaraq hərrac iştirakçılarının təqdim etdikləri ərizənin, hərrac iştirakçılarının biletlərinin və protokolların forması Nazirlik tərəfindən təsdiq edilir, Nazirliyin və Agentliyin rəsmi internet səhifəsində yerləşdirilir.

1.4. Bu Qaydalarda istifadə olunan anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**2. Yer təki sahələrinin hərrac keçirilməsi üçün hazırlanması**

2.1. Agentlik Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hər il sentyabrın 15-dək növbəti il üçün ölkə iqtisadiyyatının və sənayesinin tikinti materiallarına olan tələbatı barədə Nazirliyə təqdim etdiyi proqnoz məlumatlarını nəzərə almaqla, Dövlət Geoloji İnformasiya Fondunda saxlanılan ehtiyatları təsdiq edilmiş faydalı qazıntı yataqlarına dair materialların təhlili əsasında növbəti il üçün hərraca çıxarılması nəzərdə tutulan yer təki sahələrinin siyahısını hər il dekabrın 15-dək müəyyənləşdirir.

2.2. Bu Qaydaların 2.1-ci bəndində nəzərdə tutulan siyahıda aşağıdakılar göstərilir:

2.2.1. hərraca çıxarılması mümkün olan yer təki sahəsinin adı və yerləşdiyi ərazinin hüdudları (bundan sonra – hərrac predmeti);

2.2.2. faydalı qazıntı yatağının dövlət qeydiyyat nömrəsi və tarixi;

2.2.3. sənaye əhəmiyyəti barədə hər bir yataqda əsas və yanakı faydalı qazıntı ehtiyatının kəmiyyəti və keyfiyyəti (komponentlərin miqdarı);

2.2.4. əsas və yanakı faydalı qazıntıların mühüm texniki xassələri;

2.2.5. Nazirliyin elmi-texniki şurası tərəfindən təsdiq edilmiş faydalı qazıntı ehtiyatlarının həcmi;

2.2.6. faydalı qazıntı ehtiyatlarının yerləşdiyi torpaq sahələrinin kateqoriyası, məqsədli təyinatı, istifadədə və ya icarədə olmasına dair məlumat, o cümlədən Qanunun 13-cü maddəsinin yeddinci hissəsinə uyğun olaraq torpaq sahəsinin ayrılmasına dair razılıq;

2.2.7. Nazirliyin elmi-texniki şurası tərəfindən təsdiq edilmiş ehtiyatların həcmi üzrə faydalı qazıntı yatağının geoloji-iqtisadi qiymətləndirilməsi (texniki-iqtisadi əsaslandırma və kondisiya məlumatları).

2.3. Agentlik hər il hərraca çıxarılması nəzərdə tutulan yer təki sahələrinin siyahısını, o cümlədən Qanuna müvafiq olaraq faydalı qazıntı yataqları yerləşən torpaq sahələrinin ayrılmasına dair torpaq sahiblərindən və aidiyyəti dövlət orqanlarından (qurumlarından) qabaqcadan alınmış razılığı bu Qaydaların 6.3-cü bəndində göstərilmiş hərrac komissiyasına təqdim edir.

**3. Yer təkinin istifadəyə verilməsi ilə bağlı keçirilən hərracların forması**

3.1. Birbaşa danışıqlar yolu ilə istifadəyə verilmə halları istisna olmaqla, yer təki istifadəyə hərrac vasitəsilə verilir. Azərbaycan Respublikası ərazisində yerləşən qeyri-filiz yataqları auksion, filiz yataqları isə müsabiqə qaydasında istifadəyə verilir.

3.2. Yer təkinin istifadəyə verilməsi ilə bağlı keçirilən müsabiqə açıq və ya qapalı, auksion isə açıq elan olunur. Açıq müsabiqədə və auksionda mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının, habelə xarici ölkələrin hüquqi və fiziki şəxsləri iştirak edə bilərlər. Qapalı müsabiqədə yalnız bu məqsəd üçün dəvət olunan şəxslər iştirak edirlər.

3.3. Qapalı müsabiqə aşağıdakı hallarda keçirilir:

3.3.1. istifadəyə verilən yer təki sahəsinə dair geoloji informasiya məxfi hesab edildikdə;

3.3.2. radioaktiv xammalın çıxarılması məqsədilə yer təki istifadəyə verildikdə;

3.3.3. konversiya proqramını həyata keçirən müdafiə müəssisələri iştirakçı qismində çıxış etdikdə.

**4. Hərrac haqqında məlumatın verilməsi**

4.1. Agentlik yer təkindən istifadə ilə bağlı hərracın keçirilməsi üçün elanı (bundan sonra – elan) hazırlayır və hərracın keçiriləcəyi tarixdən azı 30 (otuz) iş günü əvvəl media vasitəsilə (qapalı müsabiqə keçirildiyi hallar istisna olmaqla) yayılmasını, həmçinin Nazirliyin və Agentliyin rəsmi internet səhifələrində yerləşdirilməsini təmin edir.

4.2. Elanda aşağıdakı məlumatlar əks etdirilməlidir:

4.2.1. hərracın forması;

4.2.2. hərracda iştirak etmək üçün təqdim olunmalı sənədlərin siyahısı;

4.2.3. ərizənin verilmə yeri və ərizə qəbulunun son tarixi;

4.2.4. hərracın keçiriləcəyi tarix, saat və yer;

4.2.5. yer təki sahəsinin yerləşdiyi ərazi, faydalı qazıntı yatağının adı, onun barəsində ümumi məlumat və qısa geoloji xarakteristikası;

4.2.6. yer təkinin istismara verilmə müddəti;

4.2.7. müsabiqə keçirildikdə, qiymətləndirmə aparılacaq meyarların siyahısı;

4.2.8. sənədləri qəbul edən məsul şəxsin soyadı, adı, atasının adı, vəzifəsi, əlaqə vasitələri və Agentliyin bank rekvizitləri haqqında məlumatlar;

4.2.9. iştirak haqqının məbləği və hərrac predmetinin başlanğıc qiyməti.

4.3. Hərracda iştirak etmək istəyən şəxslər elanda göstərilən iştirak haqqının məbləğini ödədikdən və məbləğin ödənilməsi barədə sənədi Agentliyə təqdim etdikdən sonra həmin şəxslərə şərtlər toplusu verilir. Şərtlər toplusunda aşağıdakı məlumatlar göstərilir:

4.3.1. behin (başlanğıc qiymətin 10 faizi) ödənilmə forması və müddəti;

4.3.2. auksion keçirildikdə, hərrac predmetinin başlanğıc qiymətinin 1 faizindən az olmamaqla qiymət artımı;

4.3.3. müsabiqə keçirildikdə, ərizəçi tərəfindən təqdim olunan texniki-iqtisadi təklifin məzmununa dair əsas tələblər;

4.3.4. yer təkindən istifadəyə görə Qanunda və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş ödənişlər və istismara dair tələb olunan zəruri sənədlər;

4.3.5. müsabiqə keçirildikdə, elanda göstərilən qiymətləndirmə meyarları nəzərə alınmaqla texniki-iqtisadi təklifin qiymətləndirilməsi qaydası;

4.3.6. tətbiq olunacaq innovasiyalara, cəlb ediləcək işçi heyətə, istifadə olunacaq avadanlığa dair tələblər;

4.3.7. yer təkindən səmərəli istifadəyə və ətraf mühitin mühafizəsinə dair tələblər.

4.4. Hərracda iştirak haqqının məbləği və hərrac predmetinin başlanğıc qiyməti Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla Nazirliyin təsdiq etdiyi metodiki sənədə uyğun olaraq müəyyənləşdirilir.

4.5. Qapalı müsabiqə keçirildiyi təqdirdə, bu Qaydaların 4.2-ci və 4.3-cü bəndlərində göstərilən məlumatları əks etdirən sənədlər qapalı müsabiqənin keçiriləcəyi tarixdən 10 (on) iş günü əvvəl iştirak edəcək şəxslərə kağız daşıyıcıda sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada göndərilir.

**5. Hərracda iştirak üçün ərizələrin verilməsi və qəbul edilməsi**

5.1. Hərracda iştirak etmək üçün hüquqi və fiziki şəxslər Agentliyə “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrində nəzərdə tutulmuş qaydada ərizə (bundan sonra – ərizə) təqdim edirlər.

5.2. Ərizədə aşağıdakılar göstərilməlidir:

5.2.1. ərizəçinin müraciət etdiyi inzibati orqanın adı;

5.2.2. ərizəçi fiziki şəxs olduqda – soyadı, adı, atasının adı və fəaliyyət göstərdiyi ünvan, şəxsiyyət vəsiqəsinin seriyası (olduğu halda) və nömrəsi, VÖEN-də göstərilən məlumatlar;

5.2.3. ərizəçi hüquqi şəxs olduqda – onun adı, hüquqi ünvanı və VÖEN-də göstərilən məlumatlar;

5.2.4. müraciətin qısa məzmunu;

5.2.5. ərizənin tərtib edildiyi tarix və ərizəçinin imzası;

5.2.6. ərizəçinin əlaqə nömrəsi və elektron poçt ünvanı;

5.2.7. ərizəyə əlavə edilmiş sənədlərin siyahısı.

5.3. Ərizə müraciət edən fiziki şəxsin özü və ya hüquqi şəxsin rəhbəri, yaxud onların səlahiyyətli nümayəndələri tərəfindən (səlahiyyəti təsdiq edən sənədin əsli və ya notariat qaydada təsdiqlənmiş surəti ərizəyə əlavə edilməklə) imzalanır.

5.4. Hüquqi şəxs tərəfindən təqdim olunan ərizəyə möhür vurulmalıdır.

5.5. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

5.5.1. ərizəçi fiziki şəxs olduqda – şəxsiyyətini təsdiq edən sənədin surəti, hüquqi şəxs və ya xarici hüquqi şəxsin filialı olduqda – təsis sənədlərinin və hüquqi şəxslərin dövlət reyestrindən alınmış sonuncu çıxarışının notariat qaydasında təsdiqlənmiş və ya Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə alınmış surəti (xarici hüquqi şəxslərin və onların nümayəndəliklərinin sənədləri mövcud qanunvericiliyin tələblərinə uyğun leqallaşdırılmalıdır);

5.5.2. ayrı-ayrı möhürlü zərflərdə elan edilmiş başlanğıc qiymətdən aşağı olmayan qiymət təklifi və texniki-iqtisadi təklif (müsabiqə keçirilən hallarda);

5.5.3. hərracda iştirak etmək üçün tələb olunan behin ödənilməsinə dair ödəniş qəbzi;

5.5.4. ərizəçinin tətbiq etdiyi texnologiyanın təsviri, istehsal ili, markası, istismar müddəti göstərilmək şərtilə texniki avadanlıqların siyahısı və onların texniki sənədlərinin surəti;

5.5.5. ərizəçinin illik maliyyə hesabatı, “Vergi ödəyicisinin vergi borcu barədə” arayış;

5.5.6. qapalı müsabiqədə iştirak etdikdə, “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məxfi hesab olunan məlumatlardan və sənədlərdən istifadə hüququnun verilməsini təsdiq edən sənəd;

5.5.7. qapalı müsabiqədə iştirak etdikdə, faydalı qazıntıların çıxarılması sahəsində azı 3 (üç) il təcrübəsini təsdiq edən müvafiq icazənin surəti və mədən vergisinin ödənilməsini təsdiq edən sənəd.

5.6. Agentlik tərəfindən ərizəyə əlavə edilməli olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir. Həmin sənədlər kağız daşıyıcıda və ya elektron sənəd formasında təqdim edilə bilər. Elanda göstərilmiş müddət bitdikdən sonra təqdim olunmuş ərizələr qəbul edilmir.

5.7. Hərracda iştirakla bağlı təqdim olunmuş ərizələr Agentlik tərəfindən elanda göstərilmiş ünvanda qəbul edilir və həmin gün qeydiyyata alınır. Agentliyin nümayəndəsi tərəfindən ərizə qəbul edildiyi gündən ən geci 3 (üç) iş günü müddətində Agentlik ərizənin qeydiyyat tarixi və nömrəsi haqqında arayışı ərizəçiyə sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada göndərməyə borcludur.

5.8. Agentlik təqdim edilmiş ərizənin və ona əlavə olunmuş sənədlərin bu Qaydaların 5.1–5.6-cı və 5.14-cü bəndlərinə uyğunluğunu 5 (beş) iş günü müddətində yoxlayır, ərizədə və ona əlavə edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan və imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar etdikdə, onların aradan qaldırılması barədə məlumatı ərizəçiyə təqdim edir, yaxud sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada göndərir. Həmin çatışmazlıqların aradan qaldırılmamasının hüquqi nəticələri ona izah edilir. Bütün çatışmazlıqlar barədə məlumat ərizəçiyə eyni zamanda bildirilməlidir. Ərizəçi həmin çatışmazlıqlar barədə məlumatı aldığı vaxtdan ən geci 7 (yeddi) iş günü ərzində onları aradan qaldırmalıdır.

5.9. Bu Qaydaların 5.8-ci bəndində nəzərdə tutulan yoxlama müddəti bitdikdən sonra, Agentlik tərəfindən qəbul edilmiş ərizə və sənədlər aşağıdakı hallarda imtina səbəbi göstərilməklə ərizəçiyə təqdim olunur, yaxud sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada 5 (beş) iş günü müddətində geri qaytarılır:

5.9.1. ərizəçi həmin sahə üzrə əvvəllər keçirilmiş hərracda qalib olduğu, lakin hərrac ödənişini etməkdən və protokolu imzalamaqdan imtina etdikdə;

5.9.2. ərizəçinin təqdim etdiyi sənədlərdə yanlış məlumatlar aşkar edildikdə.

5.10. Hərracda iştirak üçün ərizə ilə müraciət etmiş şəxs ərizələrin qəbulunun son tarixinədək öz ərizəsini geri götürə bilər. Bunun üçün ərizəçi Agentliyə sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada müraciət etməlidir. Ərizənin geri götürülməsi barədə müvafiq qeydiyyat aparılmalı və ödənilmiş beh həmin şəxsə geri qaytarılmalıdır.

5.11. Bu Qaydaların 5.8-ci bəndində göstərilən müddət ərzində sənədlərdəki çatışmazlıqlar aradan qaldırılmadığı halda Agentlik həmin ərizənin baxılmamış saxlanılması haqqında inzibati akt qəbul edir, bununla bağlı müvafiq qeydiyyat aparır və inzibati aktın qəbul edilməsi haqqında məlumatı sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada ərizəçiyə təqdim edir.

5.12. Təqdim edilmiş ərizənin yoxlanılması nəticəsində çatışmazlıq aşkar edilmədiyi halda və ya aşkar edilmiş çatışmazlıqlar bu Qaydaların 5.8-ci bəndində göstərilən müddət ərzində aradan qaldırıldıqda, həmin ərizəni təqdim etmiş şəxsə 5 (beş) iş günü ərzində hərracın iştirakçısı statusunu əldə etməsi barədə sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada məlumat verilir. Hərracda iştirak edənlərin siyahısı barədə Agentliyin qərarı protokolla rəsmiləşdirilir. Həmin protokola ərizəçilərin adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı, hüquqi şəxs olduqda isə adı) göstərilməklə qəbul edilmiş ərizələr, həmçinin ərizəçi tərəfindən geri götürülmüş, Agentlik tərəfindən baxılmamış saxlanılmış və imtina səbəbi göstərilməklə geri qaytarılmış ərizələr barədə məlumatlar da daxil edilir.

5.13. Agentlik təqdim olunan ərizələrin və həmin ərizələrə əlavə edilmiş sənədlərin qorunub saxlanılmasını və konfidensiallığını təmin edir.

5.14. Bu Qaydaların 6.3-cü bəndində göstərilmiş hərrac komissiyasının üzvləri və onların Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.7-ci maddəsində göstərilən ailə üzvləri hərracın iştirakçısı ola bilməzlər.

**6. Hərrac komissiyasının fəaliyyətinin təşkili**

6.1. Hərracın keçirilməsi barədə elan verilməzdən 10 (on) iş günü əvvəl Agentliyin qərarı ilə hər hərrac üçün ayrıca hərrac komissiyası (bundan sonra – Komissiya) yaradılır və bu barədə Komissiya üzvlərinə yazılı məlumat verilir. Hərrac başa çatdıqdan sonra Komissiya öz fəaliyyətini dayandırır.

6.2. Komissiyanın vəzifəsi hərrac iştirakçılarının təqdim etdikləri sənədlərin hərrac şərtlərinə uyğunluğunu yoxlamaqdan və qalibi müəyyən etməkdən ibarətdir.

6.3. Komissiyanın tərkibi Agentlik tərəfindən təsdiq edilir və sədr də daxil olmaqla azı 5 (beş) üzvdən ibarət olmalıdır. Komissiyanın tərkibinə Agentliyin, Nazirliyin, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin (faydalı qazıntı yataqları yerləşən torpaq sahəsi kənd təsərrüfatı kateqoriyasına aid olduqda), müvafiq yerli icra hakimiyyətinin (faydalı qazıntı yataqları yerləşən torpaq sahəsi dövlət mülkiyyətində olduqda) və ya müvafiq bələdiyyənin (faydalı qazıntı yataqları yerləşən torpaq sahəsi bələdiyyə mülkiyyətində olduqda), yaxud Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin (faydalı qazıntı yataqları işğaldan azad edilmiş ərazilərdə yerləşdikdə) səlahiyyətli nümayəndəsi daxil edilir. Komissiyanın sədri Agentliyin səlahiyyətli nümayəndəsidir. Komissiyanın katibi Agentliyin işçiləri sırasından təyin edilir.

6.4. Hərracın nəticələrində şəxsən maraqlı olan və ya hərracda iştirak edən şəxslərlə Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.7-ci maddəsində göstərilən qohumluq əlaqələri olan, habelə əmək qabiliyyətinin müvəqqəti itirilməsi, ezamiyyətdə, məzuniyyətdə olma və ya digər səbəblərdən Komissiyanın iclasında iştirak edə bilməyən Komissiya üzvü hərracın keçirilməsinə 5 (beş) iş günü qalmış bu barədə Komissiyanın sədrinə yazılı məlumat verməlidir. Bu halda Agentlik tərəfindən həmin Komissiya üzvünün əvəz olunması ilə bağlı dərhal aidiyyəti quruma müraciət edilir.

6.5. Komissiya onun üzvlərinin azı üçdə ikisi iclasda iştirak etdikdə səlahiyyətlidir.

6.6. Komissiyanın sədri Komissiyanın işini təşkil edir və ona rəhbərliyi həyata keçirir, Komissiyanın qərarlarını və Komissiyanın fəaliyyəti ilə bağlı digər sənədləri imzalayır, iclasların gündəliyini, reqlamentini müəyyənləşdirir və keçirilən iclaslara sədrlik edir.

6.7. Komissiya üzvləri Komissiyanın iclaslarında və qərarların qəbul edilməsi ilə bağlı səsvermədə iştirak edir, Komissiyaya daxil olan ərizələrə münasibət bildirir, rəy və təkliflər verir, iclas protokolu ilə tanış olur, onu imzalayır və Komissiyanın qərarı ilə razılaşmadıqda bu barədə özlərinin əsaslandırılmış xüsusi rəyini yazılı şəkildə Agentliyə təqdim edirlər.

6.8. Hərracın keçirilməsi zamanı yaranan mübahisələr danışıqlar yolu ilə həll edilir. Hərraca çıxarılan yerin təki sahəsi ilə əlaqədar yaranan fikir ayrılıqları zamanı Agentlik məsləhətçi qismində müstəqil ekspert və mütəxəssisləri cəlb edə bilər. Hərrac predmeti olan yer təki sahəsindən istifadədə maraqlı olan tərəflərin nümayəndələri Komissiyanın işinə məsləhətçi qismində cəlb edilə bilməzlər.

6.9. Komissiyanın iclasında qərarlar açıq səsvermə yolu ilə, iştirak edən üzvlərin sadə səs çoxluğu əsasında qəbul edilir. Səslər bərabər olduqda Komissiya sədrinin səsi həlledici hesab edilir (bu Qaydaların 7.5-ci bəndində nəzərdə tutulmuş hal istisna olmaqla). Komissiyanın sədri sonuncu səs verir. Komissiya üzvlərinin bitərəf qalmasına yol verilmir.

6.10. Komissiyanın iclasının nəticəsi Komissiyanın sədri və üzvləri tərəfindən imzalanmış iclas protokolunda əks olunmaqla rəsmiləşdirilir.

6.11. Komissiyanın iclasında yetərsay olmadıqda Komissiyanın iclası 10 (on) iş günü müddətinə təxirə salınır.

**7. Müsabiqənin keçirilməsi qaydası**

7.1. Müsabiqə 2 (iki) mərhələdə keçirilir. Birinci mərhələdə müsabiqə iştirakçılarının təqdim etdikləri təkliflər təhlil edilir, ikinci mərhələdə isə müsabiqə iştirakçılarının təklif etdikləri qiymət elan olunur və qalib müəyyən edilir.

7.2. Birinci mərhələdə Agentlik tərəfindən ərizələrin yoxlanılması başa çatdıqdan və müsabiqə iştirakçılarının siyahısı rəsmiləşdirildikdən sonra 10 (on) iş günü müddətində Komissiyanın iclası keçirilir və iştirakçıların müsabiqənin şərtləri ilə bağlı texniki-iqtisadi təklifləri təhlil olunur. Müsabiqənin şərtlərinə uyğun olan iştirakçılar müsabiqənin ikinci mərhələsinə buraxılırlar və bu barədə məlumatlar birinci mərhələnin nəticələri haqqında tərtib edilmiş protokolda qeyd olunur. Protokol tərtib edildikdən sonra 3 (üç) iş günü ərzində iştirakçılara sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada birinci mərhələnin yekununa dair məlumat verilir.

7.3. Birinci mərhələ bitdikdən sonra 2 (iki) iş günü müddətində Komissiyanın iclasının günü və vaxtı müəyyən olunur və ikinci mərhələyə buraxılmış iştirakçılara sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada bildiriş göndərilir. Müsabiqənin keçirildiyi gün müsabiqə iştirakçılarının müsabiqə predmeti barədə qiymət təklifi Agentlik tərəfindən möhürlü zərfdə Komissiyanın sədrinə və üzvlərinə təqdim edilir. Zərflər açılmazdan əvvəl Komissiyanın üzvləri onların bütövlüyünü yoxlayırlar. Texniki-iqtisadi təkliflər qiymətləndirildikdən sonra qiymət təklifinə dair zərflər açılır və Komissiyanın sədri tərəfindən hər bir müsabiqə iştirakçısının təklif etdiyi qiymət elan olunur. Yoxlamanın gedişi, onun nəticəsi və hər bir müsabiqə iştirakçısının təklif etdiyi qiymətlə bağlı müsabiqənin nəticələrinə dair protokolda qeydlər aparılır. Müsabiqə iştirakçıları tərəfindən təklif olunan qiymət müsabiqənin keçirilməsi ilə bağlı şərtlər toplusunda göstərilən başlanğıc qiymətə bərabər və ya ondan yuxarı olmalıdır. Təklif olunan qiymət rəqəmlə və yazılı şəkildə sözlə göstərilməlidir. Əgər sözlə göstərilən qiymət rəqəmlə göstəriləndən fərqli olarsa, onda Komissiya sözlə yazılan qiyməti əsas götürür. Zərflərin açılışında və təkliflərin elan edilməsində bütün müsabiqə iştirakçıları və ya onların etibarnamə üzrə səlahiyyətli şəxsləri və media nümayəndələri iştirak edə bilərlər.

7.4. Komissiya üzvləri, şərtlər toplusunda nəzərdə tutulmuş qiymətləndirmə qaydasına uyğun olaraq, səsvermə yolu ilə müsabiqə iştirakçıları arasında ən yaxşı texniki-iqtisadi təklif vermiş fiziki və ya hüquqi şəxsi seçirlər və həmin şəxs müsabiqənin qalibi hesab edilir. Agentlik texniki-iqtisadi təkliflərin qiymətləndirilməsinə mütəxəssisləri və ya ixtisaslaşmış təşkilatları cəlb edə bilər. Komissiya tərəfindən seçilmiş ən yaxşı texniki-iqtisadi təklif aşağıdakı meyarlara cavab verməlidir:

7.4.1. yer təkinin istifadəsi ilə bağlı müsabiqənin şərtlərinə uyğun olmalı, daha yaxşı iqtisadi göstəriciləri və texniki həlləri təmin etməli;

7.4.2. ətraf mühitin və yer təkinin mühafizəsi ilə bağlı tələblərə cavab verməlidir.

7.5. Müsabiqə iştirakçıları tərəfindən verilmiş təkliflər səsvermə zamanı bərabər səs topladıqda, daha yüksək qiymət təklifi verən fiziki və ya hüquqi şəxs qalib hesab edilir. Müsabiqə iştirakçılarının təklif etdiyi qiymət bərabər olarsa, onlara iclas gedişində rəqəmlə və sözlə yazılı formada yeni qiymət təklifinin verilməsi təklif olunur. Daha yüksək qiymət təklif edən fiziki və ya hüquqi şəxs qalib hesab edilir.

7.6. Müsabiqə aşağıdakı hallarda baş tutmamış hesab olunur:

7.6.1. bir iddiaçı müraciət etdikdə;

7.6.2. təqdim olunmuş təkliflərin heç biri müsabiqənin şərtlərinə uyğun olmadıqda;

7.6.3. bu Qaydaların tələbləri pozulmaqla keçirildikdə.

7.7. Müsabiqənin qalibi müsabiqənin nəticələri haqqında yekun protokolu imzalamaqdan imtina etdikdə və (və ya) 10 (on) iş günü ərzində ödəniş etmədikdə, müsabiqənin nəticəsi ləğv olunur. Yekun protokolu imzalamaqdan imtina edən və (və ya) 10 (on) iş günü ərzində ödəniş etməkdən imtina edən müsabiqə qalibinin behi qaytarılmır və həmin iştirakçı yer təkinin istifadəyə verilməsi üzrə keçiriləcək növbəti 2 (iki) hərracda iştirak hüququnu itirir.

7.8. Bu Qaydaların 7.7-ci bəndində nəzərdə tutulan halda daha yaxşı təklif vermiş növbəti iştirakçı müsabiqənin qalibi hesab edilir. Həmin şəxs müsabiqənin nəticələri haqqında yekun protokolu imzalamaqdan imtina etdikdə və (və ya) 10 (on) iş günü ərzində ödəniş etmədikdə müsabiqənin nəticəsi ləğv edilir.

7.9. Bu Qaydaların 7.6.1-ci yarımbəndində göstərilən hal istisna olmaqla, müsabiqə baş tutmadıqda, Agentlik başlanğıc qiyməti 10 faiz aşağı salmaqla, 30 (otuz) iş günü ərzində müsabiqənin təkrar keçirilməsini elan edə bilər. Növbəti dəfə müsabiqə baş tutmazsa, Agentlik müsabiqə predmetinin müsabiqəyə çıxarılması nəzərdə tutulan yer təki sahələrinin siyahısından çıxarılması barədə qərar qəbul edir.

**8. Auksionun keçirilməsi qaydası**

8.1. Auksion Agentlik tərəfindən ərizələrin yoxlanılması başa çatdıqdan və iştirakçıların siyahısı rəsmiləşdirildikdən sonra aşağıdakı qaydada keçirilir:

8.1.1. Komissiyanın sədri tərəfindən auksionu aparan şəxs (bundan sonra – auksionçu) təyin olunur. Auksionçu hərrac predmetinin adını, əsas xüsusiyyətlərini, başlanğıc qiymətini və auksion addımını elan edərək auksiona başlayır;

8.1.2. auksion iştirakçılarına əvvəlcədən nömrələnmiş biletlər verilir. Başlanğıc qiymət elan olunduqdan sonra auksion iştirakçıları öz biletlərini qaldırmaqla elan olunmuş qiyməti ödəməyə razı olduqlarını bildirirlər;

8.1.3. başlanğıc qiymət iştirakçıların əlavələr etməsi yolu ilə artırılır. Auksion addımı hər dəfə hərrac predmetinin başlanğıc qiymətinin 1 faizindən az olmamaqla auksion iştirakçıları tərəfindən artırılır;

8.1.4. auksionçu hər yeni qiymət təklifini auksion addımını nəzərə almaqla elan edir;

8.1.5. auksionçu növbəti təklif olunan qiyməti 3 (üç) dəfə təkrar etdikdən sonra auksion iştirakçılarının heç biri biletini qaldıraraq münasibət bildirmədikdə, auksion başa çatmış hesab olunur. Ən yüksək qiyməti təklif etmiş iştirakçı auksionun qalibi hesab edilir;

8.1.6. auksionçu auksionun sonunda hərrac predmetini, onun satış qiymətini və auksion qalibinin bilet nömrəsini elan edir;

8.1.7. auksion qalibinin təklif etdiyi qiymət auksionun nəticələri haqqında protokolda qeyd olunur.

8.2. Auksion aşağıdakı hallarda baş tutmamış hesab edilir:

8.2.1. auksionda 1 (bir) iştirakçı iştirak etdikdə;

8.2.2. auksion iştirakçıları başlanğıc qiymət 3 (üç) dəfə təkrar olunduqdan sonra biletini qaldırmadıqda;

8.2.3. bu Qaydaların tələbləri pozulmaqla keçirildikdə.

8.3. Auksion qalibi auksionun nəticələri haqqında yekun protokolu imzalamaqdan imtina etdikdə və (və ya) 10 (on) iş günü ərzində ödəniş etmədikdə, auksionun nəticəsi ləğv olunur. Yekun protokolu imzalamaqdan imtina edən və (və ya) 10 (on) iş günü ərzində ödənişi etməyən auksion qalibinin behi qaytarılmır və həmin iştirakçı yer təkinin istifadəyə verilməsi üzrə keçiriləcək növbəti 2 (iki) hərracda iştirak hüququnu itirir. Bu müddəa bu Qaydaların 8.4-cü bəndinə uyğun olaraq, qalib hesab edilən iştirakçıya şamil olunmur.

8.4. Bu Qaydaların 8.3-cü bəndində göstərilən hal yarandıqda, daha yuxarı təklif vermiş növbəti iştirakçı auksion qalibi hesab edilir. Həmin şəxs auksionun nəticələri haqqında yekun protokolu imzalamaqdan imtina etdikdə və (və ya) 10 (on) iş günü ərzində ödəniş etmədikdə, auksionun nəticəsi ləğv edilir.

8.5. Bu Qaydaların 8.2.1-ci bəndində göstərilən hal istisna olmaqla auksion baş tutmadıqda, Agentlik başlanğıc qiymətini 10 faiz aşağı salmaqla, 30 (otuz) iş günü ərzində auksionun təkrar keçirilməsini elan edə bilər. Növbəti dəfə auksion baş tutmazsa, Agentlik auksion predmetinin auksiona çıxarılması nəzərdə tutulan yer təki sahələrinin siyahısından çıxarılması barədə qərar qəbul edir.

**9. Hərracın nəticələrinin rəsmiləşdirilməsi**

9.1. Hərracın qalibi, Komissiyanın sədri və üzvləri hərracın keçirildiyi gün hərracın nəticələri haqqında yekun protokolu imzalayırlar. Bu protokol yer təkinin istifadəyə verilməsi üçün hüquqi əsasdır.

9.2. Yekun protokolda aşağıdakılar göstərilir:

9.2.1. hərrac predmetinin adı, yeri, faydalı qazıntı yatağının qiymətləndirilmiş ehtiyatları;

9.2.2. hərracda qalib gəlmiş iştirakçı haqqında məlumatlar (hüquqi şəxsin adı, hüquqi ünvanı və digər rekvizitləri, fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənədin seriyası və nömrəsi);

9.2.3. hərrac predmetinin satış qiyməti;

9.2.4. Komissiya sədrinin, üzvlərinin və qalibin imzaları.

9.3. Bu Qaydaların 9.1-ci bəndinə uyğun olaraq, hərracın yekun protokolu 2 (iki) nüsxədə tərtib olunur, bir nüsxəsi qalibə verilir, digəri isə Agentlikdə saxlanılır.

9.4. Hərrac keçirilmədikdə və ya baş tutmadıqda, bu Qaydaların 7.7-ci və 8.3-cü bəndlərində qeyd edilənlər istisna olmaqla, beh geri qaytarılmalıdır. Hərracda iştirak edən, lakin qalib gəlməyən şəxslərin də behi qaytarılır. Hərracda qalib gəlmiş şəxs tərəfindən ödənilmiş behin məbləği onun öhdəliklərinin icrası hesabına daxil edilir.

9.5. Hərracın nəticələrinə dair yekun protokol əsasında, Qanuna və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, yer təki sahəsi “dağ-mədən ayırması” statusu (icazə) verməklə hərrac qalibinin istifadəsinə verilir.

9.6. Hərracın keçirilməsi ilə bağlı mübahisələr tərəflər arasında həll edilməzsə, inzibati və məhkəmə qaydasında həll edilir.”.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 iyul 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə” 2018-ci il 18 iyul tarixli 213 nömrəli, “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2019-cu il 29 yanvar tarixli 500 nömrəli, “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında” 2019-cu il 31 yanvar tarixli 502 nömrəli, “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə”nin və “e-sosial” internet portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2019-cu il 15 aprel tarixli 634 nömrəli və “Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2020-ci il 27 fevral tarixli 946 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1639; 2019, № 2, maddə 219; 2020, № 6, maddə 690, № 12 (I kitab), maddə 1483; 2021, № 6 (I kitab), maddə 570, № 11, maddə 1219; 2022, № 5, maddə 445, № 8, maddə 839; 2022, № 8, maddə 839, № 12, maddə 1450) ilə təsdiq edilmiş “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi”nin 3.1.9-1-ci və 3.1.24-1 – 3.1.24-7-ci yarımbəndləri ləğv edilsin.

**2.** “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1499, № 11, maddə 2239; 2019, № 7, maddə 1217; 2020, № 7, maddə 861; 2021, № 6 (I kitab), maddə 573, № 8, maddə 916; 2023, № 3, maddə 347) 2.6-cı bəndində “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 90, № 11, maddə 1719; 2020, № 8, maddə 1039, № 12 (I kitab), maddə 1479; 2021, № 3, maddə 225, № 5, maddə 452, № 6 (I kitab), maddə 572, № 9, maddə 989, № 10, maddə 1103; 2022, № 5, maddə 462, № 6, maddə 599, № 12, maddə 1438) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın “7. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı” hissəsinin 7.2.16-cı, 7.3.1.11-ci, 7.3.2.11-ci, 7.3.3.11-ci, 7.3.4.11-ci, 7.3.5.12-ci, 7.3.6.12-ci, 7.3.7.13-cü, 7.3.8.12-ci, 7.3.9.13-cü, 7.3.10.13-cü, 7.3.11.12-ci, 7.3.12.13-cü, 7.3.13.12-ci, 7.3.14.13-cü, 7.3.15.13-cü, 7.3.16.13-cü, 7.3.17.13-cü, 7.3.18.13-cü, 7.3.19.13-cü, 7.3.20.11-ci, 7.3.21.12-ci, 7.3.22.13-cü, 7.3.23.13-cü, 7.3.24.13-cü, 7.3.25.14-cü, 7.3.26.11-ci, 7.3.27.9-cu, 7.3.28.13-cü, 7.3.29.12-ci, 7.3.30.12-ci, 7.3.31.13-cü, 7.3.32.14-cü, 7.3.33.13-cü, 7.3.34.13-cü, 7.3.35.14-cü, 7.3.36.13-cü, 7.3.37.12-ci, 7.3.38.14-cü, 7.3.39.13-cü, 7.3.40.13-cü, 7.3.41.12-ci, 7.3.42.13-cü, 7.3.43.13-cü, 7.3.44.13-cü, 7.3.45.14-cü, 7.3.46.14-cü, 7.3.47.13-cü, 7.3.48.12-ci, 7.3.49.13-cü, 7.3.50.14-cü, 7.3.51.12-ci, 7.3.52.14-cü, 7.3.53.13-cü, 7.3.54.11-ci, 7.3.55.12-ci və 7.3.56.12-ci yarımbəndlərinin “İcraçılar” sütununda “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” sözləri ilə əvəz edilsin.

**4.** “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 92, № 12, maddə 1941; 2020, № 5, maddə 562, № 12, maddə 1502; 2021, № 7, maddə 731; 2022, № 12, maddə 1450) 6.13-cü bəndində “tabeliyindəki Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi qismində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 634; 2020, № 4, maddə 417; 2021, № 5, maddə 445, № 6 (I kitab), maddə 566, № 8, maddə 919, № 10, maddə 1114, № 12, maddə 1406; 2022, № 5, maddə 462, № 7, maddə 761, № 8, maddə 848; 2023, № 3, maddə 347) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 4.1.16-2-ci yarımbənd əlavə edilsin:

“4.1.16-2. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi;”.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 946 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 104, № 12 (I kitab), maddə 1467; 2021, № 4, maddə 315; 2023, № 3, maddə 353) ilə təsdiq edilmiş “Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası”nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. aşağıdakı məzmunda 2.1.8-1-ci yarımbənd əlavə edilsin:

“2.1.8-1. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi;”;

6.2. 2.18.2-ci yarımbənddə “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin” sözləri “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin” sözləri ilə əvəz edilsin;

6.3. 2.23.2-ci yarımbənddə “İcbari Sığorta üzrə Dövlət Agentliyi” sözləri “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 iyul 2023-cü il**

---

## Azərbaycan Respublikası Prezidentinin “Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı sahəsində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında” 2020-ci il 23 sentyabr tarixli 1160 nömrəli, “Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında” 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli, “İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında” Azərbaycan Respublikasının 2020-ci il 20 oktyabr tarixli 189-VIQ nömrəli Qanununun tətbiqi barədə” 2020-ci il 8 dekabr tarixli 1208 nömrəli, “Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinin yaradılması və fəaliyyətinin təşkili haqqında” 2021-ci il 25 iyun tarixli 1380 nömrəli və “Azərbaycan Respublikasının ərazisinə müşayiətsiz gələn və ya gəldikdən sonra müşayiətsiz qalan 18 yaşına çatmamış əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin vahid məlumat bazasının yaradılması və Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” 2022-ci il 22 iyul tarixli 1760 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı sahəsində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 23 sentyabr tarixli 1160 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1150) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 7-ci hissə üzrə:

1.1.1. 7-ci hissənin birinci abzasında “Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” sözləri ilə əvəz edilsin;

1.1.2. 7.1-ci bənddən “və həmin sənədlər üzrə məlumatların real vaxt rejimində EHİS vasitəsilə Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri İnformasiya Sisteminə ötürülməsini” sözləri çıxarılsın;

1.2. aşağıdakı məzmunda 7-1-ci hissə əlavə edilsin:

“7-1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi bu Fərmanın 7.1-ci bəndində qeyd olunan sənədlər üzrə məlumatların real vaxt rejimində EHİS vasitəsilə Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri İnformasiya Sisteminə ötürülməsini təmin etsin.”.

**2.** “Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1248, № 12 (I kitab), maddə 1472; 2021, № 2, maddə 120, № 5, maddə 452; 2022, № 5, maddə 463, № 10, maddə 1147) 10-cu hissəsində “Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” sözləri ilə əvəz edilsin.

**3.** “İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında” Azərbaycan Respublikasının 2020-ci il 20 oktyabr tarixli 189-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli 1208 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (I kitab), maddə 1470) 2.3-cü bəndində “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 iyun tarixli 1380 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 595, № 11, maddə 1216) ilə təsdiq edilmiş “Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində göstərilən xidmətlərin və həmin xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) siyahısı”nın 6-cı hissəsində “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” sözləri ilə əvəz edilsin.

**5.** “Azərbaycan Respublikasının ərazisinə müşayiətsiz gələn və ya gəldikdən sonra müşayiətsiz qalan 18 yaşına çatmamış əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin vahid məlumat bazasının yaradılması və Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 1760 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 749) 2.2-ci bəndində “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin” sözləri “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 iyul 2023-cü il**

---

## Azərbaycan Respublikası Prezidentinin “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”nın təsdiq edilməsi haqqında” 2012-ci il 8 may tarixli 626 nömrəli, “Uşaqların icbari dispanserizasiyası haqqında” Azərbaycan Respublikasının 2013-cü il 5 mart tarixli 591-IVQ nömrəli Qanununun tətbiqi barədə” 2013-cü il 10 aprel tarixli 861 nömrəli, “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” 2016-cı il 15 fevral tarixli 795 nömrəli, “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli, “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” 2017-ci il 23 fevral tarixli 1256 nömrəli və “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 419; 2019, № 5, maddə 847, № 12, maddə 1936; 2020, № 7, maddə 895, № 8, maddə 1036; 2021, № 6 (I kitab), maddə 566, № 8, maddə 922; 2022, № 6, maddə 599; 2023, № 3, maddə 351) ilə təsdiq edilmiş “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”nın 1.3-cü və 2.7-1-ci bəndlərində “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” sözləri ilə əvəz edilsin.

**2.** “Uşaqların icbari dispanserizasiyası haqqında” Azərbaycan Respublikasının 2013-cü il 5 mart tarixli 591-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 aprel tarixli 861 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 375; 2021, № 6 (I kitab), maddə 573) 4.4-cü və 4.5-ci bəndlərində “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” sözləri ilə əvəz edilsin.

**3.** “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101, № 12, maddələr 1407, 1423; 2022, № 1, maddə 28, № 2, maddə 111, № 4, maddələr 313, 323, № 5, maddə 473, № 8, maddələr 837, 861, 897, № 12, maddə 1462; 2023, № 1, maddələr 52, 66, 97, № 2, maddələr 220, 226, 231, № 3, maddələr 350, 360, 375, № 4, maddə 505; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2190 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4-cü hissə üzrə:

3.1.1. 4.6-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“4.6-1. həmin Məcəllənin 162.3, 562.1, 562.2, 562-1.1 və 562-1.2-ci (birinci halda) maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;”;

3.1.2. 4.46-1-ci bənd ləğv edilsin;

3.2. 5-ci hissə üzrə:

3.2.1. 5.6-3-cü bənddə “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri “tabeliyindəki tibb müəssisələrinə münasibətdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” sözləri ilə əvəz edilsin;

3.2.2. 5.6-4-cü bənddə “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” sözləri ilə əvəz edilsin;

3.2.3. 5.57-ci bənddən “, icbari tibbi sığortaya münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri çıxarılsın.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2056; 2017, № 8, maddə 1521, № 10, maddə 1777; 2018, № 5, maddə 920, № 6, maddə 1196, № 7 (I kitab), maddələr 1496, 1506, № 11, maddə 2287; 2019, № 2, maddələr 218, 236, № 4, maddə 625, № 5, maddələr 848, 855; 2020, № 2, maddə 100, № 9, maddə 1148; 2021, № 1, maddə 43, № 12, maddə 1416; 2022, № 5, maddə 466; 2023, № 3, maddə 346) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi”nin “10. Tədbirlər planı” hissəsinin 3.2.1-ci yarımbəndinin “Əsas icraçı” sütununda “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri “Səhiyyə Nazirliyi” sözləri ilə, “Digər icraçılar” sütununda “Səhiyyə Nazirliyi” sözləri “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404, № 7, maddələr 864, 885, № 8, maddə 1041, № 9, maddə 1153; 2021, № 6 (I kitab), maddə 566, № 7, maddələr 724, 728, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 313, 323, № 8, maddə 896, № 10, maddə 1146, № 11, maddələr 1267, 1269, № 12, maddələr 1414, 1462, 1464; 2023, № 1, maddə 97, № 2, maddə 226, № 3, maddə 375, № 4, maddələr 472, 505; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli 2149 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 18-ci hissənin birinci abzasında “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin” sözləri “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin” sözləri ilə əvəz edilsin;

5.2. 18.0-cı bənddə “, 469.1-ci (icbari tibbi sığortaya münasibətdə) maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – İdarə Heyətinin sədri, sədrin müavinləri, İdarə Heyətinin üzvləri” sözləri “nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – icraçı direktor, onun müavinləri” sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 305, 306, 323, 329, № 7, maddə 728, № 10, maddə 1146, № 11, maddələr 1251, 1267, 1269; 2023, № 1, maddələr 66, 97, № 3, maddələr 346, 375, № 4, maddələr 472, 483, 505; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2190 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3-cü hissədə “163-cü, 562-1.1-ci maddələrində, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələri istisna olmaqla, digər tibb müəssisələrinə münasibətdə 162.3-cü və 562.1-ci” sözləri “162.3-cü, 163-cü, 562.1-ci və 562-1.1-ci” sözləri ilə əvəz edilsin;

6.2. 3-1-ci hissə ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 iyul 2023-cü il**

Azərbaycan Respublikası Prezidentinin "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 18 iyul tarixli 263 nömrəli, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 9 avqust tarixli 274 nömrəli, "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" 2006-cı il 25 may tarixli 413 nömrəli, "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2007-ci il 3 iyul tarixli 606 nömrəli, "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 27 avqust tarixli 147 nömrəli, "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2010-cu il 4 iyun tarixli 276 nömrəli, "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə" 2011-ci il 15 fevral tarixli 382 nömrəli, "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə" 2011-ci il 20 aprel tarixli 414 nömrəli və "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının 2012-ci il 7 mart tarixli 303-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2012-ci il 9 aprel tarixli 606 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 18 iyul tarixli 263 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 599; 2021, № 6 (I kitab), maddə 571) 2.3-cü bəndindən "və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri çıxarılsın.

**2.** "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 274 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 706; 2007, № 3, maddə 238; 2021, № 6 (I kitab), maddə 571) 2.3-cü və 2.5-ci bəndlərində "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

**3** Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 411, № 8, maddə 680; 2007, № 6, maddə 602, № 8, maddə 770, № 10, maddə 947; 2008, № 7, maddə 612, № 11, maddələr 967, 970; 2009, № 10, maddə 779, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 7, maddə 688, № 9, maddə 855; 2013, № 2, maddə 114, № 6, maddə 651, № 9, maddələr 1060, 1061; 2016, № 3, maddə 436; 2017, № 10, maddə 1781; 2018, № 2, maddə 217, № 5, maddə 932, № 10, maddə 1990; 2019, № 12, maddə 1953; 2020, № 3, maddə 228, № 6, maddə 690, № 8, maddə 1036; 2021, № 4, maddə 327, № 6 (I kitab), maddə 570, № 8, maddə 920; 2022, № 5, maddə 445, № 6, maddə 597, № 8, maddə 839, № 10, maddə 1126; 2023, № 2, maddə 249) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.13-3-cü bəndindən "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələri istisna olmaqla, digər" sözləri çıxarılsın.

**4** "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 3 iyul tarixli 606 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 713; 2019, № 7, maddə 1219; 2021, № 6 (I kitab), maddə 571; 2023, № 3, maddə 342) 2.6-cı bəndində "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

**5** "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 147 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 623; 2015, № 8, maddə 909; 2016, № 7, maddə 1254, № 10, maddə 1645; 2017, № 12 (I kitab), maddə 2296; 2018, № 6, maddə 1224, № 7 (I kitab), maddə 1464; 2021, № 6 (I kitab), maddə 571, № 12, maddə 1426; 2022, № 8, maddə 861; 2023, № 3, maddə 342) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.4-cü bənddə "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "tabeliyindəki tibb müəssisələrinə münasibətdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin;

5.2. 2.6-cı, 2.11-ci və 2.13-cü bəndlərdə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

**6** Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 491; 2011, № 11, maddə 995; 2013, № 9, maddə 1048; 2014, № 9, maddə 1060, № 10, maddə 1177; 2015, № 2, maddə 117; 2016, № 5, maddə 867, № 11, maddə 1798; 2017, № 5, maddələr 777, 818; 2018, № 12 (I kitab), maddə 2586; 2019, № 6, maddə 1029; 2020, № 8, maddə 1024; 2021, № 2, maddə 130, № 6 (I kitab), maddə 567; 2022, № 7, maddə 749, № 8, maddə 844; 2023, № 3, maddə 344) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 11.6-cı bəndinin birinci abzasında "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "tabeliyindəki tibb müəssisələrinə münasibətdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

**7** "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 382 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 86; 2016, № 2 (II kitab), maddə 245; 2021, № 1, maddə 38, № 6 (I kitab), maddə 571; 2022, № 12, maddə 1441; 2023, № 3, maddə 344) 1.10-cu bəndində "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

**8** "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 20 aprel tarixli 414 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 4, maddə 283; 2021, № 6 (I kitab), maddə 571; 2023, № 3, maddə 344) 1.4-cü bəndinə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözlərindən sonra ", Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri əlavə edilsin.

**9** "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının 2012-ci il 7 mart tarixli 303-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 9 aprel tarixli 606 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 285; 2021, № 6 (I kitab), maddə 573; 2023, № 3, maddə 351) 3.3-cü bəndində "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 iyul 2023-cü il**

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xüsusi sənədləri haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 1998-ci il 13 mart tarixli 684 nömrəli, "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 6 mart tarixli 297 nömrəli, "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 17 iyun tarixli 353 nömrəli, "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 15 iyul tarixli 367 nömrəli, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 19 iyul tarixli 540 nömrəli, "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2002-ci il 6 may tarixli 697 nömrəli və "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 12 fevral tarixli 32 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xüsusi sənədləri haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli 684 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 168; 2002, № 8, maddə 478; 2006, № 12, maddə 1034; 2008, № 8, maddə 713; 2009, № 7, maddə 532, № 8, maddə 913; 2015, № 3, maddə 262; 2021, № 6 (I kitab), maddə 569; 2023, № 1, maddə 84) 2.4-1-ci bəndində "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

**2** "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 164; 2002, № 7, maddə 412, № 8, maddə 478, № 12, maddə 716; 2003, № 6, maddə 290; 2004, № 7, maddə 526; 2006, № 12, maddə 1034; 2007, № 3, maddə 226, № 11, maddə 1105; 2010, № 5, maddə 393, № 7, maddə 613, № 8, maddə 722; 2019, № 5, maddə 818, № 12, maddə 1930; 2021, № 6 (I kitab), maddə 565; 2022, № 1, maddələr 30, 85, № 3, maddə 348; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 may tarixli 2160 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.12-2-ci bəndə "194.1-ci" sözlərindən əvvəl "166.3-cü (birinci və ikinci hallarda), 166.4-cü (birinci və üçüncü hallarda)," sözləri əlavə edilsin;

2.2. 2.13-cü və 2.15-ci bəndlərdə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin;

2.3. 2.14-cü bənd ləğv edilsin.

**3** "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 iyun tarixli 353 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 6, maddə 432; 2002, № 8, maddə 478; 2003, № 10, maddə 585; 2004, № 1, maddə 19; 2005, № 4, maddə 299; 2008, № 8, maddə 719; 2019, № 2, maddə 230; 2021, № 6 (I kitab), maddə 568) 2.5-ci bəndində "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

**4** "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 367 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 507; 2008, № 9, maddə 798; 2021, № 6 (I kitab), maddə 568) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.4-cü bənddə "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "tabeliyindəki tibb müəssisələrinə münasibətdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin;

4.2. 2.5-ci və 2.6-cı bəndlərdə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

**5** "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 477; 2012, № 12, maddə 1270; 2017, № 7, maddə 1330; 2018, № 10, maddə 2019; 2020, № 7, maddə 876, № 11, maddə 1362; 2021, № 6 (I kitab), maddə 568, № 8, maddə 918; 2022, № 5, maddə 446, № 6, maddə 595; 2023, № 3, maddə 348) 2.7-ci bəndində "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

**6** "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 697 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 264; 2004, № 1, maddə 19; 2006, № 9, maddə 743; 2007, № 12, maddə 1240; 2019, № 4, maddə 629; 2020, № 4, maddə 397; 2021, № 6 (I kitab), maddə 568; 2022, № 5, maddə 476; 2023, № 3, maddə 345) 2.6-cı, 2.10-cu (hər iki halda) və 2.11-ci bəndlərində "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

**7** "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli 32 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 70; 2021, № 6 (I kitab), maddə 571; 2023, № 3, maddə 345) 2.3-cü bəndində "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 iyul 2023-cü il**

***Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir***

Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyası haqqında

## ƏSASNAMƏ

**1. Ümumi müddəalar**

1.1. Bu Əsasnamə "Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 sentyabr tarixli 3488 nömrəli Sərəncamının 3.1-ci bəndinə uyğun olaraq hazırlanmışdır və "Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 2-ci hissəsinə, Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 78.2-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş siyahılarda nəzərdə tutulan təhlükə potensiallı obyektlərin, o cümlədən tikinti obyektlərinin (bundan sonra – obyektlər) təhlükəsiz istismarının təmin edilməsi, əhalinin və ətraf mühitin həmin obyektlərdə baş verə biləcək qəzalardan qorunması (bundan sonra – müvafiq sahə) sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyasının (bundan sonra – Komissiya) fəaliyyət istiqamətlərini, hüquq və vəzifələrini və fəaliyyətinin təşkili ilə bağlı digər məsələləri tənzimləyir.

1.2. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Komissiya hər ötən ildəki fəaliyyəti və görülmüş işlər barədə növbəti ilin birinci rübündə Azərbaycan Respublikasının Prezidentinə hesabat təqdim edir.

1.4. Komissiyanın üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş blankı və möhürü vardır.

**2. Komissiyanın fəaliyyət istiqamətləri**

2.1. Komissiya aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.1.1. müvafiq sahə ilə bağlı fəaliyyətin təşkili, mütəmadi təhlillər aparılması və qabaqlayıcı tədbirlər görülməsi üçün təkliflər hazırlanması;

2.1.2. müvafiq sahədə fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi, birgə tədbirlərin planlaşdırılması və həyata keçirilməsi;

2.1.3. müvafiq sahədə fəaliyyət göstərən dövlət orqanları (qurumları) tərəfindən obyektlərdə keçirilən monitorinqlərin nəticələrinin təhlili və qiymətləndirilməsi əsasında təkliflər hazırlanması;

2.1.4. beynəlxalq təcrübə nəzərə alınmaqla, müvafiq sahədə normativ hüquqi bazanın təkmilləşdirilməsi və tətbiqi sahəsində əlaqələndirmə işinin təşkili.

**3. Komissiyanın vəzifələri**

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Komissiyanın vəzifələri aşağıdakılardır:

3.1.1. Komissiyanın üzvü olan dövlət orqanları (qurumları) tərəfindən obyektlərdə baş verə biləcək qəza risklərinin müəyyən olunması, qiymətləndirilməsi və gələcək risklərin proqnozlaşdırılması sahəsində aparılan mütəmadi təhlillər əsasında təkliflər hazırlamaq və görülən işlərin əlaqələndirilməsini təmin etmək;

3.1.2. müvafiq sahədə qabaqlayıcı tədbirlər görülməsi məqsədilə müvafiq dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsini, birgə tədbirlərin planlaşdırılmasını təmin etmək, onlar arasında operativ və səmərəli məlumat mübadiləsini təşkil etmək;

3.1.3. müvafiq sahədə texniki reqlamentlərin müəyyən olunması işlərini əlaqələndirmək;

3.1.4. müvafiq sahə üzrə mütəxəssislərə olan ehtiyacı araşdırmaq və mövcud vəziyyəti qiymətləndirmək, elmi, texniki və kadr potensialının genişləndirilməsi məqsədilə təkliflər hazırlamaq və bununla bağlı müvafiq işləri əlaqələndirmək;

3.1.5. müvafiq dövlət orqanları (qurumları) tərəfindən obyektlərdə keçirilən monitorinqlərin nəticələrinin təhlili və qiymətləndirilməsi əsasında təkliflər hazırlamaq;

3.1.6. Komissiya üzvləri olan dövlət orqanlarının (qurumlarının) fəaliyyət istiqamətlərinə aid sahələrdə həmin dövlət orqanlarının (qurumlarının) mütəxəssislərindən ibarət daimi fəaliyyət göstərən aşağıdakı işçi qrupların yaradılmasını və fəaliyyətini təmin etmək:

1. təhlükə potensiallı obyektlərdə keçirilən monitorinqlərin nəticələrinin təhlili və qiymətləndirilməsi üzrə;

2. müvafiq texniki reqlamentlərin müəyyən olunması istiqamətində fəaliyyətin əlaqələndirilməsi üzrə;

3. beynəlxalq təcrübə nəzərə alınmaqla, təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarı sahəsində mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsi üzrə;

3.1.7. müvafiq sahə ilə bağlı daxil olmuş layihələri, müraciətləri, texniki şərtləri və təklifləri ümumiləşdirərək təhlil etmək;

3.1.8. obyektlərin texniki təhlükəsizlik bəyannaməsinin hazırlanması ilə bağlı metodiki tövsiyələr hazırlamaq;

3.1.9. müvafiq sahədə beynəlxalq təcrübənin öyrənilməsi və təcrübə mübadiləsinin həyata keçirilməsi işini əlaqələndirmək.

**4. Komissiyanın hüquqları**

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Komissiyanın aşağıdakı hüquqları vardır:

4.1.1. daxil olmuş müraciətlərin hərtərəfli və obyektiv araşdırılması üçün aidiyyəti məlumatların, materialların və sənədlərin alınması ilə bağlı dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə sorğular göndərmək, görülən işlər barədə arayışlar və hesabatlar almaq;

4.1.2. təhlil və tədqiqat materialları əsasında müvafiq sahə üzrə təkmilləşdirmə işləri aparmaq məqsədilə təkliflər hazırlamaq;

4.1.3. beynəlxalq təcrübə nəzərə alınmaqla, müvafiq sahədə normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

4.1.4. müvafiq sahədə beynəlxalq və regional əməkdaşlığın genişləndirilməsi məqsədilə təkliflər hazırlamaq;

4.1.5. müvafiq sahədə aşkar olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılmasının təmin edilməsi məqsədilə aidiyyəti dövlət orqanlarına (qurumlarına) göstəriş vermək;

4.1.6. fəaliyyət istiqamətlərinə aid olan məsələlərin həlli üçün elmi tədqiqat, təcrübi-mühəndis, texniki təhlükəsizlik ekspertizası, məsləhət xidmətləri və təbliğat-təşviqat işləri ilə bağlı müvafiq sahədə ixtisaslaşmış hüquqi şəxslərin, o cümlədən elmi tədqiqat və təhsil müəssisələrinin, habelə müstəqil beynəlxalq ekspertlərin və mütəxəssislərin bu işlərə cəlb edilməsi ilə əlaqədar tədbirlər görmək.

**5. Komissiyanın fəaliyyətinin təşkili**

5.1. Komissiyanın sədrini və digər üzvlərini Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

5.2. Komissiya sədr daxil olmaqla 15 (on beş) üzvdən ibarətdir.

5.3. Komissiyanın sədri:

5.3.1. Komissiyanın fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.3.2. Komissiyanın üzvləri və işçi qruplar arasında iş bölgüsü aparır, həmçinin onların fəaliyyətini əlaqələndirir;

5.3.3. Komissiyanın üzvləri ilə birlikdə Komissiyanın iclaslarının gündəliyini müəyyənləşdirir və Komissiyanın iclaslarına rəhbərlik edir;

5.3.4. Komissiyaya daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxır və qanunla müəyyən edilmiş qaydada tədbirlər görür;

5.3.5. Komissiyanın fəaliyyəti ilə bağlı işçi qrupların tabeliyində ayrı-ayrı sahələr üzrə alt işçi qruplar yaradılmasını təmin edir.

5.4. Komissiyanın sədri bu Əsasnamə ilə Komissiyaya həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə məsuliyyət daşıyır.

5.5. Komissiyanın sədri olmadıqda, onun səlahiyyətlərini Komissiyanın qərarı əsasında Komissiya üzvlərindən biri həyata keçirir.

5.6. Komissiyanın və işçi qrupların üzvləri bu Əsasnamədə nəzərdə tutulmuş və onlara həvalə edilmiş vəzifələrin vaxtında yerinə yetirilməməsinə görə məsuliyyət daşıyırlar.

5.7. Komissiyanın səlahiyyətlərinə aid edilmiş məsələlərə onun iclaslarında baxılır.

5.8. Komissiyanın iclasları mütəmadi olaraq, lakin 3 (üç) ayda bir dəfədən az olmayaraq keçirilir. İclaslar Komissiya sədrinin və ya Komissiya üzvlərinin üçdə birinin təşəbbüsü əsasında çağırıla bilər.

5.9. Komissiyanın iclasları onun üzvlərinin üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir.

5.10. Komissiyanın iclaslarına aidiyyəti dövlət orqanlarının (qurumlarının) və özəl sektorun nümayəndələri, o cümlədən müstəqil ekspertlər və mütəxəssislər dəvət edilə bilərlər.

5.11. Komissiyanın qərarları hər bir üzvün bir səsi olmaqla açıq səsvermə yolu ilə, iclasda iştirak edən Komissiya üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Qərar qəbul edilərkən səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına yol verilmir. Səsvermə zamanı xüsusi rəyi olan Komissiya üzvü öz rəyini qəbul edilmiş qərara əlavə edə bilər.

5.12. Komissiyanın iclasında onun bütün üzvləri təmsil olunmuşdursa və həmin üzvlərin hamısı yekdilliklə razılıq verirsə, Komissiya gündəliyə daxil edilməmiş məsələləri də müzakirəyə çıxara və onlara dair qərarlar qəbul edə bilər.

5.13. Komissiyanın üzvləri fəaliyyətlərində müstəqildirlər.

5.14. Komissiya özünün iş planını təsdiq edir.

5.15. Komissiya tərəfindən yaradılmış işçi qrupların hazırladığı sənədlər Komissiyanın iclaslarında müzakirəyə çıxarılır və müvafiq qərarlar qəbul edilir.

5.16. Komissiyanın nəzdində daimi fəaliyyət göstərən Katiblik yaradılır. Katibliyin funksiyalarını Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı həyata keçirir.

5.17. Katiblik aşağıdakıları təmin edir:

5.17.1. Komissiyanın cari fəaliyyətinin təşkili və Komissiyanın qəbul etdiyi qərarların icrası ilə əlaqədar zəruri tədbirlər görülməsini;

5.17.2. Komissiyanın iclaslarında baxılacaq məsələlərə dair müvafiq sənədlərin hazırlanmasını, həmin iclas protokollarının və Komissiyanın iş planlarının tərtib edilməsini və aidiyyəti dövlət orqanlarına (qurumlarına) çatdırılmasını, kargüzarlıq işlərinin icra edilməsini;

5.17.3. Komissiya tərəfindən işçi qrupların tabeliyində ayrı-ayrı sahələr üzrə yaradılmış alt işçi qruplara müvafiq mütəxəssislərin cəlb edilməsinin təşkilini və həmin qrupların fəaliyyətinin əlaqələndirilməsini.

**Rusiyanın Xarici İşlər Nazirliyinin Azərbaycanla Ermənistan arasında sülh prosesini şərh edən 15 iyul 2023-cü il tarixli bəyanatı ətrafında söz-söhbətlər bitmək bilmir. Əslində buna reaksiyalar da demək mümkündür. Söz-söhbəti başlayan isə Rusiya tərəfidir. Çünki Azərbaycan tərəfdən olan narazılığa verilən reaksiya məhz söz-söhbət ruhundadır. Hətta bir el misalında deyildiyi kimidir - aşığın sözü qurtaranda nanay-nanay eləyir.**

# Karasin niyə qızarmır?

## Və ya Həsənquliyev düz deməyibmi?



Bəli, nanay-nanay edənlərdən biri də Rusiya Federasiya Şurasının beynəlxalq məsələlər üzrə komitəsinin rəhbəri Qriqori Karasindir. Karasin özünün teleqram kanalında Azərbaycan Milli Məclisinin deputatı Qüdrət Həsənquliyevin Rusiya əleyhinə söylədiklərinə münasibət bildirib. Onun öz aləmində kifayət qədər diplomatik davrandığını da söyləmək mümkündür. Hərçənd, Qüdrət bəyin fikirlərini bu mənada fərqləndirmək olmaz. Azərbaycanlı deputat, həqiqətən, sərt fikirlər səsləndirib və bildirib ki, Rusiya Cənubi Qafqazda sülhün olmasını istəmir, Azərbaycanla Ermənistan arasında qanlı münaqişənin davamında maraqlıdır. O, eyni zamanda, Qarabağdakı Rusiya Sülhməramlı Kontingentinin ərazidən çıxarılmasını da tələb edib.

Əslində, Q.Həsənquliyevin fikirləri yenilik deyil. Ümumən, ölkəmizin ictimai rəyində, elə sıravi vətəndaşlar arasında da anti-Rusiya ovqatını şərtləndirən məqamın kökündə deputatın söylədikləri dayanır. Digər tərəfdən, Moskva mənfi imici, belə demək mümkünsə, uzun illərə söykənmiş "alın təri" ilə qazanıb. Qüdrət bəy isə, sadəcə, gündəmə uyğun reaksiya verib. Gündəm barədə isə yazımızın ilk cümləsində söz açdıq. Söhbət Rusiyanın Xarici İşlər Nazirliyinin iyulun 15-də Brüsseldə Azərbaycan və Ermənistan liderləri arasında sülh danışıqlarının getdiyi bir vaxtda anti-Azərbaycan motivli bəyanat səsləndirməsindən gedir.

10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın ehkamlaşdırıldığı həmin sənəddə ölkəmiz əleyhinə ittihamlar səsləndirilməkdədir. Bir sözlə, Kremlin Rusiya XİN-in bəyanatı ilə dediyi budur: siz Brüsseldə, orada-burada nə danışırsınız, nə razılığa gəlirsinizsə gəlin, mənə heç bir dəxli yoxdur, öz bildiyimi edəcəm. Tipik hərbə-zorba diplomatiyası. Təəssüf ki, Rusiya illərdir, hətta əsrlərdir bu yanaşmasından əl çəkə bilmir. Ölkənin bəzi siyasi dairələrinin düşüncəsində, hələ də işğallar nəticəsində qurulmuş çar hökuməti və ya SSRİ hökm sürür. Onların qənaətinə görə, Moskva keçmiş müttəfiq respublikalara nə istəyirsə, onu diktə etməlidir. Əlqərəz, bu barədə geniş söz açmayıb keçək mətləbə.

Beləliklə, Karasin deyir ki, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Qüdrət Həsənquliyevin qeyri-dost fikirlərinə reaksiya verməyə bilməzmiş.

Əlbəttə, komitə sədrinin Rusiya XİN-nin bəyanatından xəbəri var. Ancaq görünür, sənədi yaxşı oxumayıb. Ona görə də Q.Həsənquliyevin fikirləri ona qəribə gəlir. Ancaq belə də düşünmək olar ki, o, Azərbaycan XİN-in cavab bəyanatından xəbərsizdir. Karasin bildirir: "Ümid edirəm ki, bu cür anti-Rusiya hücumları Bakının rəsmi mövqeyini əks etdirmir".

Axı, rəsmi Bakının mövqeyi də ortadadır. Əslində, cənab Həsənquliyev o mövqeni bir balaca xalq dilində vurğulayıb. Vurğulamalıdır da. Bu öz yerində. Karasin yazır: "Deputatın (Qüdrət Həsənquliyevin – red.) nəzərinə çatdırım ki, Dağlıq Qarabağ münaqişəsinin bütün mərhələlərində əsasən Rusiya Federasiyasının səyləri nəticəsində hərbi əməliyyatları dayandırmaq, tərəfləri danışıqlar masası arxasına əyləşdirmək və kompromislər mümkün olub".

O zaman Karasinin ali ərz edək ki, Dağlıq Qarabağ münaqişəsinin bütün mərəhələlərində Rusiya Ermənistanı qoruyub, Azərbaycan torpaqlarının işğalında ölkəyə dəstək verib, Xocalıda dinc azərbaycanlılara qarşı 366-cı motoatıcı rus diviziyasının köməyi ilə qanlı qətliamın – soyqırımın həyata keçirilməsinə bilavasitə dəstək verib. Həmçinin, Birinci Qarabağ müharibəsi zamanında Azərbaycan hərbi qüvvələri, özünümüdafiə taborları üstünlüyə yiyələnən zaman Pskov desantları onların qarşısını alıb. Yeri gəlmişkən, sonuncu faktı biz demirik. Rusiyanın tanınmış jurnalisti Aleksandr Nevzorov öz xatirələrində dilə gətirib.

1994-cü ildə Bişkekdə Azərbaycan və Ermənistan arasında atəşkəs imzalandıqdan sonra başlanmış danışıqların bütün mərhələlərində Rusiya-ya güvənən və onun tərəfindən idarə olunan Ermənistanın xunta hakimiyyəti prosesdən yayınmaq, müxtəlif reallıqlar uyduraraq manipulyasiya yolu tutub. Rusiya tərkibində təmsil olunduğu ATƏT-in Minsk qrupunda da Azərbaycanın torpaqlarının işğalının, faktiki olaraq leqallaşmasına, status-kvonun saxlanılmasına göz yumub.

Karasinin xatırlatdığı 2020-ci ilin payızına gəlincə, bəli, 44 günlük müharibənin dayandırılması Rusiyanın əməyi idi. Ancaq cənab komitə sədri düşünsün ki, savaşa son qoyan Moskva əslində kimi müdafiə etmişdi? Əlbəttə, Ermənistanı. Yəni, onu loru dildə desək, Azərbaycanın əlindən almış, tamamilə məhvdən xilas etmişdi. Bakı böyüklük göstərərək Rusiya Prezidenti Vladimir Putinin çağırışına müsbət yanaşmışdı. Bu yanaşmanın nəticəsi kimi, üçtərəfli Bəyanat imzalanmışdı. Onu da deyək: həmin bəyanata əsasən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə aid olmayan Kəlbəcər, Laçın və Ağdam ölkəmizə qaytarılmışdı. Daha doğrusu, Ermənistan bu istiqamətdə manevr imkanlarından onsuz da məhrum olmuşdu. Başqa sözlə desək, İrəvan o zaman həmin rayonları qaytarmaya bilməzdi. Rusiya olmur, lap kim olursa-olsun, İrəvana bunu etməmək üçün dəstək verə bilməzdi.

Gələk, bilavasitə 44 günlük müharibədən sonrakı müddətə. Müharibədən ötən iki ildən artıq müddətdə Karasinin təbirincə desək, "Moskvanın iştirakı ilə Ermənistan-Azərbaycan normallaşmasının əsasını təşkil edən ən yüksək səviyyədə üçtərəfli sazişlərə" əməl etməyən məhz İrəvan olub. Komitə sədri görünür, Qarabağda Ermənistana məxsus qeyri-qanuni silahlı hərbi birləşmələrin olduğunu unudur. Üstəlik onu da unudur ki, həmin silahlılara patronajlığı da edən bölgədəki Rusiya sülhməramlılarıdır. Bəlkə də unutmur, sadəcə, xəbəri yoxdur. Nəyinə lazımdır, bunlar Rusiyanın Cənubi Qafqazdakı böyük siyasi maraqlarının yanında xırda məsələlərdir axı...

Karasinin Q.Həsənquliyevin söylədiklərinə reaksiyasında az əvvəl haqqında söz açdığımız Rusiya sülhməramlıları ilə bağlı məsələyə də diqqət yetirək. Komitə sədri deyir ki, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin qərarı ilə Qarabağa yerləşdirilmiş rus sülhməramlıları bölgəyə sülh gətirmiş, prioritet humanitar və sosial-iqtisadi vəzifələrin həllinə kömək etmişlər. "Bircə faktı deyim: 2020-ci ilin noyabrından kontingent 2,5 min hektardan çox ərazini, o cümlədən 700 kilometrə yaxın yolları minalardan təmizləyib. Bizim sülhməramlılarımız Qarabağ ermənilərinə və azərbaycanlılara sülhün gündəliyini müzakirə etmək şansı veriblər. Biz Rusiya kontingentinin çıxarılması ilə bağlı tələbləri tamamilə məsuliyyətsiz hesab edirik".

Birincisi, Rusiya sülhməramlıları Ermənistan silahlılarının və separatçı rejimin dəstələrinin Qarabağa mina keçirmələrinə də, yumşaq desək, göz yumub. İkincisi, Moskva çalışıb ki, həmin separatçı rejimlə Bakı arasında danışıqlar olsun. Bu isə Azərbaycanın mövqeyini əks etdirməyən tamamilə ədalətsiz yanaşmadır. Üçüncüsü, bir halda ki, Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağ da daxil olmaqla, Azərbaycanın 86,6 min kvadratkilometrlik ərazidə suveren hüquqlarını tanıdığını bildirir, o zaman Rusiya sülhməramlılarına nə ehtiyac var? Q.Həsənquliyev nə deməli idi? Düz deyib də... Dördüncüsü, Rusiya, əslində, həmin sülhməramlılara bölgədə mövcudluq faktoru kimi yanaşır. Yəni, hərbi kontingentə daşımalı olduğu missiyaya uyğun formada baxmır. Doğrudur, kontingentin sayı azdır. Ancaq belə görünür ki, ermənipərəst Rusiya ictimai rəyi hər zaman bu sayın artırılması üçün bəhanə tapmaq potensialını özündə saxlayır. Məsələn, bu günlərdə ölkədəki Aleksey Muxin adlı bir politoloq qırığı bildirib ki, bəs, Ermənistan hakimiyyəti Moskvaya zidd getmək üçün ruspərəst Qarabağı Azərbaycana peşkəş etmək istəyir. Bundan böyük həyasızlıq ola bilməzdi. Nəzərə alaq ki, bu, həyasızlığın hələ, necə deyərlər, jurnal variantıdır. Rusiya XİN-in sonuncu bəyanatından belə hiss edilir ki, ortaya muxin və muxinəbənzər çıxa və ya çıxarıla bilər...

Cənab Karasin onu da bildirir ki, Q.Həsənquliyevin bəyanatı Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında müttəfiqlik və əməkdaşlıq haqqında 22 fevral 2022-ci il tarixli Bəyannamənin ruhu və məzmunu ilə tamamilə ziddiyyət təşkil edir və Bakı ilə Moskva arasındakı münasibətlərin yüksək səviyyəsinə, o cümlədən parlament xəttinə uyğun gəlmir. Eyni məqamı Azərbaycan XİN Rusiya XİN-in bəyanatına cavabında da ifadə etmişdi. Yəni, əslində həmin Bəyannaməni saymazdan gələn Kremlin xarici siyasət idarəsidir, Q.Həsənquliyev yox.

***Ə.CAHANGİROĞLU, "Xalq qəzeti"***

# "Oturaq" təxribat

## yaxud erməni separatizminin "dəmir yumruq" həsrəti...



**Qarabağdakı erməni separatçılarının lideri Arayik Arutyunyan 17 iyun gecə saatlarından etibarən oturaq aksiyaya başladığını elan edib. Yeni aksiya ilə əlaqədar ermənilərə müraciət edən Arayik onları oturaq aksiyada fəal iştirak etməyə səsləyib, Azərbaycana, habelə beynəlxalq təşkilatlara xitabən çoxsaylı tələblər irəli sürüb. O bildirib ki, "Xankəndinin blokadası"na son qoyulmalı, Laçın yolu açılmalı, "arsax xalqı"nın bütün tələbləri "təcili" yerinə yetirilməlidir. Baş separatçı qeyd edib ki, əgər onların tələbləri nəzərə alınmasa, o zaman "daha sərt tədbirlərə" əl atacaqlar.**

### Separatçılardan açıq terror hədəsi

Araik "daha sərt tədbirlər" deyəndə konkret hansı addımları atacaqlarını bildirməsə də, separatçı liderin yeni terror aktlarını və təxribatları nəzərdə tutduğu şübhəsizdir. Aydındır ki, taleləri başqalarının yardımı və mərhəmətindən asılı olan erməni separatçılarının Azərbaycana nə hərbi, nə iqtisadi, nə də siyasi baxımdan təzyiq göstərmək imkanı var. Söhbət ancaq terror və təxribatdan gedə bilər ki, bu da Azərbaycana təzyiq üçün vasitə hesab edilə bilməz. Birincisi, ona görə ki, Azərbaycanın yaxın tarixi, 44 günlük Vətən müharibəsi onu göstərdi ki, ölkəmizlə terror və təhdid dili ilə danışmaq mümkün deyil. 2020-ci ilin 10 noyabr Bəyanatı, Ermənistanın imzaladığı kapitulyasiya sənədi ölkəmizlə terror dili ilə danışmaq istəyənlərin aqibətinə ən yaxşı sübutdur. Bu isə o deməkdir ki, Arayikin terror hədəsi Azərbaycan üçün praktiki baxımdan əhəmiyyət kəsb etmir. Baxmayaraq ki, bu bəyanat Qarabağdakı erməni separatçılarının niyyət və məraminin beynəlxalq müstəvidə ifşa olunması baxımından mühüm faktdır və ölkəmiz ondan hökmən istifadə etməlidir.

### Ağalarından Arayikə "İrəli!" komandası...

A. Arutyunyanın hədə-qorxu bəyanatı ilə bağlı maraq doğuran məqamlardan biri də bu bəyanatın niyə indi və hansı qüvvələrin dəstəyi ilə ortaya çıxması ilə bağlıdır. İxtiyarı öz əlində olmayan, hər zaman himayədarlarının göstərişi ilə hərəkət edən Arayikin məlum bəyanatı, sahiblərinin baş separatçıya "irəli!" komandası verdiyini göstərir. Məhz bunun nəticəsidir ki, 44 günlük müharibədə sağ qalmaq üçün Ermənistanın dərinliklərində gizlənən Arayik, birdən-birə cəsarətli bəyanatlar verməyə başlayıb. Post-müharibə dövründəki proseslərin təhlili göstərir ki, Qarabağdakı separatçılarının əsas himayədarlarından biri qismində Rusiya sülhməramlıları çıxış edirlər. Xankəndi və ətraf ərazilərə Ermənistandan qanunsuz silah-sursatın daşınması, separatçıların Azərbaycan Ordusunun mövqelərini atəşə tutmasına göz yummaları, Azərbaycan toponimlərini erməniləşdirməri və s. kimi faktlar bunun isbatıdır. Rusiya sülhməramlılarının razılığı və dəstəyi olmadan Arayikin beynəlxalq aləmə meydan oxuması, Azərbaycanı sərt tədbirlərlə hədələməsi mümkün deyil. Onun son bəyanatının ikinci səbəbkarı isə rəsmi İrəvan, hökumətdəki revanşist qüvvələr ola bilər. Mümkündür ki, İrəvan Arayiki bu cür açıqlamalar verməyə sövq etməklə sülh müqaviləsinin imzalanmasını qeyri-müəyyən vaxta qədər təxirə salmağa çalışır. Ola bilsin, Paşinyan rejimi bununla göstərmək istəyir ki, Qarabağ ermənilərinin mövqeyi İrəvanın "sülhpərvər" mövqeyi ilə üst-üstə düşmür və buna görə də Qarabağdakı ermənilərin iradəsinə zidd hansısa sülh müqaviləsinin imzalanması mümkün deyil. Başqa sözlə desək, İrəvan Qarabağ separatçılarının sülh müqaviləsinin mümkün üçüncü tərəfi kimi "diriltməyə", onları bir qüvvə kimi Azərbaycana qəbul etdirməyə çalışır. Hansı ki, sadə ermənilərlə dialoqa hazır olduqlarını bəyan edən Azərbaycan separatçılarla masa arxasına əyləşməsi mümkün deyil və bu, ölkəmizin siyasi dəst-xəttinə, milli maraqlarına ziddir.

### Sonrakı peşmançılıq fayda verməyəcək

Arayik Arutyunyanın "oturaq təxribat"ı, Azərbaycanın ünvanına təhdidlər səsləndirməsi baş separatçının "dəmir yumruq" həsrətində olduğunu göstərir. Arayikin ölkəmizi təhdid etməsi onu göstərir ki, Qarabağdakı separatçılara qarşı anti-terror əməliyyatının keçirilməsi artıq bir zərurət kimi meydana çıxmaqdadır. Əslində, bu açıqlama ölkəmizin Qarabağda yeni anti-terror əməliyyatı keçirməsini şərtləndirən ciddi arqumentlərdən biridir. İndiki şəraitdə belə bir əməliyyatın keçirilməsi ölkəmizin qanunları ilə yanaşı, beynəlxalq qanun və konvensiyalarla da təsbit edilən bir hüquqdur. Ölkəmizə qarşı ünvanlanan real terror təhlükəsinin qarşısını öncədən almaq, dövlətimizin və xalqımızın təhlükəsizliyini təmin etmək zərurəti belə bir əməliyyatı vacib edir. Şübhəsiz, anti-terror əməliyyatına start veriləcəyi təqdirdə 44 günlük Vətən müharibəsində olduğu kimi, Qarabağdakı separatçılar qısa zamanda darmadağın ediləcəyi birmənalıdır. Ancaq Ordumuz bu əməliyyata başlayacağı təqdirdə Arayik belə bir suala cavab axtarmalı olacaq: Azərbaycan əsgərinin "dəmir yumruğ"undan qurtulmaq, qaçıb aradan çıxmaq üçün 44 günlük müharibədə olduğu kimi, bu dəfə də şansı onun üzünə güləcəkmi?

***Seymur ƏLİYEV***

# Baş prokuror Biləsuvarda vətəndaşlarla görüşüb



**İyulun 18-i Baş prokuror Kamran Əliyev Biləsuvar Rayon Prokurorluğunun inzibati binasında Biləsuvar, Cəlilabad, Neftçala və digər rayonlardan olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 91 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, mülki xarakterli mübahisələr, habelə sosial problemlərlə bağlı qaldırdığı məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Qəbuldan sonra Baş prokuror əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib.

Həmçinin, Baş prokuror Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli Fərmanı əsasında yaradılan və Azərbaycan Respublikası prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olub.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***

# Daha 18 ailə Laçına köçürülüb

**Dünən səhər saatlarında Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola çıxan növbəti köç karvanı Laçına çatıb. Yenidən qurulan Laçın şəhəri bu dəfə 18 ailəyə qucaq açıb və daha 73 laçınlının yurd həsrəti bitib.**

Bununla da, Laçın şəhərində indiyədək 111 ailənin, yəni 424 nəfərin daimi məskunlaşması təmin edilib.



# İrəvanın iflasa məhkum “beynəlxalq kampaniyası”

## Haylar qapalı dairədən qurtulmaq üçün xarici aləmdə dilənçiliyə başlayıblar

**Hayastan rəhbərliyinin Avropada və okeanın o tayındakı tərəfdaşlarının yardımı və təhriki ilə başladığı yeni “diplomatik kampaniya”nın konturları görünməkdədir. Məqsəd aydındır: özünə sərfəli variantı sülh danışıqları masasına daşımaq, dialoqun müxtəlif aspektləri üzrə Bakı ilə “kəllə-kəlləyə” gələ bilmək cəsarətini əldə etmək. Bundan ötrü Ermənistan son vaxtlar nüfuzlu beynəlxalq təşkilatların, yaxud belə institutların “patronajları” ilə danışıqlara baş vurur, onların ofislərinin yerləşdiyi ölkə və şəhərlərə səfərlər edirlər. Son otuz ildə Azərbaycana qarşı həyata keçirdikləri işğala, hər cür qanunsuzluqlara, tutduğu ədalətsiz mövqeyinə indi, quyruğu qapı arasında qalanda, “haqq qazandırmağa” çalışan hayların əli hər yerdən üzülüb. İndiyə qədər sal qaya kimi söykəndiyi şimallı “patronu” da indi ona yiyə durmaqdan vaz keçir. Bu da təbiidir. Üzləşdikləri hazırkı situasiyanın ssenari müəllifi məhz İrəvanın özüdür və o, indiki mərhələsində yalnız özündən küsməlidir.**



Hesab edirik ki, bu mənada ötən il tərəflər arasında sülh dialoqunda ciddi dəyişikliklərə səbəb olmuş bir olayı oxuculara xatırlatmaq yerinə düşər. 2022-ci ildə Soçi görüşündən sonra danışıqlar prosesində yaranan fasilə məhz Kremlin “fəaliyyətinin” bəhrəsi idi. Keçən il bu formatda aparılan görüşləri və sülh danışıqlarını uğurlu hesab edən ekspertlər hətta ilin sonlarında sülh müqaviləsinin imzalanacağını proqnozlaşdırırdılar. Rusiyanın Soçi şəhərində “Valday” Beynəlxalq Diskussiya Klubunun XVIII konfransına qədər hadisələr Bakının irəli sürdüyü şərtlər çərçivəsində cərəyan edirdi. Məhz həmin konfransda Vladimir Putin Nikol Paşinyana xitabən “Siz Vaşinqton variantına razılıq verməklə Qarabağı Azərbaycanın tərkib hissəsi kimi qəbul edirsiniz”, – dedi. Əslində, bununla o, yalnız Paşinyana deyil, bütün ermənilərə xəbərdarlıq etmiş oldu. Rusiya liderinin həmin “ismarıcından” sonra sülh danışıqlarında fasilə yarandı. Bununla da ikitərəfli sülh danışıqlarının, sadəcə, formatı deyil, həmçinin məzmunu dəyişikliyə məruz qaldı.

### Yalan həqiqət qiyafəsində

İrəvan bu dəstəyi əldə etməkdən ötrü son vaxtlar həm daxildə, həm də xaricdə diplomatik fəaliyyətini xeyli gücləndirib. Bu fəaliyyəti bir növ “gücləndirilmiş rejimli diplomatik kampaniya” da adlandırmaq mümkündür. İçəridə və çöldə təşkil etdikləri siyasi təmaslar da birbaşa bu kampaniyanın qaydalarına görə təşkil olunur. Hayastan Milli Assambleyasının vitse-spikeri Ruben Rubinyanın İrəvanda səfərdə olan Almaniya XİN-in Şərqi Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri üzrə idarəsinin siyasi direktoru Matias Lütenberqlə görüşü də elə bu qəbildən sayılmalıdır. Hayastan parlamentinin sədr müavini alman diplomatla görüşdə Azərbaycanın “Laçın dəhlizini qanunsuz bloklaması” nəticəsində “Dağlıq Qarabağda” əmələ gələn təhlükəsizlik və humanitar xarakterli “çətinliklərə” toxunub. Bu “problemlərin” BMT Beynəlxalq Məhkəməsinin məcburi icra qüvvəsinə malik qərarında da yer aldığını alman diplomatın nəzərinə çatdırıb.

Daha sonra Almaniya XİN rəsmisini Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan qəbul edib. Həmin görüşdə də Qriqoryan yüksək qonağın diqqətinə “Dağlıq Qarabağ ətrafında yaranmış böhranı” çatdıraraq bu bölgədə “etnik təmizləmənin qarşısını almaq üçün beynəlxalq ictimaiyyətinin səylərini birləşdirməyin” vacibliyini xüsusi qeyd edib. Hayastan rəsmisi, həmçinin Avropa İttifaqının mülki missiyasının Ermənistandakı fəaliyyətini, onun regional təhlükəsizliyin saxlanmasında xidmətlərini yüksək qiymətləndirib.

Dünən isə Hayastanın xarici işlər naziri Ararat Mirzoyan Vyanaya işgüzar səfərə gedib. O, burada avsriyalı həmkarı ilə görüşəcək, ardınca mətbuat konfransı keçirəcək. Mirzoyanın əsas görüşləri beynəlxalq təşkilatların Avropadakı nümayəndələri ilə planlaşdırılıb. Elə səfərin əsas məqsədi də beynəlxalq institutların rəhbərləri ilə görüşmək, onlardan sülh danışıqlarında Ermənistanın yanında olmalarını xahiş etməkdir.

### Kampaniyaya hərbçilər də cəlb olunub

Bəlkə İrəvanın məlum kampaniyada hərəkətverici qüvvəsi rolunda Rusiya XİN-in Bakıya ünvanladığı son bəyanatı çıxış edib. Axı həmin ziddiyyətli bəyanatda haylara “siyasi gediş ismarıcını” verən belə bir məqam da var: “Rusiya tərəfi “Dağlıq Qarabağın” (?) normal həyatını bərpa etmək üçün beynəlxalq ictimaiyyətin səylərinə fəal töhfə vermək niyyətini təsdiqləyir”. Baş separatçı Arayik Arutyunyanın Paşinyanın poçtalyonluğunu etdiyi Şarl Mişelə ünvanlanmış məktubunda nə yazdığını təxmin etmək olar: “humanitar böhran”, “etnik təmizləmə”, “120 min ermənin acından ölmək təhlükəsi” və bu qəbildən “əzabkeş xalqın” miskin obrazının təqdimatı. Timsahın göz yaşlarını tökməklə problemlərini həll etməyə uğursuz cəhdlər edən hayları dünya artıq yaxşı tanıyır və onların saxta göz yaşlarına inanmır. Qərbin bəzi aktorları artıq bunu açıq şəkildə büruzə verməyə başlayıblar. İrəvan isə əsl simalarının hələlik tam ifşa olunmadığı okeanın o tayından nələrisə ummağa girişib. İyulun 17-18-də Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi, müdafiə nazirinin birinci müavini Edvard Asryanın ABŞ-a işgüzar səfəri bu mənada maraqlı assosiasiyalar doğurur. Asryan Vaşinqtonda Amerika Milli Qvardiyasının tərəfdaşlıq proqramının 30 illiyinə həsr olunmuş konfransda iştirak edib. Tədbir çərçivəsində E.Asryan ABŞ Milli Qvardiyası bürosunun rəisi general Daniel Hokanson, ABŞ-ın Avropa Komandanlığının strategiya, planlaşdırma və siyasi məsələlər üzrə direktoru, general-mayor Daniel Lasik, eləcə də Kanzas ştatının general-adyutantı, Milli Qvardiyanın komandiri, briqada generalı Maykl Venerdi ilə görüşlər keçirib. Həmin görüşlərdə Ermənistan-ABŞ əməkdaşlığının hazırkı səviyyəsi və inkişafın perspektivləri müzakirə edilib. Əlbəttə, hərbi və məxfi xarakter daşıyan İrəvan-Vaşinqton təmaslarının Amerikadakı güclü erməni lobbisinin yaxından yardımı ilə təşkil olunduğunu güman etmək olar. Hər halda Hindistandan istədiyi silah-sursatı ala bilmədiyi deyilən Hayastan iqtidarının bu məsələni Vaşinqtonla müzakirə edə biləcəyi də istisna olunmur.

### Qatar hələ keçməyib

İndi isə qayıdaq Cənubi Qafqaza, daha doğrusu, burada söz sahibi olmaq hüququnu əlində möhkəm tutmağa çalışan Rusiya amilinə. Kremldən ötrü Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanması, eləcə də sülh danışıqlarının müsbət sonluğa qovuşması kənar vasitəçilərin təşkil etdiyi platformalarda, masalarda mümkün deyildir. Üstəlik, Moskva bir daha sülhün hələ tez olduğunu rəsmən bəyan etdi, “Dağlıq Qarabağ ermənilərinin təhlükəsizliyi, statusu” barədə açıq söylədi. Ətrafında diskussiyası səngiməyən Rusiya XİN-in bu bəyanatının hansı zərurətdən doğduğu bəlli olsa da, onu indiki mərhələdə yetişdirən amillər maraq doğurur. Kremlin bu bəyanatı bəlkə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın NATO-nun Vilnüs Zirvəsində 2025-ci ildə Rusiyanın Qarabağı tərk etməsi ilə bağlı verdiyi açıqlamaya cavabdır? Ola bilər. Biz artıq Qərbin məqbul təşəbbüslərindən sonra Kremlin belə siyasi jestlərinə adət etmişik. Ukrayna müharibəsi ilə əlaqədar Cənubi Qafqaza diqqəti azalan Rusiya əlini hələ bu bölgədən çəkməyib. Onun niyyəti 2030-cu ilədək Qarabağda qalmaqdır. Əslində zəfərimizlə başa çatan 44 günlük müharibədən sonra onun bugünədək apardığı “antisülh missiyası”nın nüvəsində bu amil dayanır. Moskva üçün “qatar hələ keçməyib”, amma hər şeydən göründüyü kimi, əvvəl-axır Qafqaz eşolonu onun əlindən çıxacaq.

### Sərsəm başların çarəsi...

İndi özlərinə dəstəkçi aradıqları Qərbin bir çox dövlətlərinin, eləcə də beynəlxalq təşkilatların son iki-üç ildə hayları necə varsa, eləcə tanımaq imkanları oldu. Yalana, böhtana, təhrifə dövlət səviyyəsində rəvac verən İrəvanın döydüyü qapılardan əliboş dönməsinin əsas səbəbi də məhz budur. Qərbin ikiüzlülüyündən gileylənən, “Bəs biz Qarabağı otuz il necə saxladıq?”– deyə təəccüblənən ABŞ-ın Stenford Universitetinin siyasi elmlər doktoru Artur Xaçikyan Ermənistan rəhbərliyini bu cür ittiham edir: “Əgər Ermənistanın kadastr şəhadətnaməsi olmadığını düşünürdünüzsə, niyə beş il əvvəl hakimiyyətə gəldiniz. Bu adamlar müharibəni, sülh danışıqlarını, korrupsiyaya qarşı mübarizəni iflasa uğratdılar, demokratik ölkə qura bilmədilər. Demokratik ölkədə məmur vətəndaşın üzünə tüpürməz, ölən hərbçilərin valideynlərinə belə qəddar münasibət göstərilməz. Son 105 ildə erməni xalqı belə ağır vəziyyətdə olmayıb. Cəmiyyətimizin davranışı da anlaşılmazdır. Xalqımız sanki narkotikin təsiri altındadır”.

Amerikalı erməni alimin gəldiyi son qənaət Hayastan cəmiyyətinin hazırkı ictimai-siyasi, sosial-psixoloji mənzərəsini tam çılpaqlığı ilə təsvir edir. Onun soydaşlarının təsirinə məruz qaldığı “natkotik”in adı isə iki əsrdir beyinlərini yuyan şovinizm, daşnakçılıq, “miatsumizm”, qonşularına qarşı torpaq iddiaları kimi mərəzlərdir. Bunun müalicəsini isə dünyanın dörd tərəfində axtarmağa dəyməz. Pozulmuş başlarının çarəsəni özləri tapmalıdırlar...

***İmran BƏDİRXANLI, “Xalq qəzeti”***

**Ekspert rəyi**



**Fərhad MƏMMƏDOV, politoloq**

Azərbaycan sülh danışıqlarında Ermənistanın destruktiv mövqeyindən geri çəkiləcəyini gözləyir. Bu, beynəlxalq səviyyədə tanınmış sərhədlər, o cümlədən beynəlxalq hüquq çərçivəzində normal prosesdir. Liderlər səviyyəsində aparılan danışıqların əsas leytmotivi budur və misal üçün, Brüssel formatında faktiki hər mövzunu müzakirə etmək mümkündür. Ermənistan hökuməti “Dağlıq Qarabağ (?) problemini” müxtəlif beynəlxalq platformalarda müzakirə predmetinə çevirməyə cəhdlər göstərir. Azərbaycan isə deyir ki, yaxşı, siz bizim 86,6 min kvadratkilometrlik ərazimizdən danışırsınız, amma öz hərəkətləriniz ilə bəyanatınızı gözdən-nüfuzdan salırsınız. Dediyinizə müvafiq olaraq, əslində, belə hərəkətlərə son verməməlisiniz. Ya da biz sizi buna son qoymağa məcbur edəcəyik. Prinsip etibarı ilə Bakı bunun bir addımlığındadır.

Qərb ictimaiyyəti nəyə görəsə belə düşünür ki, Ermənistan rəhbərliyi əlindən gələni edib. Bu zaman onlar əsas arqument kimi Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü tanımasını göstərirlər. Hesab edirəm ki, Bakı bu nəticəyə danışıqlar vasitəsilə deyil, güc tətbiqi ilə nail olub. Əgər keçən ilin sentyabrında Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatı olmasaydı, Paşinyan Praqada məlum etirafı etməzdi. İndi onlar vaxt qazanmaq, müxtəlif üsullara əl atmaq istəyirlər. Qarşıdakı beş-altı ayda real nəticə əldə olunmalıdır.

# Rusiyalı politoloqlar separatizmi körükləyirlər

## *Onların son proseslərə yanaşması bu qənaətə gəlməyə əsas verir*



**(əvvəli 1-ci səhifədə)**

Rusiyanın müəyyən dairələri Qarabağ ermənilərinin Azərbaycana reinteqrasiyasının qarşısını almaq üçün Ruben Vardanyan adlı cibində rus xalqından oğurladığı milyardlar olan dələduzu Xankəndiyə göndərdi. Düzdür, Bakının israrlı tələblərindən sonra Vardanyan bu ilin fevralında separatçıların “dövlət naziri” vəzifəsindən “istefa” verməyə məcbur oldu, ancaq, o, yenə də bölgədə qalaraq pozucu rolu oynamaqdan əl çəkmir. Burada da ona arxa-dayaq olan Rusiya sülhməramlı kontingentidir. Yeri gəlmişkən, sülhməramlı adı ilə bölgəyə yerləşdirilmiş hərbi qüvvə Rusiyanın burada mövcudluğunun əsas elementidir.

Üçtərəfli bəyanatda onun qalma müddətinin 5 il olduğu göstərilib. O da qeyd olunub ki, əgər müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı tərəflərdən hansısa biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır. Aydın məsələdir ki, Moskva bu müddətin uzadılmasını istəyəcək. Bölgədə ona ehtiyacın olduğunu bəyan edəcək. Rusiyanın Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə reinteqrasiya prosesinə imkan verməməkdə əsas niyyətlərindən biri də sülhməramlıların qalma müddətini uzatmaq üçün əsaslar yaratmaqdır.

Qeyd etdiyimiz kimi, Azərbaycan XİN-in bəyanatı Rusiyada narazılıqla qarşılanıb. Politoloq Mixail Aleksandrov bildirib ki, Azərbaycanın Rusiyanı 2022-ci ilin fevralında Moskvada imzalanmış Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannaməyə əməl etməməkdə suçlaması Rusiya XİN-in yüksək qeyri-peşəkarlığını göstərir. Onun fikrincə, guya, Laçın yolunda “blokada” tətbiq edərkən üçtərəfli bəyanatın müddəalarını ilk pozan Azərbaycan olub. Politoloq fikrini bununla əsaslandırıb ki, Rusiya dərhal Azərbaycanı üçtərəfli bəyanatı və Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannaməni pozmaqda ittiham etməli idi: “Laçın yolunun “blokadası” təkcə Qarabağa və İrəvana deyil, həm də Rusiyaya qarşı yönəlmiş hərəkətdir. Dərhal demək lazım idi ki, Azərbaycan müttəfiqlik bəyannaməsinə əməl etmir, Rusiya Xarici İşlər Nazirliyi isə susur. Nəticədə Bakı Rusiyanı bəyannaməyə əməl etməməkdə təqsirləndirir, baxmayaraq ki, onu birinci özü pozub. Bu da ondan irəli gəlir ki, Moskva ilə Bakı arasındakı ziddiyyətləri hər cür yumşaltmağa, Rusiya ictimaiyyətini çaşdırmağa çalışan Rusiya Xarici İşlər Nazirliyində azərbaycanpərəst lobbi fəaliyyətini davam etdirir. Ona görə də Rusiyanın böyük dövlət statusuna uyğun gəlməyən kifayət qədər ziddiyyətli və dişsiz bəyanatlar verilir”.

Rusiyalı politoloqun azərbaycanpərəst lobbi ilə bağlı dedikləri müdrik atalarımızın dediyi “adımı sənə qoyum, səni də yana-yana” zərb-məsələni xatırladır. Məsələ ondadır ki, Rusiyada, eləcə də ABŞ-da, Fransada və dünyanın digər böyük dövlətlərinin parlament və hökumətlərində, media orqanlarında güclü erməni lobbisi fəaliyyət göstərir. Otuz il ərzində bizim haqq səsimizin dünyaya çatmasına imkan verməyən, haqlı olduğumuz halda bizi haqsız çıxaran, əleyhimizə qətnamələr və digər sənədlər qəbul etdirən məhz erməni lobbisi olub. İndi rusiyalı politoloqun Moskvada, guya, Azərbaycanın lobbisinin fəaliyyət göstərdiyini iddia etməsi heç bir qəlibə sığmayan fikirdir. Özünü politoloq adlandıran şəxs gərək, bu dərəcədə yalan danışmasın. Görünür, Mixail Aleksandrov özü erməni lobbisindən, hayların pul kisəsindən asılıdır, indi isə öz adını başqalarına qoyur.

***

Bununla belə, Rusiyada prosesləri rasional şərh edən ekspertlər də var. Bu istiqamətdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Xalq Araşdırmaları Mərkəzinin aparıcı elmi işçisi, politoloq Nikolay Silayevin fikirləri diqqəti cəlb edir. O bildirib ki, rəsmi İrəvan Qarabağı Azərbaycan ərazisinin bir hissəsi kimi tanıyıb və bu, Ermənistan rəhbərliyinin işidir. Bununla belə, bu tanınma 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli bəyanatın şərtlərini dəyişir.

Onun sözlərinə görə, belə şəraitdə Qarabağın erməni əhalisinin taleyi üçün məsuliyyəti üçüncü ölkələrin üzərinə atmaq olmaz. “Ermənistan Qarabağı Azərbaycan ərazisi kimi tanıdıqdan sonra elə bir vəziyyət yarandı ki, bu vəziyyətdə Rusiya ofsaydda qaldı. Buna rəğmən, Ermənistanın dövlət təbliğatında Qarabağ əhalisinin bütün bəlalarında Moskvanı ittiham etmək xətti açıq-aşkar görünür. Rusiya Xarici İşlər Nazirliyinin bəyanatı bu cür ittihamları dəf etmək məqsədi daşıyır”.

Bu arada Rusiya Xarici işlər nazirinin sabiq müavini, hazırda parlamentin yuxarı palatası – Federasiya Şurasının Beynəlxalq Əlaqələr Komitəsinin sədri Qriqori Karasin Milli Məclisin deputatı Qüdrət Həsənquliyevin bəyanatına münasibət bildirib. Qeyd edək ki, Q.Həsənquliyev Rusiya XİN-in 15 iyul tarixli bəyanatına cavab olaraq deyib ki, Moskva Cənubi Qafqazda sülh istəmir, həmçinin Azərbaycan və erməni xalqları arasında qanlı münaqişənin davam etdirilməsində maraqlıdır. Parlamentari Rusiya sülhməramlı kontingentinin Qarabağdan çıxarılmasını tələb edib.

Q.Karasin cavabında yenə Rusiyanın, onun rəhbər şəxslərinin bölgədə oynadığı barışdırıcı rolundan bəhs edib. Qeyd edib ki, 2020-ci ilin payızında bölgədə axan qan Rusiya Prezidentinin şəxsi vasitəçiliyi ilə dayandırılıb, Moskvanın iştirakı ilə Ermənistan–Azərbaycan münasibətlərinin normallaşmasının əsasını təşkil edən ən yüksək səviyyədə üçtərəfli saziş hazırlanıb. “Ümid edirəm ki, bu cür anti-Rusiya hücumları Bakının rəsmi mövqeyini əks etdirmir. Onların Azərbaycan parlamentində də dəyərləndirilməsi vacib olardı”, – deyən sabiq nazir müavini əlavə edib ki, Qarabağda münaqişənin bütün mərhələlərində əsasən Rusiyanın səyləri nəticəsində hərbi əməliyyatları dayandırmaq, tərəfləri danışıqlar masası arxasına əyləşdirmək və kompromislərə getmək mümkün olub.

Nəhayət, Q.Karasin sözünün “mustafasını” deyib. Rusiyalı sülhməramlıların Qarabağ erməniləri üçün görmüş olduqları işləri sadalayaraq (?) minnət qoyan senator onların Qarabağa sülh gətirdiklərini (?) iddia edib: “Bizim sülhməramlılarımız Qarabağ ermənilərinə və azərbaycanlılara sülhün gündəliyini müzakirə etmək şansı verdilər. Biz Rusiya kontingentinin çıxarılması ilə bağlı tələbləri tamamilə məsuliyyətsiz hesab edirik”.

Beləliklə, Rusiya təmsilçisi açıq-aydın bildirir ki, onlar Qarabağdan çıxmaq niyyətində deyil. Ancaq onlar indiyədək başqa fikirlər də söyləyirdilər. Sülhməramlıların qalma müddətinin başa çatmasına iki il dörd ay vaxt qalıb. O vaxtadək çox sular axıb durulacaq. Azərbaycan isə qarşısına qoyduğu hədəflərə doğru addım-addım irəliləyir. Prezident İlham Əliyevin mayın 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüş zamanı dediyi kimi, Vətən müharibəsinin başa çatmasından ötən iki il yarım ərzində bütün planlarımız ardıcıllıqla, tədricən həyata keçdi və biz öz planlarımızın son addımlığındayıq. Cənab İlham Əliyev qeyd etdi ki, o addım da atılacaq və buna şübhə etmir. Bəli, Azərbaycan qarşısına qoyduğu bütün məqsədlərə nail olacaq. Buna yaxın-uzaq xaricdə heç bir qüvvə şübhə etməməlidir.

***Səxavət HƏMİD, “Xalq qəzeti”***

**Ekspert rəyi**



**Rizvan HÜSEYNOV, hərbi-siyasi şərhçi**

– Rusiyalı ekspertlər, əsasən sözügedən ölkənin xarici siyasət idarəsinə yaxın şəxslərdir. Moskva bu bölgəni itirir. Bunu Kremldə hakim zümrə də anlayır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Rusiya sülhməramlılarının 2025-ci ildə Qarabağı tərk edəcəyini açıqlayıb. Fikir verin ki, cənab Ərdoğan bu sözü NATO-nun Vilnüs Sammitində jurnalistlərlə söhbətində deyib.

Bundan başqa Brüssel görüşünün vaxtı dəyişdirilərək bir həftə tez keçirildi. Bu onu göstərir ki, Rusiya buradakı əsas təsir vasitəsini itirir. Onun əsas təsir vasitəsi də sülhməramlı kontingent idi. Rusiya üçtərəfli bəyanatın yalnız dördüncü bəndindən yapışıb. Həmin bənddə sülhməramlıların yerləşdirilməsi əksini tapıb, ancaq onların erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşəcəyi də qeyd olunub. Ancaq bu bənd icra olunmur. Noyabrda bu bəndin havadan asılı qalmasının 3 ili tamam olacaq. Deməli, bu icra olunmayıbsa, sülhməramlıların Qarabağda qalmasına da Azərbaycan heç bir əsas görməyəcək. Bunu da Azərbaycan bildirib. Kremldəki bəzi dairələr bunu anlayırlar. Amma Xarici İşlər Nazirliyi bunu anlamaq istəmir. Ona görə də bu gərginliyi yaradırlar.

# Ulu öndər milli-mənəvi dəyərlərimizin misilsiz himayədarı idi

**Ölkəmizdə elə bir sahə yoxdur ki, orada ümummilli lider Heydər Əliyevin diqqət və qayğısı, tarixi rolu hiss olunmasın. Unudulmaz dahi şəxsiyyət hakimiyyətdə olduğu bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin qorunması üçün yorulmadan çalışıb. Mədəni irsimizin, milli incəsənətimizin inkişafına Ümummilli liderin verdiyi töhfələr danılmazdır.**



Ulu öndər hər zaman mədəniyyəti ölkənin ümumi inkişafının vacib cəbhəsi hesab edirdi. Buna görə də mədəniyyət sahəsi üzrə həm qanunvericilik bazasının hazırlanmasını, həm də yaradıcı fəaliyyətin təbliğ və təşviqini diqqətdə saxlayırdı. Ölkəmizin tarixinin, mədəniyyətinin, dünyada təbliğ edilməsinin nəticəsi olaraq indi bir çox milli-mədəni sərvət nümunəmiz UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Bəşəriyyətin mənəvi xəzinəsində yer alan bu incilər sırasında min illərdən bəri xalqımızın yaratdığı, qoruyub inkişaf etdirdiyi folklor, aşıq sənəti nümunələri də var.

Bu yazıda ümummilli liderin həm sovet Azərbaycanına rəhbərliyi (1969-1982) dövründə, həm də müstəqillik dönəmində aşıq sənətinə, folklorumuza diqqət və qayğısından söz açmaq istəyirəm. Öncə onu deyim ki, mənim də üzvü olduğum Aşıqlar Birliyi 1984-cü ildə yaradılsa da, artıq ötən əsrin 70-ci illərindən etibarən Azərbaycanda yeni milli oyanış, müstəqillik, mənəvi dəyərlərə qayıdış prosesi başlamışdı.

On illərlə məqsədli şəkildə diqqətdən kənarda qalmış, aşkar saygısızlıq göstərilmiş folklora, aşıq sənətinə məhz Heydər Əliyev yenidən fəaliyyət meydanı yaratdı. Bu münasibət təkcə söz–tapşırıq olaraq qalmadı, milliləşmə dalğası canlı tədbirlərdən tutmuş, radio efirinə, televiziya ekranına qədər genişləndi. O illərə qədər bu səpkidə mədəniyyət-incəsənət tədbirləri ya az olurdu, ya da diqqət çəkmirdi. Həmin dövrdə efirə gətirilən "Ozan" televiziya və "Bulaq", radio verilişləri xalqımızın bu böyük marağına səbəb olmuşdu. 1969-cu ilin noyabr ayında Azərbaycan radiosunda "Xalq yaradıcılığı bulağı" adı ilə efirə çıxan veriliş 1970-ci ildən "Bulaq" adlandırıldı. Xalqımızın zəngin deyim-duyum tərzi, əsrlərin o üzündən baş alıb gələn ulu söz xəzinəsi evlərə "ayaq açdı".

Aşıqların yaradıcılıqlarının dərindən öyrənilməsi, bölgələrdə onların konsertlərinin, görüşlərinin təşkil edilməsi, bu sahənin elmi araşdırılması, sənədli filmlərin çəkilməsi ədəbi-mədəni yaddaşımıza göstərilən diqqətin nəticəsi idi.

1970–80-ci illərdə aşıqlardan Hüseyn Bozalqanlı, Vəli Miskinli, Hüseyn Cavan, Ədalət Nəsibov, Şəmşir Qocayev, Şakir Hacıyev və digər məşhur sənətkarlar el-obada daha geniş şöhrət qazandılar, bu ulu sənətin təbliğinə öz töhfələrini verməyə başladılar.

Aşıq Ələsgərin 1972-ci ildə 150 illik, Aşıq Alının 1981-ci ildə 180 illik, Aşıq Şəmşirin 2003-cü ildə 110 illik yubileylərinin təşkili Ulu öndərin təşəbbüsü və tapşırığı ilə reallaşmışdı.

Əməkdar elm xadimi, professor, Azərbaycan Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlı Aşıq Ələsgər irsinə dövlət qayğısından bəhs edərək yazır: "1972-ci ildə Heydər Əliyevin böyük siyasi nüfuzu sayəsində Aşıq Ələsgərin 150 illik yubiley tədbiri Bakı ilə yanaşı, Moskvada da ən yüksək səviyyədə keçirildi. Yubiley tədbirlərinin keçmiş ittifaq miqyasındakı böyük əks-sədası o vaxt hətta Ermənistanda da Aşıq Ələsgərin 150 illiyini qeyd etmək məcburiyyətində qoydu. Belə ki, Ermənistan SSR ərazisində olan Göyçə mahalında Aşıq Ələsgərin vətəni Ağkilsə kəndində böyük sənətkarın əzəmətli qəbirüstü abidəsi ucaldıldı. Bu, həmin dövrdə Heydər Əliyevin nüfuzu sayəsində əldə edilmiş parlaq bir nailiyyət idi".

"Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir", – deyən Ümummilli liderin fikrincə, mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir. Heydər Əliyevin bu sahəyə qayğısı nəticəsində Azərbaycan aşıqlarının təşkilatlanması istiqamətində də mühüm addımlar atıldı. Azərbaycan Aşıqlar Birliyi (1982), qadın aşıq və şairlərdən ibarət "Aşıq Pəri" məclisi (1984) yaradılıb, "Bayatı bayramı", "Dastan gecəsi", "Qurbani saz bayramı" və s. layihələr həyata keçirilib. Həmin dövrdə Azərbaycan Aşıqlar Birliyinin əsasını qoymuş və ilk sədri olmuş Xalq şairi Hüseyn Arifə respublikanın Dövlət mükafatı verilib.

Bəli, xalqın zəngin mənəvi dünyasının öyrənilməsi məsələsi Heydər Əliyevin elm və mədəniyyət quruculuğu siyasətinin tərkib hissəsi kimi daim diqqət mərkəzində olub. Milli dövlət quruculuğunun ilk illərində, 1994-cü ilin martında görkəmli tənqidçi, ədəbiyyatşünas Yaşar Qarayevin ideya müəllifliyi və təşəbbüsü ilə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində "Folklor Sarayı" Elmi-Mədəni Mərkəzinin fəaliyyətə başlaması və daha sonra onun bazasında Folklor İnstitutunun təşkili dövlət siyasəti səviyyəsində milli-mənəvi dəyərlərə artan marağın təzahürü, milli-ideoloji işin elmi meyarlarla kompleksləşdirilməsinin göstəricisi idi.

Heydər Əliyev "Koroğlu" dastanı haqqında söyləmişdir: "Koroğlu" dastanı ona görə sevilibdir ki, xalqın həyatı, gələcəyi üçün ən əhəmiyyətli fikirlər o dastanda cəm olubdur. Bu dastanı nəinki xalqımıza, bütün dünya ictimaiyyətinə daha da təsirli şəkildə çatdırmaq, tanıtdırmaq üçün Üzeyir Hacıbəyovun "Koroğlu" operasını yaratması mədəniyyətimizdə böyük inqilabi hadisədir".

Ulu öndər "Kitabi-Dədə Qorqud" dastanına münasibətdə də mədəniyyətimizin, folklorumuzun gerçək himayədarı olduğunu ortaya qoyub. 2000-ci ildə təkcə Azərbaycanda və türk respublikaları arasında deyil, dünyada belə heyrətlə qarşılanan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin UNESCO səviyyəsində təntənəli şəkildə keçirilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. Bu, böyük mədəni hadisə idi. Bununla Azərbaycan xalqı öz milli dəyərlərini, qədim söz abidəsini bir daha dünyaya nümayiş etdirdi. Dahi siyasətçi "Kitabi-Dədə Qorqud" dastanını yüksək qiymətləndirərək demişdi: "Dədə Qorqud"un kinoya salınması tariximiz üçün nə qədər böyük hadisədir! Nə üçün? Çünki, gəlin, açıq danışaq, elə özümüzün içərisində də çoxları "Dədə Qorqud"u yaxşı bilmirlər, "Dədə Qorqud"un, Azərbaycan xalqının kökünü yaxşı bilmirlər".

Yeri gəlmişkən, onu da qeyd edim ki, hazırda mənim çalışdığım, respublikada yeganə olan Gədəbəy Aşıq Məktəbi də ulu öndərin milli dəyərlərə yönəlmiş siyasətinin təzahürüdür. Təhsil ocağında Dədə Qorqud yadigarı ozan sənətinin gələcək nəsillərə çatdırılması istiqamətində məqsədyönlü iş aparılır. Azərbaycan aşıq sənətinin 2009-cu ildə UNESCO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı"na daxil edilməsi də bu sahədə qazanılan uğurlardandır.

Bu gün dövlətimizin diqqət və qayğısı altında xalq yaradıcılığının müxtəlif istiqamətləri üzrə toplama, tərtib və nəşr layihələri reallaşdırılır. Mədəniyyət Nazirliyi tərəfindən də aşıq sənətinin yaşadılmasına və təbliğinə qayğı ilə yanaşılır, keçirilən festival və müsabiqələrdə, konsertlərdə aşıq sənətinə də diqqət yetirilir. Azərbaycanın zəngin mədəniyyətinin və tarixinin bundan sonra da dünyada tanıdılması və təbliğ olunmasında Heydər Əliyevin təməlini qoyduğu yolun, onun irsinin əhəmiyyəti böyükdür.

Ulu öndər tərəfindən qoyulmuş bu siyasəti möhtərəm Prezidentimiz İlham Əliyev layiqincə davam etdirir. 2013-cü ildə möhtərəm Prezidentimiz İlham Əliyevin Gədəbəy Aşıq Musiqi Məktəbinin açılışında iştirakı və orada söylədiyi dərin məzmunlu nitq aşıq sənətinə qədirbilən münasibətin təzahürüdür.

Heydər Əliyev Fondu da bu yöndə məqsədyönlü fəaliyyət göstərir. Bütün bu diqqətin, qayğının təməlində Ulu öndərin ozan-aşıq sənətinə məhəbbəti durur.

***Etibar ƏLİYEV,***
***AYB-nin və Aşıqlar Birliyinin üzvü,***
**Gədəbəy rayonu**

---

## "Heydər Əliyevin həyatının 100 anı" Parisdə

**Parisdə müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi və qüdrətli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar "Ulu öndər Heydər Əliyevin irsinə həsr olunmuş kitabların nəşri" beynəlxalq layihəsi çərçivəsində Azərbaycan və ingilis dillərində işıq üzü görmüş "Heydər Əliyevin həyatının 100 anı" kitabının təqdimat mərasimi keçirilib.**



Azərbaycanın Fransadakı səfirliyinin Mədəniyyət Mərkəzində keçirilən təqdimat mərasimi səfir Leyla Abdullayevanın, Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının rəhbəri Aytən Muradovanın və kitabın müəllifi, "Azərbaycanım" beynəlxalq jurnalının baş redaktoru, Beynəlxalq Elmlər Akademiyasının müxbir üzvü Emil Nəsirlinin dəstəyi ilə təşkil olunub.

Mərasimdə çıxış edən Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının rəhbəri Aytən Muradova Ulu öndərin mənalı və şərəfli ömür yolunun parlaq səhifələrinin xalqımızın yaxın tarixi keçmişi ilə ayrılmaz vəhdət təşkil etməsindən danışıb. O, Ulu öndər Heydər Əliyevin fenomeninin ən mühüm göstəricilərindən biri də azərbaycançılıq məfkurəsinin, milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında dövlətçilik arzularının və hisslərinin güclənməsi, real siyasi amilə çevrilməsindən danışıb.

Sonra çıxış edən "Heydər Əliyevin həyatının 100 anı" kitabının müəllifi, "Azərbaycanım" beynəlxalq jurnalının baş redaktoru Emil Nəsirli qeyd edib ki, Heydər Əliyev qədər öz xalqını, onun tarixini, mədəniyyətini və dilini sevən ikinci bir şəxsiyyət tapmaq çox çətindir. Heydər Əliyevin uğurlu xarici siyasət fəaliyyətinin məqamlarından söz açan E.Nəsirli vurğulayıb ki, Azərbaycanın nüfuzlu beynəlxalq və regional təşkilatlarla münasibətlərinin yaradılması və daha yüksək səviyyəyə qaldırılması ilə diqqəti cəlb edib. Beynəlxalq təşkilatlara üzv olmaq, onlarla səmərəli iş qurmaq Azərbaycanın problemlərini, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq istiqamətində Heydər Əliyevin rolu danılmazdır.

Təqdimat mərasimində Azərbaycanın Fransadakı səfirinin müşaviri Ayaz Qocayev də çıxış edib.

Sonra ictimai-siyasi xadimlərin, yerli və beynəlxalq qurumların nümayəndələrinin, KİV əməkdaşlarının və digər şəxslərin qatıldıqları tədbirdə mərasim iştirakçılarının ulu öndər Heydər Əliyevin irsi ilə bağlı suallarını cavablandıran Emil Nəsirli "Heydər Əliyevin həyatının 100 anı" kitabını iştirakçılara hədiyyə edib.

***"Xalq qəzeti"***

---



**İyulun 18-də Qafqaz Müsəlmanları İdarəsində iclas keçirilib.**

## Ümummilli lider dövlət–din münasibətlərinin sivil əsaslarını yaradıb

İclasda Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə bildirib ki, ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyəsinin təməlini qoyan, bu il anadan olmasının 100-cü ildönümünü qeyd etdiyimiz ulu öndər Heydər Əliyev milli-mənəvi dəyərlərə hər zaman diqqət və qayğı ilə yanaşıb. Ümummilli liderin başlatdığı ali mənəviyyat yolu bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ən yüksək səviyyədə davam və inkişaf etdirilir.

Tədbirdə Ulu öndərin milli-mənəvi dəyərlərə ehtiramını əks etdirən film nümayiş etdirilib.

***"Xalq qəzeti"***

---

## Azərbaycan Ordusu müstəqilliyimizin keşiyində




**Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Azərbaycan Ordusu Heydər Əliyev zəkasının işığında" adlı tədbir keçirilib.**

Müdafiə nazirliyinin rəsmiləri, xüsusi təyinatlı təhsil müəssisələrinin, Bakı Qarnizonundakı qoşun növləri və hərbi hissələrin nümayəndələri əvvəlcə "Heydər Əliyev muzey – lektoriyası"nda Ulu öndərin zəngin irsini əks etdirən ekspozisiya ilə tanış olublar.

Əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbani böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan unudulmaz Heydər Əliyevin ordu quruculuğundakı müstəsna xidmətlərindən danışıb.

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi vəzifəsini icra edən polkovnik Elşad Əbilov Heydər Əliyev adına hərbi liseyin yetirmələrinin Qarabağ uğrunda döyüşlərdə göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrindən danışıb. Onlardan 19 nəfərinin "Vətən Müharibəsi Qəhrəmanı", 11 nəfərinin "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldüyünü, 20-dən çox məzunun ali hərbi rütbələrə yüksəldiyini, bu liseydən pərvazlanan yüzlərlə zabitin döyüş orden və medalları ilə təltif olunduğunu diqqətə çatdırıb.

Milli Müdafiə Universiteti Hərbi Elmi-Tədqiqat İnstitutunun humanitar elmlər şöbəsinin professor-məsləhətçisi, tarix elmləri doktoru polkovnik Mehman Süleymanov, Vətən Müharibəsi Qəhrəmanı polkovnik Nizami Mövlanov, polkovnik Fərman Mustafayev, ehtiyatda olan polkovnik Əhməd Məmmədov, polkovnik-leytenant Cahangir Qurbanov, Firavan Şərfalıyev, ədliyyə kapitanı Rüstəm Əliyev və başqaları çıxış edərək Vətənimizin təhlükəsizliyinin qarantı olan Azərbaycan Ordusunun Heydər Əliyev zəkasının işığında daha da gücləndiyini, qüdrətləndiyini, maddi-texniki bazasının möhkəmləndiyini, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qalib bir orduya çevrildiyini nəzərə çatdırıblar.

***Q. QASIMOV, "Xalq qəzeti"***

Müsahibə

# Ağdam Qarabağın müasir sənaye mərkəzi olacaq

## 190 hektar sahə tikinti meydanına çevrilib

**Qarabağın giriş qapısı adlandırılan Ağdam 27 il ərzində erməni faşizmi tərəfindən yerlə-yeksan edilərək xarabalığa çevrilib. Şəhər düşməndən azad edildikdən sonra bu tarixi torpaqlarımızın sürətlə dirçəldilməsi prosesinə başlanılıb.**



Ağdamın əlverişli coğrafi mövqeyi, sosial-iqtisadi inkişaf imkanları, yük axınlarının gələcək təmərküzləşməsi və logistika potensialı rayonda müasir infrastruktura malik sənaye parkının yaradılmasını zəruri edib. Nəticədə, 2021-ci il mayın 28-də İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində Ağdam Sənaye Parkı yaradılıb. Bu müəssisə Azərbaycan ərazisində 5-ci sənaye parkı kimi qeydə alınıb. Qurum yaradılarkən əvvəlki sənaye parklarının təcrübəsi nəzərə alınıb.

**Müsahibim Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin baş məsləhətçisi Eldar Seyidov Ağdamda sənaye mərkəzi yaradılması barədə açıqlamasında bildirdi:**

– Sənaye parkının yaradılmasında məqsəd işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişaf etdirilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkil edilməsi, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaqdır. Buranın coğrafi mövqeyi, insan resursları potensialı və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir.




Ağdam Sənaye Parkında tikintinin iki mərhələdə aparılması planlaşdırılıb. Birinci mərhələdə sosial layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Sahibkarların rahat fəaliyyət göstərmələri üçün mobil şəhərcikdə 16 modul tipli yataqxana quraşdırılıb. Bununla yanaşı, sənaye parkının ərazisində yeməkxana, anbar, market, camaşırxana, tibb məntəqəsi, "paypoint" ödəniş məntəqəsi, bankomat və idman zonası istifadəyə verilib, mobilizasiya şəhərciyinin qurulması işləri tamamlanıb. Artıq 40 MVA elektrik yarımstansiyasının tikintisinə başlanılıb.

Bundan əvvəl isə əraziyə 10 kV-luq elektrik xətti çəkilib, 630 kV-luq komplekt transformator məntəqəsi quraşdırılıb. Parkın günəş panelləri ilə işıqlandırılmasına xüsusi diqqət göstərilib. Tikinti meydanı sürətli internetlə təmin edilib. Müəssisəyə asfalt yol və su xətləri çəkilib. Yeri gəlmişkən, işğaldan azad olunduqdan sonra Ağdam şəhərində ilk elektrik enerjisi və su təchizatı sistemi bu parkın ərazisində quraşdırılıb. Yaxın günlərdə ikinci quyunun qazılması da nəzərdə tutulub. Bunlar göstərir ki, əsas işlər birinci mərhələdə tamamlanmaq üzrədir.

**– Ağdam Sənaye Parkında sahibkarlar üçün yaradılmış biznes imkanları barədə də məlumat verərdiniz.**

– Ağdam Sənaye Parkında sahibkarlar üçün geniş biznes imkanları yaradılıb. Bura investisiya qoymaq iş adamları üçün çox səmərəlidir. Təkcə ona görə yox ki, qurulan infrastruktur müasir dövrün tələblərinə cavab verməklə ən müasir texnologiyalar vasitəsilə həyata keçirilir, həm də dövlət həmin ərazilərdə sahibkarlıq mühitinin canlanması üçün kifayət qədər güclü iqtisadi stimullardan istifadə edir. Məsələn, parkın hər bir rezidenti qeydiyyata alındığı tarixdən 10 il müddətinə mənfəət, əmlak, torpaq vergilərindən, istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı 10 il ƏDV-dən, 7 il müddətinə gömrük rüsumlarından azad olunur. Bu isə biznes subyektinin əsas vergi yükünün əhəmiyyətli dərəcədə azaldılması deməkdir.

Bundan başqa, sənaye parkının sahibkarlarına əlavə güzəştlərin (xüsusi güzəştli bank kreditlərinin təmin olunması, sosial sığorta ödənişlərin subsidiyalaşdırılması, kommunal xidmətlərin endirimli tariflə təklif edilməsi və s.) də verilməsi nəzərdə tutulur. Bu il yanvarın 1-dən Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən, düşməndən təmizlənən ərazilərdə məskunlaşaraq işləyən mütəxəssislərə hər il 5 gün əlavə məzuniyyət verilməsi, aylıq vəzifə maaşına əlavələrin hesablanması, 600 manat birdəfəlik müavinət ödənilməsi, iş icazələrinin alınmasının sadələşdirilməsi, əmək miqrasiyası kvotasının tətbiq edilməməsi (əcnəbi mütəxəssislərə əmək miqrasiyası kvotasının 5 il tətbiq olunmaması) nəzərdə tutulur. Bunlar isə sənaye parklarının fəaliyyətinə təsir edən amillərdir.

Parkda sahibkarlara təşkilati və məlumat dəstəyi diqqətdə saxlanılır. Rezidentlərin qeydiyyatı "bir pəncərə" sistemi vasitəsilə həyata keçirilir, texniki şərtlər, xüsusi icazələr və lisenziyalar sadələşdirilmiş formada alınır. İnvestorların sorğuları vaxtında cavablandırılır, onlara sektorlar üzrə investisiya imkanları barədə məlumat verilir.

Göründüyü kimi, Ağdam Sənaye Parkının yaradılması güzəştli kreditlərin ayrılması və biznesin aparılması üçün sadələşdirilmiş şəraitin yaradılmasını nəzərdə tutur ki, bu, həm yerli, həm də xarici kapital üçün investisiya yeri seçimində həmişə prioritet olacaq. Bu, eyni zamanda, həmin ərazinin qısa zamanda sosial-iqtisadi inkişafına gətirib çıxarmaqla ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin edəcək.

**– Hazırda Ağdam Sənaye Parkının rezidentləri arasında istehsalla məşğul olanı varmı?**

– Park 190 hektar sahədə yaradılıb. Bugünədək 17 rezident və 5 qeyri-rezident qeydiyyata alınıb. Onlar burada tikinti materiallarının istehsalı müəssisələri yaradır, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, şərab, yem, gübrə istehsalı və emalı, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların təşkili istiqamətində işlər görürlər. Artıq parkda ilk müəssisə fəaliyyətə başlayıb. Qeyri-rezident "Yüksəl Beton" QSC sənaye parkının ərazisində beton istehsalı müəssisəsi inşa edib, məhsulun topdan və pərakəndə satışına başlanılıb. Zavod saatda 120 kub beton istehsal etmək gücündədir. Saatda 100 kub beton istehsal edəcək daha bir zavod da quraşdırılacaq. Müəssisə Ağdam sənaye zonasında və şəhərdə görülən tikinti işlərini betonla təmin edəcək.

Sənaye parkında hazırda layihələndirmə işləri görən və yaxın zamanda tikinti işlərinə başlayacaq sahibkarlar da var. Onların arasında rezident kimi qeydiyyata



alınan "NN-Tel Group" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) bu ilin noyabr-dekabr aylarında fəaliyyətə başlamağı planlaşdırır. Müəssisə PVC dam örtüklərinin istehsalını həyata keçirəcək. Şirkətin aylıq istehsal həcminin 14 min kvadratmetr olması proqnozlaşdırılır. "NN-Tel Group"un dam örtükləri əvvəlcə ölkənin tələbatının ödənilməsi üçün daxili bazarda satılacaq, daha sonra isə ixrac ediləcək. Şirkət ilkin mərhələdə istehsal fəaliyyətinə 680 min manat investisiya yatırmağı planlaşdırır.

"Rail Trans Service" MMC isə Azərbaycanda dəmir yolu avadanlıqlarının istehsalını həyata keçirəcək ilk müəssisə olacaq. Zavodun tikintisinin təxminən 7 aya başa çatdırılması nəzərdə tutulur. İnşaat işlərinin aparılması zamanı yerli xammaldan istifadə ediləcək ki, bu da işlərin daha qısa zaman ərzində başa çatdırılmasına imkan verəcək. "Made in Azerbaijan" brendi altında istehsal olunacaq yerli məhsulların sifarişlərdən asılı olaraq Rusiya və Avropaya da ixrac edilməsi planlaşdırılır. Şirkətin Azərbaycan daxilində məhsullarının potensial alıcısı "Azərbaycan Dəmir Yolları" QSC-dir. Layihəyə təqribən 5 milyon 700 min manat investisiyanın yatırılması nəzərdə tutulur.

Qeyri-rezidentdən "PMD Projects" MMC sənaye parkının ərazisində beton istehsalı, topdan və pərakəndə satışı ilə məşğul olacaq. MMC artıq layihələndirmə işlərinə başlayıb. Parkda ilk müəssisələrin 2023-cü ilin sonlarında fəaliyyətə başlaması nəzərdə tutulur. Siyahını uzatmaq da olar. Məncə, bu dediklərim ümumi təsəvvür yaratmaq üçün kifayət edər.

Beləliklə, Ağdam Sənaye Parkında ikinci mərhələ – istehsal sektorunun yaradılması mərhələsi başlayıb. İnvestorlar tərəfindən sənaye parkına 161 milyon manatdan çox vəsait yatırılacaq.

Bu mərhələdə, sahibkarlar tərəfindən Ağdam Sənaye Parkında müxtəlif ölçüdə metal profillərin, eləcə də anbar stellajlarının, boru və qutu profillərin, alçı, eksteryer suvaq, dolğu və izolyasiya materiallarının, havalandırma, yanğınsöndürmə avadanlıqları və müxtəlif növ metal və dəmir məmulatların, elektrik paylayıcı avadanlıqların və elektrik yuvaların, avtomatlaşdırma və telemexanika sistemlərinin, divar kağızlarının, müxtəlif çeşiddə sintetik xalçaların, prefabrik dəmir-beton məmulatları və s. istehsal müəssisələri inşa ediləcək.

**– Sənaye parkında buraxılan məhsulların bazara çıxarılması üçün nəqliyyat infrastukturunun yaradılması sahəsində görülən işlər barədə də məlumat verərdiniz.**

– Parkda istehsal olunmuş məhsullar azad edilmiş rayonların əksəriyyətində aparılacaq tikinti-quraşdırma işlərində istifadə ediləcək, eyni zamanda, digər rayonlara göndəriləcək, həm də xaricə ixrac olunacaq. Bunun üçün nəqliyyat infrastrukturu yenidən qurulur. Bərdə–Ağdam dəmir yolu xətti və Bərdə–Ağdam avtomobil yolu bu il istifadəyə veriləcək. Bununla sənaye parkında istehsal edilən məhsulların regional və dünya bazarına çıxarılması imkanları genişlənəcək.

***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

**Ağdam**

# Ermənistanın ekoloji cinayətləri sərhəd tanımır

**Azərbaycanda fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatları tərəfindən beynəlxalq ictimaiyyətə və BMT-yə Ermənistan Respublikasının dağ-mədən sənayesinin fəaliyyəti nəticəsində yaranan, Yer kürəsinin ekosisteminə regional və qlobal təsir göstərən ekoloji fəlakətə təcili diqqət yetirilməsi ilə bağlı müraciət ünvanlanıb.**

Sübut və faktlara əsaslanan həmin müraciətdə Ermənistanın Azərbaycanla sərhəd bölgəsində davam edən mədən əməliyyatları nəticəsində ekosistemin deqradasiyası ilə nəticələndiyi, bununla da yalnız Ermənistanın ətraf mühit üçün deyil, həm də qonşu ölkələr üçün ciddi təhlükə yarandığı öz ifadəsini tapıb. Müraciətdə, həmçinin mədən fəaliyyətinin ətraf mühitə vurduğu ziyan həm regionda, həm də ondan kənarda icmaların sağlamlığına və rifahına təhlükə törədərək transsərhəd təsir göstərdiyi bildirilib.

Ermənistanın ekoloji cinayətlərindən bəhs etməzdən əvvəl diqqəti bir məqama yönəltmək istərdik. Belə ki, qəsbkar artilleriya qurğularından, xüsusi raket sistemlərindən və qadağan olunan silahlardan istifadə edilməklə intensiv şəkildə atəşə tutulub. Nəticədə, dinc əhali arasında çoxsaylı ölüm və yaralanma halları baş verib, yaşayış məntəqələrinə, tarixi və mədəni abidələrə, inzibati binalara, ictimai və digər sosial obyektlərə ciddi ziyan dəyib. Ermənistanın hərbi təcavüzü nəticəsində ölən və yaralananlar arasında da çox sayda uşaq və qadınlar da olub.

Ermənistanın hərbi-siyasi rəhbərliyi 30 il ərzində Azərbaycana qarşı törətdiyi təxribatlarla, vandal, barbar əməllərlə terrorçu dövlət olduğunu təsdiqlədi. Vətən müharibəcindən əvvəl və savaş dövründə işğalçı ölkənin silahlı qüvvələri regionun ən böyük strateji layihəsi olan Avropanın enerji təhlükəsizliyi sahəsində



ölkənin silahlı qüvvələri tərəfindən Azərbaycanın istər işğal dövründə, istərsə də İkinci Qarabağ müharibəsində respublikamızın mülki əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələri, təhsil, sosial, mədəni və strateji əhəmiyyətli obyektlər ağır mühüm yer tutan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin Yevlax rayonu ərazisindən keçən hissəsinə raket zərbələri endirməkdən, Mingəçevir Su Elektrik stansiyasını dağıtmağa cəhd göstərməkdən belə çəkinmədi. Lakin ordumuzun qətiyyətli tədbirləri nəticəsində həmin terror hərəkətlərinin qarşısı uğurla alındı.

Azərbaycanın parlaq qələbəsi ilə başa çatan Vətən müharibəsindən sonra düşmən ölkədə açıqlanan məlumatlardan aydın oldu ki, işğalçı respublika 30 ildən çox bir müddət ərzində Qarabağ torpaqlarından kifayət qədər yüksək həcmdə gəlir əldə edib. Təkcə bu bölgədə çıxarılan mis, qızıl, digər filizlər Ermənistanın emal zavodlarını xammalla təchiz edən əsas mənbələrdən biri olub.

Düşmən işğal etdiyi əraziləri tərk edərkən, böyük enerji potensialını–13 su elektrik stansiyasını məhv edib. Ermənistan işğal dövründə həmin su elektrik stansiyalarından böyük həcmdə enerji alıb. Ermənistanın İstehlakçı Konsaltinq Mərkəzinin rəhbəri Karen Çilingəryanın bildirdiyinə görə, təkcə Vətən müharibəsi başladığı il ərzində Qarabağdan Ermənistana 330 milyon kVt/saat elektrik enerjisinin ötürülməsi nəzərdə tutulurmuş.

Açıqlanan məlumatlardan aydın olur ki, 2018-ci ildə Qarabağdan Ermənistana 17 milyon kVt/saat elektrik enerjisi ixrac olunub. Bundan bir il sonra isə bölgədəki SES-lərdə 475 milyon kVt/saat elektrik enerjisi istehsal edilib ki, bunun da 85 milyon kVt/saatı Ermənistana ixrac olunub. Maraqlıdır ki, Ermənistan rəsmilərinin "ucuz" adlandırdığı bu enerjinin Qarabağdan məhz neçəyə alındığı açıqlanmır. Eyni gizlilik Qarabağdan daşınan digər məhsullara – buğdadan tutmuş, üzümə, nara, mis və qızıl-gümüşə də aiddir.

Bütün bunlarla bərabər, Qarabağdakı meşələr talan edilib, ermənilərin qanunsuz gəlir mənbəyinə çevrilib. Ermənistan mətbuatında gedən məlumata görə, o torpaqların böyük hissəsi kriminal rejimin başçıları tərəfindən zəbt olunub. Ermənistanın keçmiş prezidentləri Koçaryan və Sarkisyan tərəfindən həmin torpaq sahələrindən hər il böyük gəlir əldə edilib.

Ermənistan işğal dövründə olduğu kimi, Vətən müharibəsindən ötən müddətdə də cinayətkar əməllərindən geri çəkilmir. Qafan dağ-mədən kompleksindən axıdılan ağır metal tullantıları illərdir ki, transsərhəd çayları olan Oxçuçay və Araz çaylarına axıdılır. 270 milyon kvadratmetr ərazini əhatə edən və mədən tullantıları hovuzu kimi istifadə olunan Artsevanik su anbarı bütün region üçün ciddi təhlükə yaradır.

***V.BİNYATOĞLU,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi



**Vəkil HÜSEYNOV,**
**iqtisadçı-ekspert**

Bu gün Ermənistanın Qafan mədən kompleksi daxilində 4,6 milyon kvadratmetr ərazini əhatə edən Qutqum mədən tullantıları yatağı region üçün ciddi təhlükə yaradır. Əkərək mis-molibden kombinatının tərkibində ağır metallar olan mədən tullantıları Kərçivançay vasitəsilə Araz çayında çirklənmə problemini daha da ağırlaşdırır.

Bundan başqa, ildə təxminən 10 min unsiya qızılın emal edildiyi Göyçə Daşdəm qızıl mədənində davam edən əməliyyatlar davamlı çirklənməyə səbəb olub və zəhərli çirkab suları yaxınlıqdakı çayları, o cümlədən Bərgüşad, eləcə də transsərhəd Araz çaylarını çirkləndirib.

Ermənistanın Lori bölgəsində Axtala mədəni ildə təxminən 5 min ton mis və qurğuşun hasil edir ki, bu da yaxınlıqdakı Tona çayının çirklənməsinə səbəb olur. Yaxud, ildə təxminən 1,5 milyon ton filiz emal edən Qafan manqan zavodu Cənubi Qafqaz regionu üçün mühüm içməli su mənbəyi kimi istifadə olunan Bərgüşad çayını əhəmiyyətli dərəcədə çirkləndirir. Bu çirkləndiricilər müxtəlif sağlamlıq problemlərinə, o cümlədən tənəffüs problemləri, nevroloji xəstəliklər və xərçəngə səbəb olur.

Mis, sink və qurğuşun istehsalı ilə məşğul olan Ellər metallurgiya zavodu, ildə təqribən 100 min ton mis emal edən Göyçə misəritmə müəssisəsi içməli su mənbələrinin, havanın çirklənməsinə və turşulu yağışların yaranmasına gətirib çıxarır. .

Bütün bunlar azmış kimi, Ermənistan Azərbaycan ilə sərhəddə–Arazdəyən (Yerasx) adlı ərazidə nəhəng metallurgiya zavodunun tikintisinə başlayıb. Mütəxəssislər tərəfindən bü müəssisənin zəhərli kimyəvi tullantılarının yerli ekosistemə böyük potensial təsir göstərəcəyi bildirilir. İçməli su təchizatının bu cür çirklənməsi sərhədyanı ərazilərdə yoluxucu xəstəliklərin yayılma riskini artırır, həm Azərbaycana, həm də Ermənistana təsir edən əhəmiyyətli ictimai səhiyyə böhranı yarada bilər.

Təəssüf ki, Ermənistanın bu ekocinayətləri beynəlxalq aləmdə də indiyədək susqunluqla qarşılanıb. Halbuki işğalçı dövlət heç bir ekoloji norma və standartlara sığmayan əməlləri ilə BMT Konvensiyalarını, o cümlədən bu ali təşkilatın Transsərhəd su axarlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında Konvensiyasının müddəalarını pozur.

Xatırladım ki, 17 mart 1992-ci il tarixli həmin konvensiya ümumi su obyektlərin, beynəlxalq göllərin mühafizəsi və istifadəsinə yönəlib və sənəddə insan fəaliyyəti nəticəsində transsərhəd sularda baş verən dəyişikliklər ətraf mühitə hər hansı mənfi təsir etdiyi zaman tərəflərin danışıqlar aparmaları qarşıya mühüm vəzifə kimi qoyulub. Göründüyü kimi, Ermənistan transsərhəd su axarlarına ekoloji ziyan vurmaqla bu Konvensiyanın qaydalarını və prinsiplərini pozub.

# Qarabağ və Şərqi Zəngəzurdan Avropaya “yaşıl enerji” ixracı

## *Regionda 4 min meqavat günəş, 500 meqavat külək enerjisi potensialı mövcuddur*

**Son 10 ildə dünyada alternativ enerjinin istehsalı 2 dəfədən çox artıb. Azərbaycan dünyadakı yenilikləri tətbiq etməklə “yaşıl enerji” sahəsində də qabaqcıl ölkələrdən biri olmağı qarşısına mühüm vəzifə kimi qoyub, artıq bu sahədə önəmli nəticələr əldə olunub.**



Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı “Azərbaycan 2030”: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də respublikamızda “yaşıl enerji” istehsalının genişləndirilməsi mühüm yer tutub. Ölkəmizin bərpaolunan enerji istehsalı sahəsində böyük potensialının olması da bir çox layihələrin həyata keçirilməsi üçün geniş imkanlar yaradıb. Onu da xatırladaq ki, Azərbaycanın hədəfi bərpaolunan enerji payının ümumi enerji istehsalında 2025-ci ildə 24 faizə, 2030-cu ildə isə 30 faizə çatdırmaqdır.

Bu məqsədin reallaşması üçün ölkəmizin Xəzər dənizində təsdiqlənmiş 157 QV, quruda isə 135 QV külək enerjisi potensialı, ümumilikdə 290 QV-dan çox bərpaolunan enerji ehtiyatı var. Bununla yanaşı, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları da alternativ və bərpa olunan enerji mənbələri ilə diqqət çəkir. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyevin düşməndən təmizlənən yaşayış sahələri ilə bağlı müəyyənləşdirdiyi iqtisadi inkişaf kursunda həmin iqtisadi ərazilər “yaşıl enerji” zonasına çevriləcək əsas istiqamətlərdən biri hesab olunur.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan bütün yenidənqurma işləri, qurulan yaşayış məntəqələrindəki müasir infrastruktur gələcək iqtisadi məhsuldarlığın artımına, həyat səviyyəsinin yüksəldilməsinə və dayanıqlılığın möhkəmlənməsinə əlverişli zəmin hazırlayır. İşğaldan azad olunmuş ərazilərin “yaşıl enerji” zonasına çevrilməsi istiqamətində görülən işlər, günəş və külək enerjisindən istifadə ilə bağlı həyata keçirilən tədbirlər Azərbaycanın regionda lider mövqeyini getdikcə möhkəmlənir.

Xatırladaq ki, işğaldan azad olunmuş ərazilərdə 4 min MVt-dan artıq günəş, 500 MVt-dək külək enerjisi potensialının mövcud olması əsasında aparılan quruculuq işlərində məhz “yaşıl enerji” layihələrinə üstünlük verilir. Eyni zamanda, Qarabağ Azərbaycanda yerli su ehtiyatlarının formalaşdığı əsas iqtisadi rayonlardan biridir.

Regiondakı digər mühüm enerji obyektləri Cəbrayıl rayonu ərazisində, Araz çayı üzərində inşası hazırda davam etdirilən və qoyuluş gücü 200 MVt olan “Xudafərin” və 80 MVt olan “Qız Qalası” su elektrik stansiyalarıdır. Hər iki su elektrik stansiyasının tikintisi hazırda davam etdirilir və inşasının 2-2,5 il ərzində yekunlaşdırılması nəzərdə tutulur.

“AzərEnerji” Açıq Səhmdar Cəmiyyəti (ASC) tərəfindən işğaldan azad edilən ərazilərdə 2020-2023-cü illər ərzində 11 yenidən qurulan və bərpa edilən kiçik su elektrik stansiyasında (SES) indiyədək, ümumilikdə, 110 milyon kilovat/saat (kVts) “yaşıl enerji” istehsal olunub. Kəlbəcər, Laçın və Zəngilan rayonlarında 7 SES-in tikintisinin yaxın aylarda yekunlaşacağı planlaşdırılıb. Yaxın günlərdə isə Kəlbəcər və Laçında daha 9 SES-in qurulmasına başlanılıb.

Mütəxəssislərin bildirdiyinə görə, hər bir SES-də çayın 50 faizinin təminatı nəzərə alınır. Başqa sözlə, ekoloji normanın saxlanılması üçün derivasiya boruları çayın axını ilə paralel quraşdırılır və həmin borulardan çıxan su da təkrar çaya buraxılır. Bütün yerlərdə su ehtiyatlarından səmərəli istifadə olunması, daşqınların qarşısının alınması və su itkisinə yol verilməməsi üçün çayın məcrasına uyğun idarə olunan su qəbulediciləri tikilir. Çayda ekoloji axını avtomatik tənzimləyən və suyun həcmi az olduqda ətraf mühitin mühafizəsi məqsədilə özünü dayandıran Avropa istehsalı olan eko-turbinlər quraşdırılır.

### *Ekspert rəyi*

**Hüseynqulu QULİYEV, iqtisadçı-ekspert**



Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin “yaşıl enerji” zonasına çevrilməsi ilə bağlı aidiyyəti qurumlar tərəfindən Tədbirlər Planı müəyyənləşdirilib və beynəlxalq məsləhətçi şirkətin iştirakı ilə konsepsiya qəbul edilib. Konsepsiyanın əsas məqsədi düşməndən təmizlənən ərazilərdə mövcud olan yüksək bərpaolunan enerji potensialından istifadə etməklə ərazini ekoloji cəhətdən təmiz “yaşıl enerji” ilə təmin etmək üçün texnologiyaların tətbiqi perspektivlərini araşdıraraq təkliflər formalaşdırmaqdır.

Ölkənin əlverişli coğrafi iqlim xüsusiyyətləri, ən əsası isə Qarabağ və Şərqi Zəngəzurda alternativ və bərpaolunan enerji mənbələrindən, o cümlədən günəş, külək, su resurslarından geniş istifadəyə münbit zəmin yaradır. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərlə bağlı müəyyənləşdirdiyi iqtisadi inkişaf kursunda bu ərazilərin “yaşıl enerji” zonasına çevrilməsi əsas istiqamətlərdən biri hesab olunub.

Burada onu da vurğulamaq istərdim ki, Azərbaycanın su ehtiyatları qeyri-bərabər paylanıb. Əhali, ölkə iqtisadiyyatı və kənd təsərrüfatının suya olan tələbatının təmin edilməsi üçün su ehtiyatlarımızın təxminən 64 faizi mexaniki üsulla nizamlanır. Bu da su təsərrüfatını ölkənin ən böyük enerji istehlakçısı edir. Təkcə 2022-ci ildə kənd təsərrüfatının suvarma suyu ilə təminatı məqsədilə 1,59 GVt elektrik enerjisi və 19,9 min ton dizel yanacağı istifadə olunub ki, məhz su idarəetməsində “yaşıl enerji”dən istifadəni tətbiq etməklə ənənəvi enerji şəbəkələrinin yükünü yüngülləşdirə, bununla da dayanıqlı inkişaf və ətraf mühitin mühafizəsi arasında tarazlıq yarada bilərik.

Ümumilikdə, Azərbaycanın yerli su ehtiyatlarının 25 faizi işğaldan azad olunan ərazilərdə formalaşır ki, regionun Tərtərçay, Bərgüşadçay, Həkəri çayları və bu çayların qollarında kifayət qədər böyük enerji istehsal gücü hesablanıb. Yaxın gələcəkdə 30 MVt gücündə Bərgüşadçay və 43 MVt gücündə Həkəriçay kiçik su elektrik stansiyalarının inşası ilə bu çayların hidroenerji potensialından da istifadə edilməsi nəzərdə tutulub.

Eyni zamanda, tikinti zamanı aidiyyəti dövlət qurumları ilə razılaşdırılmış şəkildə təbii mühitin, flora və faunanın qorunması da xüsusi diqqətdə saxlanılır.

“AzərEnerji” ASC tərəfindən indiyədək yenidən qurulan və yaxın perspektivdə tikilərək istismara veriləcək 27 SES-in ümumi gücü 200 MVt-a yaxın olacaq və nəticədə ildə 600 milyon kilovat/saat ekoloji cəhətdən təmiz “yaşıl enerji” istehsal ediləcək.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzurda istehsal olunan “yaşıl enerji”nin daxili tələbatın ödənilməsi ilə yanaşı, ixracı da nəzərdə tutulub. “Azərenerji” ASC-nin mətbuat xidmətinin rəhbəri Teymur Abdullayevin bildirdiyinə görə, artıq Azərbaycanın işğaldan azad edilən ərazilərində istehsal olunan “yaşıl enerji”nin Avropa ölkələrinə ötürülməsi qərara alınıb. Məsələn, beynəlxalq layihə olan “Cəbrayıl” Enerji Qovşağı vasitəsilə gələcəkdə həm Qarabağda, həm də Azərbaycanın digər ərazilərində istehsal olunan elektrik enerjisinin Naxçıvan Muxtar Respublikasına, oradan isə Türkiyəyə və Avropaya ötürülməsi planlaşdırılıb.

Bu layihə ilə bağlı “Ağcabədi” yarımstansiyasının yenidən qurulması artıq başa çatdırılıb, “İmişli” yarımstansiyasının isə yenidən qurulmasına başlanılıb. Şərqi Zəngəzur və Qarabağın ölkənin ümumi enerji sisteminə qoşulması üçün indiyədək azad olunmuş ərazilərdə 12 yerdə 110 Kv-luq yarımstansiyalar tikilərək istismara verilib, uzunluğu 700 kilometrə yaxın 110 kv-luq və 330 kv-luq elektrik xətləri çəkilib.

Beləliklə, Azərbaycanın zəngin enerji resursları həm ölkəmizin iqtisadi potensialını gücləndirir, həm də regional əməkdaşlıqda çox mühüm rol oynayır. Tikilib istifadəyə verilən neft kəmərləri isə Azərbaycan neftini dünya və Avropa bazarlarına çıxarır. Respublikamız qlobal miqyasda artıq qaz ixrac edən ölkəyə çevrilir.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 80 investisiya layihəsi həyata keçirilir. Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasından aldığımız məlumata görə, bu layihələr, əsasən, sənaye, kənd təsərrüfatı, ticarət və xidmət sektorlarını əhatə edir.**

## Dağıdılmış ərazilərdə 80 layihə icra olunur

Bildirilib ki, Qarabağ və Şərqi Zəngəzur böyük iqtisadi potensiala malikdir. Xüsusən də bioloji təmiz kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, mədən sənayesi, turizm potensialına görə unikal ərazilər hesab edilir. Azərbaycan Prezidentinin müvafiq sərəncamı çərçivəsində düşməndən təmizlənən torpaqlarda fəaliyyət göstərən iş adamlarının maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, vergi, sosial sığorta, kommunal xidmətlər və digər güzəştlərin tətbiqi diqqətdə saxlanılır.



***“Xalq qəzeti”***

## Milli minik avtomobilləri ƏDV-dən azad edilib

**Prezident İlham Əliyev Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanunu təsdiq edib.**



Dəyişikliyə əsasən, ölkə ərazisində istehsal olunan minik avtomobillərinin satışı 2023-cü il mayın 1-dən 10 il müddətinə ƏDV-dən azad olunub. Qanun ölkədə minik avtomobillərinin istehsalının dəstəklənməsini nəzərdə tutur.

***“Xalq qəzeti”***

# İslam ölkələrinin investorları bərpa bölgəsinə dəvət edilib

## *Dünyanın 37 ölkəsindən 490 sərmayəçi bu ərazidə işləmək arzusundadır*

**İyulun 17-18-də Bakıda İslam Ticarət Sənaye və Kənd Təsərrüfatı Palatasının (ICCIA) Direktorlar Şurasının 35-ci iclası keçirilib.**




Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev tədbirin Bakıda təşkil edilməsinə görə Direktorlar Şurasına təşəkkürünü bildirib. İslam Ticarət Sənaye və Kənd Təsərrüfatı Palatasının bir neçə böyük beynəlxalq forumların təşkilatçısı olduğunu qeyd edən M. Musayev “Dayanıqlı kənd təsərrüfatı forumu”nun illik əsasda Azərbaycanda keçirilməsi ilə bağlı qərarın ölkəmizdə aqrar sektorun inkişafına böyük töhfə verəcəyini vurğulayıb.

Hazırda Azərbaycanın böyük beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini diqqətə çatdıran konfederasiya rəhbəri deyib ki, ölkəmizin inkişafı, regionda və dünyada söz sahibinə çevrilməsi Prezident İlham Əliyevin apardığı ardıcıl siyasətin nəticəsidir. Qeyd edilib ki, 44 günlük Vətən müharibəsində tarixi ədalətin bərpasına nail olan Azərbaycanın yaratdığı yeni reallıqlar şəraitində ölkəmizin iqtisadi inkişaf modeli də bu reallıqlara uyğun olaraq təkmilləşdirilib. Bu məqsədlə 2030-cu ilədək müəyyən olunmuş sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər qəbul edilib. Eyni zamanda, “2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” çərçivəsində işğaldan azad edilmiş ərazilərə “Böyük Qayıdış” Dövlət Proqramının icrasına başlanılıb.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sənaye, kənd təsərrüfatı, ticarət və xidmət sektorlarını əhatə edən 80-ə yaxın investisiya layihəsinin icrasına başlanıldığını vurğulayan M.Musayev İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatası ölkələrinin investorlarını da Qarabağda əməkdaşlığa dəvət edib.

Azərbaycanda həyata keçirilən iqtisadi layihələr barədə məlumat verən İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib ki, müsəlman ölkələrin potensialını nəzərə alaraq İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasına üzv olan ölkələrlə əməkdaşlığın daha da genişləndirilməsinə ehtiyac var. Ötən illərdə Azərbaycanın ICCIA -ya üzv olan dövlətlərlə münasibətlərinin xeyli möhkəmləndiyini bildirən nazir müavini ölkəmizdə sosial-iqtisadi siyasətin uğurla həyata keçirilməsi məqsədilə lazımi mexanizmlərin mövcudluğunu, eləcə də investisiyaların cəlbi üçün əlverişli mühitin yaradıldığını diqqətə çatdırıb.

Onun sözlərinə görə, son 20 ildə Azərbaycanda milli iqtisadiyyatın real həcmi 4 dəfə, ixrac isə 15,6 dəfə artıb, iqtisadiyyatın orta artım tempi dünya üzrə orta göstəricidən 4 faiz bəndi yüksək olub və ölkəmiz yuxarı orta gəlirli dövlətə çevrilib. Qeyd olunub ki, ötən dövrdə ölkənin strateji valyuta ehtiyatları 41,9 dəfə artıb, özəl sektorun ÜDM-də payı 83 faizi ötüb, məşğulluq səviyyəsi 78 faizə yaxınlaşıb.

Kiçik Orta Biznesin İnkişafı Agentliyinin sədri Orxan Məmmədov çıxışında indiyədək 1493 şirkətdən Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə investisiya yatırmaq üçün KOBİA-ya müraciət daxil olduğunu bildirib ki, bunların da 490-ı 37 ölkədən olan xarici investorlardır. Agentlik sədri Qarabağda biznes fəaliyyəti ilə məşğul olmaq üçün İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasına üzv dövlətlərin müraciətlərini əlaqələndirməyə hazır olduğunu diqqətə çatdırıb.

Kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov isə bildirib ki, Azərbaycan fəal biznes siyasəti ilə qlobal bazarda mövqeyini möhkəmləndirir. Nazir müavini qeyd edib ki, Azərbaycanda istehsal olunan məhsullar öz keyfiyyətinə görə rəqabətədavamlıdır və ölkəmiz qlobal bazarlarla ticarət əməkdaşlığını genişləndirmək istəyir.

İslam Ticarət Sənaye və Kənd Təsərrüfatı Palatasının Direktorlar Şurasının 35-ci iclası çərçivəsində tərəflər arasında 4 vacib sənəd imzalanıb. Həmin sənədlərə İslam Palatasının Halal Xidməti ilə Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında memorandum, Mavritaniya Ticarət Palatası ilə İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatası arasında memorandum, İqtisadiyyat Nazirliyinin Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatası arasında memorandum, eləcə də ICCIA, KOBİA, Beynəlxalq İslam Biznesi Assosiasiyası, Dövlət Turizm Agentliyi və “Caspian Event Organisers” MMC arasında memorandum daxildir.

Dünən iqtisadiyyat naziri Mikayıl Cabbarov özünün “Tvitter” hesabında Azərbaycan və İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasına üzv ölkələr arasında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsinin müzakirə edilməsi ilə bağlı paylaşım edib. “İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasının prezidenti Abdullah Saleh Kamel ilə ICCIA-nın Direktorlar Şurasının 35-ci iclasının Bakıda keçirilməsinin əhəmiyyətini vurğuladıq. Təşkilatla ölkəmizin səmərəli əməkdaşlığı və üzv ölkələrlə iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi imkanları barədə fikir mübadiləsi apardıq”,– deyə nazir qeyd edib.

Yeri gəlmişkən, İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasının sədri Abdullah Saleh Kamel jurnalistlərə açıqlamasında deyib ki, İslam ölkələrinin Azərbaycanda investisiya layihələri həyata keçirmək potensialı böyükdür. Ölkəmizdə mövcud imkanların, əlverişli iqtisadi mühitin investisiya layihələrinin həyata keçirilməsinə imkan verdiyini vurğulayan sədr onu da bildirib ki, rəhbərlik etdiyi qurum Azərbaycanın işğaldan azad olunmuş ərazilərində investisiya imkanlarının dəyərləndirilməsini mümkün hesab edir.

Xatırladaq ki, İslam Ticarət Sənaye və Kənd Təsərrüfatı Palatasında 57 üzv ölkə təmsil olunur. Həmin ölkələrin ümumi ərazisi 31,8 milyon kvadratkilometrdən, əhalisi isə 1 milyard 990 milyon nəfərdən çoxdur. Dünyanın quru sahəsinin 6,2 faizi və əhalisinin 23,8 faizi bu ölkələrin payına düşür. Palataya üzv ölkələrin ümumi daxili məhsulunun (ÜDM) illik dəyəri 9 trilyon ABŞ dollarından çoxdur. Bu isə ÜDM-in 9 faizini təşkil edir. Yeri gəlmişkən, Azərbaycanın xarici ticarət dövriyyəsinin 18 faizi və yaxud 9,3 milyard ABŞ dolları məhz İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasının üzv ölkələrinin payına düşür.

Paytaxtımızda keçirilən növbəti iclasda 20 üzv ölkədən 100-ə yaxın nümayəndə heyəti təmsil olunub. Səudiyyə Ərəbistanı, Türkiyə, Qətər, Küveyt, İordaniya, Misir kimi ölkələr də daxil olmaqla geniş tərkibdə ölkəmizə səfər edən Palata üzvləri və İslam ölkələrindən olan sahibkarlar 2 gün ərzində Bakıda müxtəlif mövzuları əhatə edən panellərdə, ölkələrin iqtisadi potensiallarının təqdimatlarında və B2B görüşlərdə iştirak ediblər. Bununla yanaşı, qonaqlar bir neçə iri kənd təsərrüfatı müəssisəsinə baş çəkib, əməkdaşlığa dair sənədlər imzalayıblar.

***Mirbağır YAQUBZADƏ,***
***“Xalq qəzeti”***

**Azərbaycan Mərkəzi Bankının (AMB) baş direktoru Ziya Əliyev “Sığorta mübahisələrinin uğurlu həlli yolu” adlı konfransda cari il sığorta bazarının həcminin 1,2-1,3 milyard manata çatacağının gözlənildiyini bildirib.**

## Sığorta bazarı 2 dəfə böyüyüb




Baş direktor 2019-cu ildə respublikada 650 milyon manat sığorta ödənişinin toplanıldığını, 2023-cü ilə bu rəqəmin 1,2-1,3 milyard manat olacağını, bununla da son 4 il ərzində sığorta bazarının, təqribən, 2 dəfə genişlənəcəyini vurğulayıb.

Xatırladaq ki, 2022-ci ildə Azərbaycanda sığorta şirkətləri 970 milyon 822 manatdan yuxarı sığorta haqqı toplayıb, ödənişlər isə 433 milyon 202 manat təşkil edib.

## Son 4 ildə 1,8 milyon əmək müqaviləsi bağlanıb

**İqtisadiyyat naziri Mikayıl Cabbarov “Tvitter” hesabında bildirib ki, 2019-cu ildən indiyə qədər Azərbaycanda işçilərlə işəgötürənlər arasında bağlanmış əmək müqavilələrinin sayı 362,9 min vahid artaraq 1 milyon 764,8 minə çatıb. O cümlədən, qeyri-neft-qaz sektorunun özəl bölməsində 330 minə yaxın artım olub.**




“Bu artım əmək bazarının “ağardılması” istiqamətində həyata keçirilən səmərəli islahatların uğurlu nəticəsidir”, –deyə o qeyd edib.

***“Xalq qəzeti”***

# Bir yaşın mübarək, “Cocuq Mərcanlının kiçik qardaşı”

## Ötən ilin bu günlərində Ağalıya “ağıllı” qayıdış başlandı

**Həmin tarixi fakt ərəfəsində mən yazmışdım ki, bu gün Cocuq Mərcanlının kiçik qardaşı dünyaya gələcək. Gəldi. Kiçik qardaşın sevinci həmin gün 58 soydaşımızın gözlərini yaşartmışdı. Amma, təkcə onlarınmı, əsla yox! Həmin gün bütün azərbaycanlıların ürəyi riqqətlə döyünürdü. “Allah səni qorusun, Azərbaycan əsgəri!” – deyən yaşlı qadın da sevincdən ağlayırdı, “Bu günü bizə bəxş edən Ali Baş Komandanımıza eşq olsun!” – deyə səsini sanki buludlara qədər çatdırmaq istəyən əli əsalı ağsaqqal da. Köçləri daşıyacaq avtomobillərin sürücüləri də həyəcanlı idi – onlar tarixə düşürdülər, faktı qələmə və ya lentə alan həmkarlarımız da – onlar isə tarixi yazırdılar.**



Otuz ildən çox idi ki, biz həmin mənzərəni, lövhəni arzulasaq da, etiraf edim ki, inana bilmirdik. Ali Baş Komandan öz ordusu ilə həmin inamsızlıqların hamısını tarixin arxivinə göndərdi. İndi dəqiq yadımda deyil, həmin gün saytların hansındasa oxumuşdum ki, bu saatdan etibarən işğaldan azad olunan torpaqlara Böyük qayıdışın ilk mərhələsi başlanır. Zəngilan rayonunun Ağalı kəndinin sakinləri 30 ildən sonra müasir şəkildə qurulan Ağalıya ayaq basacaqdılar. İllər öncə doğma yurdlarından didərgin salınan Ağalı sakinləri artıq məcburi köçkün deyil. Bu gün 58 ağalılı öz evinə qovuşacaq. Televiziya jurnalisti olan gənc xanım isə daha həyəcanlı idi: “Hər bir Ağalı sakininin üzündən oxumaq olur yurd sevgisini. Gözlərində yaş, ürəklərində həyəcan, qürur, sevinc və ümid... Onlar sevinc göz yaşları ilə Bakıda məskunlaşdıqları Zəngilan şəhərciyindən doğma el-obalarına yol alırlar”.

İnanıram ki, həmin məqamı televiziya üçün tarixləşdirmiş olsaydım, mütləq mən də dilin qrammatik qaydalarına tam əməl edə bilməzdim. Bəli, getdilər, məskunlaşdılar, bütün dünyaya sübut etdilər ki, o torpaqlarda məhz biz yaşamışıq, yaşamalıyıq və yaşayacağıq.

Biz hamıya sübut etdik ki, Azərbaycan xalqı, müzəffər Ali Baş Komandanımız və dünyanın ən güclülərindən olan Azərbaycan Ordusu öz qərarında qətidir, dönməzdir və qələbələrə layiqdir. Ancaq torpaqları düşmən tapdağından azad etməklə iş bitmirdi. Əsas vəzifələrdən biri də işğal dövründə viranəyə çevrilmiş ərazilərin bərpası idi. Azərbaycan dövləti bunu da bacardı. Bəzi ekspertlər Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilmiş dağıntıları, urbisiti, ekosidi və minalanma təhlükəsini nəzərə alaraq deyirdilər ki, qayıdış üçün uzun illər tələb edə bilər. Ancaq Prezident İlham Əliyev belə düşünmürdü. Məhz onun Qarabağ və Şərqi Zəngəzurdakı bərpa-quruculuq işlərinə diqqəti nəticəsində Zəngilanın Ağalı kəndinə qayıdış 44 günlük müharibədən cəmi il yarım sonra baş tutdu.

Təkcə azərbaycanlılar deyil, beynəlxalq aləmdəki çoxsaylı dost və tərəfdaşlarımız da səmimiyyətlə etiraf edirlər ki, işğaldan azad olunmuş ərazilərin sürətlə bərpa edilməsi, Böyük qayıdış proqramının uğurla reallaşdırılması Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin, Azərbaycan dövlətinin gücünün və qüdrətinin əyani göstəricisidir.

Xatırladaq ki, işğaldan azad edilmiş ərazilərimizdəki ilk “Ağıllı kənd” layihəsinin təməli 2021-ci ilin aprelində dövlətimizin başçısı tərəfindən qoyulmuşdu. Sonrakı il iyulun 19-dan başlayaraq isə Ağalı kəndinə qayıdış çərçivəsində dörd mərhələdə təxminən 200 nəfərdən ibarət 41 ailə köçürülmüşdür.

Ağalıda olmuş həmkarlarımızın yazdığına görə, kənddə innovativ tikinti materiallarından istifadə olunmaqla tam izolyasiya edilmiş 200 fərdi ev, ikimərtəbəli 4 qeyri-yaşayış binası, 360 şagird yerlik məktəb və 60 yerlik uşaq bağçası tikilib. Növbəti mərhələ çərçivəsində 150 evin tikilməsi nəzərdə tutulur. Hətta bir televiziya süjetində gördüm ki, burada enerjiyə tələbat alternativ enerji mənbələri vasitəsilə təmin olunur.

Yəni, bütün məsələlər ən yüksək səviyyəli texniki vasitələrin köməyi ilə həll olunmuşdur. Üstəlik, burada eynilə şəhər mühitində olduğu kimi, Smart DOST, ASAN, Azərpoçt, kiçik və orta biznesin inkişafı mərkəzləri fəaliyyət göstərir. Amma, bütün bunlar o demək deyil ki, Ağalı “kəndlikdən” tamamilə çıxır. Yox, burada aqrar sektorun inkişafına xüsusi önəm verilir. Rəsmi məlumatlarda bildirilir ki, kəndin kənarındakı böyük əkin sahəsində pivot sistemlər quraşdırılıb. Bu sistemlərlə 157 hektar sahənin suvarılması nəzərdə tutulur. Eyni zamanda, kənd ərazisində iqlim stansiyalarının da tikilməsi planlaşdırılır.

Bəli, Ağalı məktəbində ilk zəngi də eşitmişdik, “son zəng”ə də şahidlik etdik və hətta bu günlərdə xəbər gəldi ki, orada ilk nişan mərasimi də olub. Allah xoşbəxt eləsin!

Cocuq Mərcanlının “kiçik qardaşı”nın bir yaşı münasibətilə qələmə aldığımız qeydləri Prezident İlham Əliyevin ötən il mayın 27-də məhz Ağalı kəndində “Ağıllı kənd” layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində səsləndirdiyi fikirlərlə tamamlamaq istəyirik: “Biz bundan sonra müzəffər xalq kimi yaşayacağıq. Biz 44 gün ərzində həm ərazi bütövlüyümüzü bərpa etdik, həm ədaləti bərpa etdik, həm milli ləyaqətimizi bərpa etdik. Bu gün, bax, bu gözəl Zəngilan torpağında həyat qururuq. Bax, həyat qayıdır – Zəngilana, başqa yerlərə, Şuşaya”.

***İ.QAÇAYEV,***
***“Xalq qəzeti”***

# TBMM-in nümayəndə heyəti Ulu öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib



**Azərbaycanda səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici əlaqələr komitəsinin sədri Fuat Oktayın rəhbərlik etdiyi nümayəndə heyəti iyulun 18-də Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib.**

Nümayəndə heyəti əvvəlcə Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə tər güllər düzüb.

Nümayəndə heyətinin üzvləri, həmçinin Şəhidlər xiyabanını ziyarət edərək ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər qoyub.

Daha sonra nümayəndə heyəti Şəhidlər xiyabanında 1918-ci ildə Bakının bolşevik-erməni daşnak qoşunlarından azad edilməsi uğrunda döyüşlərdə həlak olmuş qəhrəman türk əsgərlərinin xatirəsinə ucaldılmış “Türk şəhidliyi” abidəsini də ziyarət edib.

# QMİ-nin Qazılar Şurasının Məhərrəm ayının başlanması ilə əlaqədar müraciəti

**AMEA-nın Şamaxı Astrofizika Rəsədxanasının rəsmi hesablamalarına görə, Hicri-qəməri təqvimi ilə 1444-cü il başa çatır, yeni 1445-ci ilin başlanğıcı – Məhərrəm ayının 1-i Miladi təqvimlə 2023-cü il iyul ayının 19-na, Aşura günü isə iyul ayının 28-nə təsadüf edir.**

Bu barədə Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və səlahiyyətli nümayəndələrinin Məhərrəm ayının başlanması ilə əlaqədar dünənki müraciətində bildirilib.

Müraciətdə deyilir: “Qazılar Şurası olaraq dindarlarımıza xatırlatmaq istərdik ki, məhərrəmlik mərasimləri zamanı müxtəlif alətlərlə bədənə xəsarət yetirmək, qan çıxarmaq, qurşağadək soyunaraq sinə vurmaq və sair dinimizə görə qəbuledilməzdir. Həmçinin QMİ Qazılar Şurası yerlərdəki nümayəndələrinin nəzərinə çatdırır ki, “Dini etiqad azadlığı haqqında” Qanunun müddəalarına riayət edərək dini mərasimləri məscid, ziyarətgah və onlara aid ərazilərdə keçirsinlər. Azərbaycan qanunlarına əsasən, təziyə mərasimləri zamanı milli-mənəvi dəyərlərimizə və dövlətçilik ənənələrimizə xələl gətirən şüarların səsləndirilməsi, dövlət simvollarına uyğun olmayan atributların istifadəsi, küçə yürüşləri və ictimai asayişin pozulması icazəli deyildir. Özəlliklə, son zamanlar koronavirusun yenilənmə təhlükəsini nəzərə alaraq məhərrəmlik ayının ayinləri tibbi-profilaktik qaydalara uyğun olmalıdır”.

# Söyüdlü ilə bağlı kompleks təkliflər hazırlanıb

**Gədəbəy rayonunun Söyüdlü kəndinin ərazisində monitorinqlərin aparılması və mövcud vəziyyətin qiymətləndirilməsi məqsədilə ölkə Prezidentinin tapşırığı və Azərbaycan Respublikası Baş nazirinin 2023-cü il 21 iyun tarixli sərəncamı ilə yaradılmış Komissiya tərəfindən aparılan araşdırma və monitorinqlərin nəticələri əsasında mövcud vəziyyət təhlil edilib, sağlamlıq, təhlükəsizlik, ekoloji mühitin yaxşılaşdırılması ilə bağlı kompleks təkliflər hazırlanaraq Nazirlər Kabinetinə təqdim olunub.**

Bu barədə Gədəbəy rayonunun Söyüdlü kəndində monitorinqlərin aparılması və mövcud vəziyyətin qiymətləndirilməsi məqsədilə yaradılmış komissiyanın məlumatında bildirilib:

“Nəticələr göstərib ki, ərazidə fəaliyyət göstərən müəssisə tərəfindən təhlükəsizlik, ekoloji, sanitar qaydalarda pozuntulara yol verilib, istismar və tikinti prosesində müvafiq icra orqanlarının razılığı alınmayıb. Bu səbəbdən hazırlanmış təkliflər paketində müəssisənin fəaliyyətinin müvəqqəti dayandırılması haqqında qərar verilib.

Hazırlanan təkliflər planına beynəlxalq şirkətlərin iştirakı ilə ərazidə ekoloji auditin aparılması, tullantı anbarının reabilitasiya və rekultivasiya planının hazırlanması, mövcud tullantı anbarı və bəndinin dayanıqlılığının yoxlanılması, ətraf mühitin sağlamlaşdırılması tələblərinin tam olaraq yerinə yetirilməsi məsələləri daxil edilib.

Həmçinin istehsalatda müasir texnologiyaların tətbiqi şərtilə, şirkətin sonrakı fəaliyyətini davam etdirməsi də təkliflər planına əlavə olunub. Yerli icmalarla münasibətlərin yaxşılaşdırılması, Söyüdlü kəndində korporativ tibbi, sosial layihələrin həyata keçirilməsi də istismarçı şirkətin qarşısında qoyulan məsuliyyətlər sırasındadır.

Bu gün Gədəbəy rayonunda komissiyanın növbəti iclası keçirilib, istismarçı şirkətin nümayəndələri ilə görüş olub, sağlamlaşdırma proqramında əks olunan təkliflər paketi ətrafında müzakirələr aparılıb. Daha sonra kənd sakinləri ilə görüş təşkil edilib, onlara komissiyanın gördüyü işlər barədə məlumatlar verilib”.

***“Xalq qəzeti”***

# Neçirvan Bərzani Heydər Əliyev Mərkəzində və İçərişəhərdə olub



**İyulun 18-də Azərbaycana işgüzar səfəri çərçivəsində İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani Heydər Əliyev Mərkəzi ilə tanış olub.**

Mərkəzin direktorunun birinci müavini Fərqan Novruzov qonağa dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında məlumat verib.

Qeyd olunub ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və Ulu öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib. Mərkəzin həyata keçirdiyi layihələr Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin və digər milli sərvətlərinin beynəlxalq aləmdə təbliğinə, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın, ekologiyanın və iqtisadiyyatın müxtəlif sahələrinin dəstəklənməsinə və inkişafına xidmət edir.

***

Neçirvan Bərzaninin rəhbərlik etdiyi nümayəndə heyəti İçərişəhərlə də tanış olub.

Gəzinti zamanı qonaqlara UNESCO-nun Dünya Mədəni İrsi Siyahısına daxil edilmiş “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu, burada aparılan abadlaşdırma və bərpa işləri barədə məlumat verilib.

İçərişəhərlə tanışlıq iraqlı qonaqlarda xoş təəssürat yaradıb.

***

İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani iyulun 18-də Azərbaycana işgüzar səfərə gəlib. Səfər həmin gün başa çatıb.

Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzanini hava limanında Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov, digər rəsmi şəxslər qarşılayıb və yola salıblar.

***“Xalq qəzeti”***



Səfər təəssüratı

**... Mən 1978-ci ildə Qazaxıstanın Şevçenko (indiki Aktau) şəhərinə gedəndə atam demişdi ki, oraya vaxtilə sürgün edilmiş azərbaycanlılarla görüşməli olsan da, onların xatirələrinə, söhbətlərinə çox qulaq asma. Onlar dözülməz məşəqqətlər yaşayıblar, sənin isə ürək problemin var. Olan olub, keçən keçib. Bu, Stalin əzablarını yaşamış insanların canına hopmuş xatirələrə bələd olan fərdin dəhşətli düşüncələri idi.**

# Atırau – Turanın çay kənarındakı cazibədar şəhəri

İndi gedəndə isə oğlum Sadiq dedi ki, oraya sürgün edilmiş soydaşlarımızın hansınınsa məzarını ziyarət elə. Savabdır. Amma belə bir imkan olmadı. Çünki sürgün edilənlərimiz Qazaxıstanın sərt iqlimli ərazilərinə göndərilmişdilər ki, dözməyib qırılsınlar. Atırauda isə insanı belə ağır sınağa çəkəcək hansısa şərait yoxdur. Yeri gəlmişkən, orada olduğum günlərdə hərarətin 29 dərəcədən yuxarı qalxdığını görmədim.

... Sürgün olunanlar demişkən, o günahsız insanların xatirəsini ehtiramla anmaq borcumuzu daim yerinə yetirir, bəşər övladına çoxsaylı məşəqqətlər yaşatmış şər qüvvələri lənətləməklə kifayətlənirik. Çox təəssüf ki, həmin şər qüvvələr hələ də öz əməllərini davam etdirirlər. Atırau bu gün də o bəd əməllərin yaratdığı ekoloji böhranın içərisindədir. Bu barədə sonrakı yazılarda söz açacağıq. Nə yaxşı ki, bu gün dünya kifayət qədər fərqli istiqamətə doğru gedir.

... Hər şeydən əvvəl, mənim bu səfərimin uğurla başa çatmasına göstərdikləri dəstəyə görə Azərbaycanın Aktaudakı baş konsulu vəzifəsini icra edən (bu konsulluq dairəsinə Qazaxıstanın Mangistau, Atırau, Aktyübinsk və Qərbi Qazaxıstan vilayətləri daxildir.) Elçin Məmmədova, Atıraudakı "Novruz" Azərbaycan Milli-Mədəni Mərkəzinin rəhbəri Eldar Əhmədova, şəhər haqqında daha çox məlumat almağıma vasitəçi olmuş həmkarım, "Ak Jayık" qəzetinin əməkdaşı, hazırda başqa bir müəssisənin piar-meneceri kimi də fəaliyyət göstərən Zülfiyyə xanım İskaliyevaya təşəkkür edirəm.

Təbii ki, yazının əvvəlində Atırau şəhəri barədə bəzi məlumatları yada salmaq lazımdır. Qazaxıstanlı həmkarım danışdı ki, Rusiyanın Yaroslavl şəhərindən olan Quryev familiyalı bir tacir



1640-cı ildə bu ərazidə yaşayan Noqay xanına ağac evlərin tikilməsi üçün vəsait veribmiş. Bu istək yerinə yetirilib və ağac evlər şəhərinə tacirin adı verilib. 1991-ci ilə qədər Quryev adlandırılan bu şəhər həmişə özünün neft hasilatı və balıqçılıq təsərrüfatlarına görə diqqət mərkəzində olub. Burada istehsal olunan qara kürü SSRİ-nin hər yerinə göndərilirmiş. Təbii sərvətlərlə zəngin olan bütün şəhərlər kimi Atırau da həm çar dövründə, həm də sovet dönəmində hər cür inkişafdan geri qalırmış.

Qazaxıstanın Atırau vilayətinin mərkəzi olan bu şəhər son otuz ildə bütün tarixi boyu qazana bilmədiyi inkişaf səviyyəsinin beş-on qatına nail olub. Burada davam edən tikinti-quruculuq işləri baxanı heyran edir. Bunun da əsas səbəbi əcnəbi şirkətlərin və iş adamlarının maneəsiz fəaliyyətinə zəmin yaradılmasıdır. Dünyanın məşhur şirkətlərinin böyük əksəriyyəti haqqında müəyyən qədər məlumatım var. Atıraunun müasirləşməsi, nkişafı sahəsində onların gördüyü işlərin şahidinə çevrildim. Həmin üç-dörd gündə, bəlkə də, əlli-altmış ölkənin təmsilçiləri ilə rastlaşdıq.

Burada Qızıl Orda dövründə yaranmış, qədim şəhər ənənələrinin nümunəsi kimi qorunan Sarayçik memorial-kompleksi, Təbaşir dövrünün əlamətlərini yaşadan ağappaq qayalar, ağ mağaralar,




Ağ məscid, vilayət tarix-diyarşünaslıq muzeyi, ötən əsrin əvvəlində Araltəpə ərazisindəki kurqanda aşkar edilmiş – eramızdan əvvəllərə aid "qızıl insan"ın qalıqları və digər maraqlı məkanlarla görüşmək mümkündür. Bütün bunlarla yanaşı, Atıraunu qurub yaradanların son onilliklərdə ərsəyə gətirdikləri "görməli yerlər" də, sözün həqiqi mənasında, heyranedicidir.

Ötən yazıda qeyd etmişdik ki, Ural (Ak Jayık) çayı Avrasiyanı iki qitəyə bölür. İndi isə əlavə edirik ki, bu çay, həm də Atıraunun iki qitənin ərazisində olduğunu sübut edir. Çayın üzərində 6 avtomobil, bir dəmir yolu və bir piyada körpüsü var. Yerli sakinlərdən biri ilə söhbətdə dedim ki, mən qısa müddətdə dörd avtomobil və bir piyada körpüsünün üstündən keçən qonaq kimi rekord qazandım.



Həmsöhbətim əlavə etdi ki, həmin körpü ən uzun piyada keçidlərindən biri kimi Ginnesin rekordlar kitabına düşüb. Yəni onlarca belə ünvan var və Qazaxıstanın müstəqillik qazanmasından sonra Atırauda ərsəyə gələn görməli yerləri saymaqla qurtaran deyil.

Mən isə Azərbaycanla bağlı ünvanlara üstünlük verdim. Bizim mətbuatda Atıraudakı "Novruz" Azərbaycan Milli-Mədəni Mərkəzi və orada keçirilən tədbirlər barədə çox yazılıb. Odur ki, həmin mərkəzi görmək səfər planımın mühüm istiqamətlərindən idi. Getdim və gördüm. Mərkəzinin rəhbəri Eldar Əhmədov, sözün həqiqi mənasında, əsl azərbaycançıdır. Onun ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyası və Prezident İlham Əliyevin Azərbaycanı bütün dünyanın diqqət mərkəzinə çıxarması barədə söylədiyi fikirləri qəzetimizin növbəti saylarından birində oxuculara təqdim edəcəyik.

"Novruz" Azərbaycan Milli-Mədəni Mərkəzi çoxprofilli, 50-dən artıq ixtisas üzrə təhsil verən Xalel Dosmuxammedov adına Atırau Dövlət Universitetinin iqtisadiyyat və hüquq fakültələri Korpusunda fəaliyyət göstərir. Orada Azərbaycan – Qazaxıstan əməkdaşlığının və qardaşlığının tarixi, bu günü və gələcəyini özündə ehtiva edən çoxsaylı tədbirlər keçirilib. Həmin tədbirlərin əksəriyyətində universitet rəhbərliyi ilə yanaşı, Qazaxıstandakı səfirimiz və Aktaudakı konsulumuzla yanaşı, Türkiyə diplomatları, Qazaxıstan rəsmiləri və yerli ziyalılar da iştirak edirlər.

Burada təkcə ulu öndərin 100 illiyi münasibətilə deyil, ümumiyyətlə, Heydər Əliyevin anadan olmasının ildönümləri ilə bağlı müxtəlif tədbirlər keçirilməsi ənənəsi formalaşdırılıb. Bundan başqa, milli və dini bayramlarda, eləcə də, əlamətdar günlərdə "Novruz" cəmiyyəti Atırauda və bu vilayətin digər şəhərlərində yaşayan soydaşlarımızın yanında olur. Fikrimcə, həmin mərkəzin çoxsayl qonaqları sırasına "Xalq qəzeti" əməkdaşının adının yazılması da qənaətbəxş haldır.

... Çörəyim qələmdən çıxsa da, ürəyim mədəniyyətdən, incəsənətdən "çıxa bilmir", daha doğrusu, ayrıla bilmir. Ona görə də oteldə yerləşəndən dərhal sonra ilk üz tutduğum ünvan Maxambet Utemisov adına Vilayət Akademik Qazax Dövlət Dram Teatrı oldu. Təəssüf ki, iş günü və teatr mövsümü olmadığına görə rəhbərlikdən və ya yaradıcı heyətdən kiminləsə görüşə bilmədim. Daha bir dəfə getməyə isə vaxt yox idi. Sadə işçilərdən biri mənim Azərbaycandan olduğumu biləndə fəxrlə dedi ki, bizim teatrda sizin Üzeyir Hacıbəyovun "Arşın mal alan" əsəri oynanılanda həmişə anşlaq olurdu: " O, yaxşı bəstəkar və Azərbaycanın dərd-sərini dərindən bilən vətəndaş olub. Allaha şükür ki, türkdilli ölkələrdə belə adamlar az deyil".

Teatrda hansı vəzifəni yerinə yetirdiyini deməyən (əslində, mən də israr etmədim), özünü "prostoy sotrudnik" adlandıran bu həmsöhbətin Azərbaycanın görkəmli yaradıcı ziyalısı haqqında belə danışması, üstəlik, onu türkdilli ölkələrin təmsilçilərindən adlandırması, sözün həqiqi mənasında, qeyrət nümunəsi idi. Qeyrətdən söz düşmüşkən, öyrəndim ki, 1938-ci ildən fəaliyyət göstərən bu teatrın dövlət mükafatı almış və fəxri adlarla təltif olunbmuş əməkdaşları arasında on nəfər "Mədəniyyət qeyrətkarı" ("Мәдениет қайраткері") döş nişanına layiq görülüb.




Həmsöhbətim mənim həm teatrın möhtəşəm binası önündə, həm də binanın qarşısındakı meydanda qazax xalqının görkəmli ədəbiyyat və mədəniyyət xadimlərinin xatirəsinə ucaldılan heykəllər kompleksinin arasında foto şəklimi çəkdi. Amma onun sonda dediyi ifadə Bakıda işlədilsə, qətiyyən müsbət qarşılanmazdı. Mən sağollaşıb ayrılanda dedi: "Azərbaycana rəhmətlər olsun!". Yəni salamlar olsun.

Növbəti ünvanı görmək də əsas məqsədlərimdən idi. Buradakı "İsatay və Maxambet meydanı" haqqında çoxdan eşitmişdim. Ona görə də teatr binasından ayrılan kimi birbaşa oraya getdim. İlk salamlaşdığım İkbal adlı cavan oğlan mənə bələdçilik etdi. Xalel Dosmuxammedov adına Atırau Dövlət Universitetinin məzunu idi. Onun həm insan kimi rəftarı, həm də öz millətinin tarixini, mədəniyyətini sevərək təbliğ etməsi bir vətəndaşlıq nümunəsi, türk əxlaqı idi. Danışdı ki, xalq qəhrəmanları olan İsatay Taymanov və Maxambet Utemisov 1836-1838-ci illərdə Qərbi Qazaxıstanda kasıbların üsyanına rəhbərlik etmiş liderlər idi. Onlar xəncər və qılınclarla vuruşsalar da, top-tüfənglə silahlanmış rus ordusu ilə döyüşlərdə dəfələrlə qalib gəlmişdilər. Bu xalq qəhrəmanları qazax xalqının dönməzliyini və birliyini sübut edən çoxsaylı əməliyyatlara imza atmışdılar. Ancaq çar ordusu sadə, köçəri qazax xalqını bu yerlərdən qovmaq istəyindən əl çəkmirdi.

İkbal danışdı ki, İsatay və Muxambetin özlərindən dəfələrlə güclü olan orduya qalib gəlməsinin çox səbəbləri var idi. Həmin səbəblərdən biri də onların öz döyüşçülərinə Quranın surələrini yerinə yetirərək işğalçıya qarşı çıxdıqlarını sübut etmələri idi. Onu da əlavə etdi ki, şair Maxambet Utemisov üsyana qədərki dövrdə Cahangir xanın sarayında xidmət edirdi. Mən də əlavə etdim ki, Atırauda məskunlaşdığım otel məhz Cahangir xanın adını daşıyan küçədə idi.

Bu gün İsatay Taymanov və Maxambet Utemisovun xatirələri bütün Qazaxıstanda hörmətlə anılır və ehtiramla yad edilirlər. Onların adına parklar, küçələr salınıb, abidələri ucaldılıb. UNESCO 2003-cü ili şair Maxambet Utemisovun 200 illik yubileyi münasibətilə "Maxambet ili" elan etmişdi. Həmin il məhz mənim bu fotoda qarşısında dayandığım abidə ucaldılmışdı.

Həmin gün baş çəkdiyim başqa bir ünvan isə dini dəyərlərimizlə bağlı idi. Vilayətin baş ibadət yeri olan İmanqali məscidi Atıraunun gözəlliyinə həqiqi bir memarlıq naxışı vurur. Şəhərin tam mərkəzindəki məscidin hər iki tərəfində ucaldılan 26 metr hündürlüyə, yeddi metr diametrə malik cazibədar minarələri şəhərin müxtəlif yerlərindən görünür. Burada eyni vaxtda 600 adam namaz qıla bilir. Qadınlar üçün 100 yerlik kiçik zal var. Sakinlərin fikrincə, Atırauya gələn qonaqların ən çox üz tutduğu ünvanlardan biri də buradır. Diqqətçəkən əsas məqamlardan biri də İmanqali məscidinin həndəvərində üç kilsənin olmasıdır. Bağdad, Tehran, Təbriz və Urmiyadan fərqli olaraq, burada erməni kilsəsi görmədim. O da maraqlı oldu ki, bu ünvanda mənim fotomu öz telefonumla hansısa qazax yox, səmərqəndli Sədrəddin müəllim çəkdi.

İkinci yazının sonunda xatırladım ki, mən Atırauya xüsusi tapşırıq və ya ezamiyyə ilə deyil, şəxsi səfərə getdiyimə görə, rəsmi qurumların heç biri ilə əlaqə saxlamadım. Ancaq buna baxmayaraq, səfər təəssüratlarım böyükdür və onların bəzilərini qəzetimizin növbəti saylarında oxuculara təqdim edəcəyik.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti",***

***Qazaxıstan, Atırau şəhəri***

# "Taxıl sazişi"nin bərpası imkanları müzakirə edilir

## *Başqa çıxış yolları da axtarılır*

**Ukrayna Prezidenti Volodimir Zelenski deyib ki, o, BMT-nin Baş katibi Antonio Quterreşlə telefonla danışıb və taxıl sazişinin bərpası məsələsini müzakirə edib: "Qara dəniz taxıl təşəbbüsü qorunmalıdır. Biz cənab Quterreşlə Qara dənizdəki marşrutlar vasitəsilə ərzaq təhlükəsizliyini və ərzaq təchizatını bərpa etmək üçün birlikdə və məsul dövlətlərlə işləmək barədə razılığa gəldik".**

Ukrayna lideri daha əvvəl bildirmişdi ki, Quterreş və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana "Taxıl sazişi"ni və ya onun alternativini Rusiya Federasiyasının iştirakı olmadan üçtərəfli formatda davam etdirilməsi təklifi ilə rəsmi mesajlar göndərib. O deyib: "Bizim iki razılaşmamız vardı: Ukrayna, Türkiyə, BMT; digər razılaşma isə Rusiya, Türkiyə, BMT-dir. Ona görə də Rusiya iştirakını dayandırdığını deyəndə BMT-nin Baş katibi Quterreş və Prezident Ərdoğanla razılaşmalarını pozur, bizimlə yox. Rusiya ilə bizim heç bir razılaşmamız olmayıb.

... Rusiyanın iştirakı olmadan belə, hər şey edilməlidir ki, Ukrayna Qara dəniz dəhlizindən istifadə edə bilsin".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Körfəz səfərində çıxışında taxıl dəhlizi prosesinə toxunub: "Rusiya ilə Ukrayna arasındakı müharibənin daha çox dağıntılara və göz yaşlarına səbəb olmaması üçün böyük səylər göstəririk. İlk gündən deyirik ki, müharibənin qalibi, sülhün uduzanı olmaz

Qara dəniz təşəbbüsü sayəsində dünya bazarlarına 33 milyon tondan çox taxıl məhsulları göndərilib. Beləliklə, bir çox kasıb ölkələrin ərzaq böhranı yaşamasının qarşısı alındı. Biz Qara dəniz təşəbbüsünün davam etdirilməsinə verdiyimiz əhəmiyyəti müxtəlif vəsilələrlə ifadə etdik. Son günlərdə diplomatik səylərimizi gücləndirdik. İnanıram ki, dostum Putin bu humanitar körpünün davam etməsini istəyir.

Mən səfərimdən qayıdan kimi cənab Putinlə görüşəcəyəm. Avqust ayında onunla ölkəmizdə görüşəndə bütün bu məsələləri müzakirə edəcəyik. Rusiya taxılının və gübrəsinin daşınmasına yol açmaq üçün necə hərəkət edə biləcəyimizi də məsləhətləşəcəyik".

ABŞ Dövlət katibi Entoni Blinken də "Taxıl sazişi"nə toxunub: "Kollektiv



Qərb və Kiyev Qara Dəniz Taxıl Təşəbbüsünün dayandırılması kontekstində Ukraynadan ərzaq ixracı imkanlarını nəzərdən keçirəcək. Biz baxacağıq ki, Ukraynanın kənd təsərrüfatı məhsullarını dünya bazarına çıxarmağın başqa yollarını tapmaq üçün daha nələr etmək olar. Lazımi həcmdə yüklərin dəmir yolu və avtomobil yolu ilə daşınması da buraya daxildir".

Eyni zamanda o, Rusiyanın tutduğu mövqeyə görə belə planların həyata keçirilməsinin çətin olacağını etiraf edib: "Rusiyanın taxıl sazişindən çıxmaq qərarı alternativ yolların axtarışına mənfi təsir göstərə bilər, çünki Moskva Ukraynadan hər hansı ixracın əleyhinə olarsa, digər ölkələr və şirkətlər gəmilərinin və işçilərinin başına nə gələcəyindən çox narahat olacaqlar".

Daha sonra Blinken verdiyi açıqlamada, ABŞ administrasiyasının Rusiya hökumətini dərhal sazişə yenidən nəzərdən keçirməyə, danışıqları bərpa etməyə, taxıl müqaviləsinin müddəalarını uzatmağa, genişləndirməyə və tam şəkildə həyata keçirməyə çağırdığını bildirib.

Xatırladaq ki, iyulun 17-də Moskva Ankaraya, Kiyevə və BMT-yə taxıl sazişinin uzadılması ilə bağlı etirazını göndərib. RF XİN bəyan edib ki, Kreml taxıl sazişinin bərpası məsələsini yalnız razılaşmanın Rusiyaya aid hissəsi reallaşacağı halda nəzərdən keçirə bilər.

***P. ƏFƏNDİ,***
***"Xalq qəzeti"***

“XalqTV”nin qonaqları

# “Sabah” sənətin sabahına yeni qapı açıb

## Bu yolun bələdçisi Xalq artisti, rejissor Ramiz Həsənoğludur

**Artıq bir neçə aydır ki, “Xalq qəzeti”nin “XalqTV” studiyası fəaliyyət göstərir. Görkəmli elm, mədəniyyət xadimlərimiz, milli məfkurə daşıyıcılarımız və xaricdən ölkəmizə gəlmiş ünlü soydaşlarımız studiyamızda qonaq olurlar. Onlar əməkdaşlarımıza çalışdıqları sahələrin, həyatımızın bu və ya digər sferasının uğur və problemləri ilə bağlı müsahibələr verirlər. Həmin görüşlər redaksiyamızın saytında və “YouTube” videohostinq serverində yerləşdirilir. Həmin söhbətləri “XalqTV”nin qonaqları” rubrikası ilə oxucularmızın da diqqətinə çatdırırıq. Qonağımız “Sabah” Yaradıcılıq Studiyasının direktoru, görkəmli teatr, kino, televiziya rejissoru, Xalq artisti Ramiz Həsənoğludur.**

***– Ramiz müəllim, bildiyimiz kimi, bu il Azərbaycan kinosunun 125, milli kino studiyamızın 100 illik yubileyləri ilə bərabər, həm də “Sabah” Yaradıcılıq Birliyinin 30 yaşı tamam olur. Bu yubileylər atmosferində hansı hissləri keçirirsiniz?***

– Fərəh və məsuliyyət hissləri bir-birinə qarışıb. Çünki işimiz, sənətimiz elədir ki, tərəf-müqabillə, tamaşaçı ilə üz-üzəyik və onun bizdən gözlədiklərini həyata keçiririk. “Sabah” Yaradıcılıq Birliyi 30 il bundan əvvəl yaz aylarında yaranıb, indi artıq studiya adlanır.

***– Birlik hansı zərurətdən yarandı? İlk addımları uğurlu oldumu?***

– “Sabah”ın təşkilinin səbəblərindən biri o idi ki, artıq köhnə sistem dağılmışdı, şablon meyarlar aradan götürülmüşdü, yanaşmalar dəyişmişdi. Tutaq ki, əski dövrlərdə, sovet dönəmində hansısa bir işi görəndə çətinlik çəkmirdinsə, bu mərhələdə biz bir növ kapitalizm formasiyasının bütün “gözəlliklərini” görməyə başladıq. Mən hiss etdim ki, həmfikirləri, məsləkdaşları bir yerə toplamağa ehtiyac var. Çəkici ahəngdar şəkildə eyni zindana vura biləcək “güc”ləri birləşdirmək lazımdır. Odur ki, ssenarist, rejissor, kinooperator, rəssam, bəstəkar – fərqi yoxdur – bir dam altında cəmləşdik.

İlk vaxtlar “Sabah” yaradıcılıq birliyi yox, adi tamaşa birliyi adı altında fəaliyyət göstərirdik. Birinci işimiz Cəlil Məmmədquluzadənin “Kamança”sı oldu. Uğurlu alındı. Üstündən bir il keçdi, yeni ad da tapdıq. AzTV sədrinin müavini, rəhmətlik Nahid Hacızadə birliyimizi “Sabah” eksperimental yaradıcılıq emalatxanası adlandırmağı təklif etdi. Həmin ad altında isə ilk rəsmi işimiz “Ac həriflər” film-tamaşası oldu. Ondan sonra bizim məhsuldar fəaliyyətimiz başlandı. “Sabah”ın ən intensiv dövrləri 1993-cü ildən sonraya təsadüf etdi. Təssəvür edin ki, təxminən 3 il ərzində hər ay yeni əsər verirdik.

***– Yadımdadır, o vaxt mən də AzTV-də çalışırdım, axtarışlarınızın, əziyyətlərinizin və uğurlarınızın şahidiyəm.***

– Bəli, çətin idi. Təşkilati işlər çox vaxt aparırdı. Hətta rejissorluğu bir kənara qoyub, prodüserliklə, təşkilatçılıqla məşğul olduğumu görən dostum Cavanşir Quliyev bir gün mənə dedi: “Ay Ramiz, sən rejissorsan, tamaşa hazırlamalısan, amma özünü vermisən təşkilati işlərə. Bunun axırı necə olacaq?”. Cavab verdim ki, düz deyirsən, ancaq mən hələlik istedadlar üçün meydan yaradıram, sonra yaxşı olacaq. Sənət isə yalnız meydan və rəqabət olan yerdə qabağa gedə bilər. Və zaman göstərdi ki, mən haqlıyam.

***– Dediniz ki, tutduğu vəzifəsindən asılı olmayaraq, sadəcə, ruhən bizə yaxın olan adamları bir yerə yığırdıq. O vaxt mənim işlədiyim idman proqramları redaksiyasında bir rejissor işləyirdi – Şərif Qurbanəliyev. Bir də gördük ki, Şərif də sizin dəstədədir.***

– Bəli, Şərif də gəldi bizim dəstəyə. Mənimlə birlikdə “Ac həriflər”in ssenari müəllifi oldu. Sonra “Yurd yeri”, “Bala – başa bəla”, “Yarımştat” və sair yaddaqalan işləri oldu. Şərifin maraqlı quruluşları çoxdur.

***– Yaradıcılıqda kiçicik işıq ucu göründümü, siz o “lağım”ı qayğı ilə böyütmüsünüz ki, bu nur geniş tamaşaçı kütləsinə çatsın. Özünüz də zəngin yaradıcılıq yolunuzla daim nümunə olmusunuz. Filmotekanızda 200-dən çox film var. Sonrakı nəsillər “Nekroloq”, “Fatehlərin Divanı”, “Yaşıl eynəkli adam” kimi tamaşalara baxa-baxa zövqünü inkişaf etdirib. “Topal Teymur”, “Günahsız Abdulla”, “Evləri köndələn yar”... saymaqla bitən deyil.***

– Təşəkkürlər!

***– Ramiz müəllim, 3 il bundan qabaq Vətən müharibəsi oldu, qalib gəldik, Qarabağı və Şərqi Zəngəzuru azad etdik. O mövzu “Sabah”ın proqramında öz əksini tapırmı? Və yaxud tapacaq hələ?***

– Heç şübhəsiz, bu, müqəddəs mövzudur. Elə mövzular var ki, onlara dərhal reaksiya vermək düzgün deyil. Yəni, söhbət bizim çalışdığımız janrdan – bədii quruluşdan gedir. Vətən müharibəsində göstərilən igidlik və şücaətlə bağlı çoxlu proqramlar, sənədli filmlər hazırlanıb və hazırlanacaq. Amma bu mövzuda, bədii quruluşda işlər hələ qabaqdadır.

Yeri gəlmişkən, bir misal çəkim. Vaxtilə “Sabah”da özünə “pasport” qazanmış Elxan Cəfərov illər sonra kinostudiyada rejissor kimi yaddaqalan bir film çəkdi. Bu, Aqil Abbasın ssenarisi əsasında çəkilmiş “Dolu” filmidir. Baxın, həmin film çəkiləndə o hadisələrin üstündən nə qədər vaxt keçmişdi? Təxminən, 20 il. Mən indi burada özümüzə haqq qazandırmıram, amma mənə elə gəlir ki, Silahlı Qüvvələrimizin rəşadətinin, şəhidlərimizin misilsiz qəhrəmanlığının daha parlaq şəkildə çəkiləcəyi günlər gəlib çıxacaq. Vətən müharibəsinin ən güclü ssenarisi hələ yazılır, o rejissor da bəlkə hələ xəbərsizdir ki, həmin yola doğru gedir.

***– Əlbəttə, tələm-tələsik iş görmək olmaz. Təhlillər, təsvirlər, tərənnümlər zamanın süzgəcindən keçməlidir. O demək deyil ki, bu gün hadisə baş verdisə, sabah onun filmi çəkilməlidir. Bəlkə də bundan ötrü illər tələb olunur. Bütün dünyada belədir. Amma sizdə “Ocaq yeri” bədii filmi, “Yağlı boya ilə ailə portreti” televiziya filmi də var.***



– Təbii ki, bu mövzuda maraqlı işlər az deyil. Onlardan biri elə sizin də vurğuladığınız – Sirac Mustafayevin öz ssenarisi əsasında quruluş verdiyi “Ocaq yeri”dir. O film çəkilən vaxt mən “Sabah”dan müvəqqəti ayrılıb “Azərbaycantelefilm” yaradıcılıq birliyinə getmişdim və iki il orada çalışandan sonra geri qayıdası oldum. “Ocaq yeri” də həmin aralığın məhsuludur. Təbii ki, “Sabah”da bu mövzuda işlər görülüb və görülməkdədir.

***– Ramiz müəllim, sizin maraqlı ideyalarınız həmişə olub və özünü doğruldub. Silsilə verilişlər, filmlər, xatirə muzeyləri... “Yad et məni” ideyası da sizə məxsusdur. Bu barədə nə deyə bilərsiniz?***

– Bilirsiniz, “Sabah” bədii quruluşlar üzrə yaranıb və bu yöndə fəaliyyət göstərir. Bu mürəkkkəb zamanda, bir çox təşkilati, texniki, maliyə çətinlikləri şəraitində belə layihələri həyata keçirmək o qədər də asan deyil. Biz əməkdaşlarla birlikdə studiyada oturub fikirləşdik ki, hansı istiqamətdə işlər görək ki, müsbət nəticələr qazanaq. Daha doğrusu, inkişafdan qalmayaq, formada olaq. Əvvəllər pavilyonda dekarasiyalar qurulurdu və lazım olan səhnələr çəkilirdi. Əksər tarixi əsərlərdə, elə komediyalarda da elə olub. “Topal Teymur”, “Ordan-burdan”, “Qatarda” – bunlar hamısı pavilyonda çəkilib. İndi o imkan yoxdur.

Düşündük ki, pavilyon əvəzi Bakıdakı muzeyləri məkan seçək. O müzeylərin adını daşıdığı böyük şəxsiyyətlərin həyatına işıq salaq. Beləcə, birinci işimizi Nəriman Nərimanovdan başladıq. Ondan üzübəri 10 işimiz olub, sonuncusu, səhv etmirəmsə, Yusif Vəzir Çəmənzəminli idi. Bu layihələrdə “Sabah”ın müxtəlif rejissorları iş görüb. Sirac Mustafayev, Namiq Ağayev, gənc rejissor Ramina və başqaları. Fikirimiz var ki, digər rejissorları da dəvət edək, çünki “Sabah” bu məqsədlə yaranıb: sabaha istiqamətlənmiş istedadları bir yerə toplamaq. Bu işlər həm də maarifləndirmə xarakteri daşıyır.

***– Sənədli-bədii filmlərin çəkilişi aktyorlar, rejissorlar üçün daha çətindir. Çünki konkret bir tarixi şəxsiyyətdən bəhs edir, gərək onun konkret obrazı canlana, zahiri bənzəyiş ola və sair...***

– Elədir, iki istiqamətin çulğalaşması tələb olunur, burada konkret fakt və təxəyyül birləşir. Bunlar bir-birini tamamlayanda uğur qazanılır. Tamaşaçıya da tarixi şəxsiyyətlərin filmdə necə inikası maraqlıdır. Yaradıcı kollektiv çiyinlərini məhz bu çətinliyin altına verəndə fədakar olur.

***– Ramiz müəllim, siz böyük sənətkarlarımız – Əməkdar mədəniyyət işçisi Həsənağa Mirzəyevlə unudulmaz teatr və kino aktrisası, Əməkdar artist Ətayə Əliyevanın övladı və sənət davamçısısınız. Sizin sənətkarlığınızın bir qaynağı da ailə ocağıdır. Belə mühitdən kənarda böyümüş, amma bu sahəni seçən, sevən gənclərə nə tövsiyə edərdiniz?***

– Heç kəs anadangəlmə peşəkar olmur. Sənət addım-addım, pillə-pillə yol getməkdir, bilikləri toplamaq, daxilən zənginləşməkdir, zövqun püxtələşməsidir. Budur sənətin yolu. Heç şübhəsiz, mütaliə və dünyagörüşünü artırmaq da şərtdir. Sənətkarlarla ünisiyyət, lazım olan filmlərə baxmaq, kitabları oxumaq, lazım olmayanlardan qaçmaq vacib şərtlərdir. Mənim sənətə gəlməyimdə, təbii ki, ailəmin, valideynlərimin təsiri olub, amma ustadlarımın rolu danılmazdır. Bunlar vaxtilə Azərbaycan televiziyasının rejissurasının əsasını qoyan insanlar – Arif Babayev, Rauf Kazımovski, Ağaəli Dadaşov, Kamil Rüstəmbəyov olublar. Gənclər ustad sənətkarlardan daim öyrənməyə can atsalar, yaxşı olar.

***– Ustad sənətkarlar dediniz, yada düşdü ki, sizin uğurlu işlərinizdən biri də “Ustad sözüdür”. Həmin layihədə “Sabah”ın öz dəsti-xətti var, təbii ki, sizin şəxsinizdə. “Ustad sözü”ndə görkəmli sənətkarlar – rejissorlar, bəstəkarlar, yazıçılar, müğənnilər, heykəltəraşlar öz sənət və həyat təcrübələrini bölüşürlər. Sizin bu sualıma verdiyiniz cavab da bu sənətə gəlmək istəyənlərə öyüd, nəsihət baxımından yerinə düşdü... Qarşıda tamaşaçılar üçün nə kimi töhfələr hazırlayırsınız?***

– Vaxtı ilə biz “Sabah” yaradıcılıq birliyində “Fatehlərin divanını” səhnəyə qoymuşduq. Çox böyük layihə idi. O davam etməli, bəlkə də bu günlərədək gəlib çıxmalı idi. Lakin biz onun 4 seriyasını çəkəndən sonra o vaxtkı rəhbərlik mane oldu, imkan vermədilər bu işi davam etdirək. Amma illər keçdi, bu layihə yeni rəhbərliyin diqqətini cəlb etdi və mənə “Fatehlərin divanı”nın davamının çəkilməsi ilə bağlı təklif gəldi. Təbii ki, yeni zamana, hazırkı dövrə uyğun. Azərbaycanın hazırkı gündəmindən çıxış edərək həm siyasi, həm də tarixi yanaşma ilə “Fatehlərin divanı”nın davamını çəkməyi düşünürük. Bu yaxınlarda çəkilişlərə başlamalıyıq. XX əsrin əvvəllərində Azərbaycanda baş verən inqilabi, ictimai-siyasi dəyişikliklər, taleyüklü böyük hadisələr və dövrə aid fərqli düşüncələri nümayiş etdirəcəyik. Əslində, bugünün mənzərəsi məhz oradan başlayır. Vaxtında görülən doğru işlər, buraxılan səhvlər layihədə öz əksini tapacaq. 1918–1920-ci illərdə Azərbaycanda cərəyan edən hadisələr əsas mövzü olacaq. Ola bilsin ki, 2 hissədən ibarət 4 seriyalı bir iş olsun (müəllif İlqar Fəhmidir). Orada Qərbi Azərbaycan motivi də var. Ermənilərin Qərbi Azərbaycanda məskunlaşdırılması, sonradan İrəvan şəhərinin Ermənistana verilməsi, onların orada respublika yaratması və s.

Janr müxtəlifliyi baxımından başqa layihələrimiz də var. Onlardan biri Kamal Abdullanın “Əsgərağa və Gülçöhrə” əsərinin ekranlaşdırılması olacaq. Burada Üzeyir Hacıbəyovun “Arşın mal alan” əsərinin qəhrəmanlarının sonrakı həyatından bəhs edilir. Artıq kastinq bitib, hazırlıq gedir. İnşallah, yanvar ayından onun da çəkilişləri başlanacaq.

Digər layihəmiz isə silsilə yumoristik proqramlar olacaq. Şərti adı “Ordan-burdan”dır. Sevilən personajlar, vaxtı ilə teleməkanda görünən, müxtəlif əsərlərdə yer alan obrazları canlandırmış aktyorların ifasında onların yenidən canlandırılması ilə bağlı bir iş görülür. Orada da hazırlıq prosesləri tamamlanmaqdadır və sentyabrdan çəkilişlərə başlayacağıq.

Bundan əlavə, yeni filmlər üzərində də işləyirik, artıq 3 istiqamətdə razılıq əldə etmişik. Nədir bu filmlər? – Azərbaycanda sevilən aktyorların ifalarında kiçik filmlər. Orada Rasim Balayev, Məbud Məhərrəmov, Cəfər Namiq Kamal, İlham Namiq Kamal var. Bunlar potensialı tükənməyən, içləri dolu yaradıcı insanlardır. Ssenarilərin bəziləri artıq yazılıb.

**– Maraqlı müsahibə üçün təşəkkür edir, sizə yeni uğurlar diləyirik. “Sabah”dan yeni sabahlarda sənət yenilikləri gözləyirik.**

***Söhbəti apardı:***
***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***

Yeni mədəni xidmət

**Cəmiyyətin inkişafında ən mühüm yeri təhsil, maarifləndirmə tutur. Buna görə də ölkəmizdə mədəni yüksəlişə xüsusi önəm verilir, insanların mütaliəyə marağını artırmaq üçün yollar axtarılır. Yeni layihələrdən biri də “Açıq kitabxana”dır.**

# “Mən oxudum, sən də oxu”

Yolunuz Rəşid Behbudov küçəsinə düşsə, mütləq Milli Kitabxananın bağçasında yerləşən “Açıq kitabxana”ya da baş çəkin. Siz də diqqətini kitabdan ayırmayan fərqli yaşlarda oxucuların, sakitcə dərslərini hazırlayan tələbə və şagirdlərin əhatəsində, açıq havada kitab oxuyub mənəvi istirahət edin. Dörd tərəfi kitab dolu rəflərlə əhatə olunmuş bağçada təklif olunan bütün kitabları heç bir qeydiyyatdan keçmədən alıb oxumaq mümkündür.

...Şəhərin səs-küyünün, sanki, eşidilmədiyi bu məkana nəzər yetirməyə yeni başlamışdım ki, kitabxananın əməkdaşı Ayşən Abdullayeva yaxınlaşaraq “Kömək lazımdırmı?”, – deyə soruşdu. Sonra kitabxana barədə məlumat verməyə başladı. Qeyd etdi ki, 2016-cı ildən fəaliyyətə başlayan bu açıq qiraət guşəsi hər gün sakinlərin xidmətindədir. Kitabxanaçıların iş saatı 18:00-da bitsə də, sonrakı saatlarda oxucular mühafizəçilərə müraciət edərək istədikləri kitablara baxa bilərlər.






Kitabxanada “Uşaq guşəsi”, “Mən oxudum, sən də oxu”, “Dövri mətbuat”, “Milli musiqi” və “Elektron Kitab Köşkü” guşələri yaradılaraq oxucuların istifadəsinə verilib. Azyaşlılar üçün nəzərdə tutulmuş guşədə yerli və xarici müəlliflərin nağılları, müxtəlif hekayələr və s. uşaq kitabları təqdim olunur. “Dövri mətbuat” guşəsində gündəlik və həftəlik qəzet və jurnalların yeni nömrələri təqdim olunur. Satış üçün nəzərdə tutulmuş kitablar isə “Elektron kitab köşkü”nə yerləşdirilib. Oxucular günün istənilən saatında əldə etmək istədikləri kitabların altındakı kodu yazıb, ödəniş edərək ala bilərlər.

Bütün bunların içində mənim ən çox diqqətimi çəkən “Mən oxudum, sən də oxu” guşəsi oldu. Əsasən, oxucuların bağışladığı kitablardan yaradılan bu guşə, mütaliə sevənlərə oxuduqları kitabı başqa biri ilə dəyişmək imkanı da verir.

Ayşən Abdullayeva vurğuladı ki, kitabların dəyişdirilməsində əsas şərt yazıldığı əlifba və dilin eyni olmasıdır. “Nadir hallarda, bəzi oxucular az səhifəli kitabları həcimcə dəfələrlə böyüyünə dəyişmək istəyirlər. Belə olduqda onların istəyi yerinə yetirilməyə bilər. Digər hallarda kitablar dəyişdirilir”.

Söhbət zamanı bir oxucu kitab dəyişmək üçün müraciət etdi. Orxan Məmmədov idi, Aqata Kristinin “Vadi” kitabını dəyişmək istəyirdi. “Açıq kitabxana” ideyası haqqında fikirlərini soruşduqda isə burada əlavə xərc çəkmədən yeni kitablar oxuya bildiyini dedi, layihənin təşkilatçılarına minnətdarlığını bildirdi.

Digər oxucu Sevinc Əliyeva isə fikrini qısaca ifadə etdi:

– Bura bəzən kitab oxumağa, bəzən də dərs hazırlamağa gəlirəm. Şəhərdə belə məkanların sayı çox olsa, daha yaxşı olar.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının (AMK) nəzdində yaradılan “Açıq Kitabxana”da oxucular üçün hər bir şərait yaradılıb, təmənnasız xidmət göstərilir. Kitabxanada AMK-nın elektron kataloqundan, elektron kitabxanasından və digər elektron mənbələrdən oxucuların istifadəsi üçün kompüter avadanlığı və “Wi-Fi” şəbəkəsi quraşdırılıb.

Qənaətimiz budur ki, belə xidmət guşələrini artırmaqla oxucularla kitablar arasında məsafəni qısaltmaq mümkündür. Kitablar isə mədəni yüksəliş pilləleridir.

***Rüfət MƏHƏRRƏMOV***

**Azərbaycandan uzaqlarda**



**2023-cü ilin iyun ayında xoş xəbər Süleymanlılar və Pənahovlar ailəsinin ürəyini dağa döndərdi. Amerikadan gələn xəbərdə bildirilirdi ki, nəvələri Tansu bu ölkənin Herbert Huver ibtidai məktəbini ABŞ Prezidentinin Təhsildə Müstəsna Mükəmməllik Mükafatı – Sertifikatı ilə başa vurub. Nənələr, babalar bu xəbəri dostları-qohumları ilə sevinclə bölüşdülər.**

# Qəlbində Vətən sevgisi yaşadanlar

## *Məktəbli Tansu ABŞ Prezidentinin mükafatını qazanıb*

Balaca Tansunun uğur sevincindən hər evə pay düşdü. Sonra dedilər ki, bu harasıdır, Tansu əlavə 4 sertifikat da qazanıb. 2021–2022-ci illərdə skripka dərsləri öyrənib. Bu il, 4-cü sinifdə oxuyanda məktəbin ictimai fəallar – liderlər klubuna üzv olub. O, ehtiyacı olan insanlara kömək edib,



xeyriyyə tədbirlərində iştirak edib. Uşaq Amerika –Azərbaycan Cəmiyyətinin fəal üzvüdür, dəfələrlə ASA tədbirlərində iştirakına görə mükafatlandırılıb. Bəs Tansunun uğurlarının sorağı ABŞ-dan niyə gəlir, bu uşaq okeanın o tayına necə gedib çıxıb?

Öyrəndik ki, 2017-ci ilin avqustunda "Green kard"la Amerikada yaşamaq şansı əldə edən Süleymanlılar ailəsi Azərbaycandan Missuri ştatının Sent Luis şəhərinə köçüb. Hikmət Süleymanlı və Nigar Pənahova ABŞ-a düşən gündən daimi yaşayış yerinin seçiminə xüsusi diqqətlə yanaşıblar. Çünki Bakıdan gedəndə onların ilk övladı Maqsud məktəbli idi. Uşağın hansı dövlət məktəbinə getməsi də məhz ailənin yaşayış yerinə görə seçilirdi. Övladlarının yüksək keyfiyyətli təhsil almaları üçün ailə ABŞ-da Orta Qərbin ən yaxşı məktəblərinin yerləşdiyi Sent Luis dairəsindəki Kleyton şəhərində məskunlaşdı.

Müraciət etdikləri məktəbdə diaspor fəalı Nigar Pənahova oğlunun hələ Bakıda ikən məktəbli olduğunu bildirib. Maqsud qısa müddətdə ingilis dilini öyrənib və məktəbin ən yaxşı şagirdləri sırasına daxil olub. Nigar xanımın sözlərinə görə, məhz burada Maqsud təhsildə böyük uğurlar qazanıb və gələcək nailiyyətləri üçün təməl yaradıb. 2019-cu ilin yayında ailəsi ilə ABŞ-nin Pensilvaniya ştatının Filadelfiya şəhəri ətrafında yerləşən Lənqhorn qəsəbəsinə köçüblər. Maqsud həmin ilin sentyabrından Herbert Huver ibtidai məktəbində oxumağa başlayıb.

Bu gün Tansu ilə bağlı yaşanan sevinc 3 il öncə ailədə əldə edilən uğurun təkrarı imiş. Çünki 2020-ci ilin iyun ayında ailənin sevinci – Tansunun qardaşı Maqsud da Herbert Huver adına ibtidai məktəbi ABŞ Prezidentinin mükafatı ilə başa vurubmuş.

ABŞ-da yaşayan 10 yaşlı azərbaycanlı Maqsud Süleymanlının təhsildə xüsusi müvəffəqiyyətlərinə görə Prezident mükafatı alması xəbəri Azərbaycana gəlib çatanda Maqsudun şəkli qəzetlərin, saytların bəzəyi olmuşdu.

Qeyd edək ki, təhsildə xüsusi müvəffəqiyyətlərə görə Prezident mükafatı əsası 1983-cü ildə qoyulmuş proqram çərçivəsində ABŞ rəhbərinin və təhsil nazirinin adından təqdim edilir. Təhsildə nailiyyətləri ilə fərqlənən ibtidai, orta və yuxarı sinif şagirdləri bu mükafatı ABŞ Orta Məktəb Direktorlarının Milli Assosiasiyası tərəfindən nəzərdə tutulmuş meyarlar əsasında alırlar.

Ailədən öyrəndik ki, Maqsud təkcə öz biliklərinin səviyyəsi və təhsildə qazandığı nailiyyətlərlə fərqlənmir. Valideynləri kimi o da vətənpərvərdir, bacısı Tansu ilə birlikdə müntəzəm olaraq məktəb və digər beynəlxalq, mədəniyyətlərarası festivallarda iştirak edir, orada yaşıdlarına öz ölkəsi Azərbaycanın mədəniyyəti, tarixi və milli mətbəxi haqqında danışırlar.

Azərbaycanlı ailənin övladlarının bilik və bacarığı ABŞ-da belə dəyərləndirilib. Valideynlərin diaspor fəalları olması onlara ölkəmizlə bağlı tədbirlərdə Vətən sevgisi aşılanıb. Harada yaşamasından asılı olmayaraq Azərbaycanı unutmamaq, onun inkişafı, uğuru ilə daim fəxr etmək, qürurlanmaq tövsiyə edilib.

Ailənin ikinci övladı Tansu da ötən 5 ildə qardaşı kimi oxumağa, çalışmağa böyük səy göstərib. ABŞ-yə köçən il– 2017-ci ilin sentyabr ayından Samuel bağçasına gedib. İngilis dilini öyrənib, yeni dostlar qazanıb. 2018-ci ilin mart ayında ata-anası bağçada Novruz tədbiri təşkil edib və Tansu milli geyimdə səhnəyə çıxıb. O, 2018-ci ilin sentyabr ayından Meramek ibtidai məktəbinin 1-ci sinifinə daxil olub. Məktəbdə təşkil edilən beynəlxalq gecələrdə Tansu daim milli geyimdə Azərbaycan mədəniyyətini və mətbəxini təqdim edib. Sent Luisin zooparkını, parklarını və kitabxanasını çox sevir . O, ev pişiyinə isə milli ad qoyub: Duman.

Azərbaycan–Amerika Cəmiyyəti xalqımızın mədəniyyətini, tarixini ABŞ-da təbliğ edir, xüsusən də dövlət bayramlarını və Novruz bayramını diaspor nümayəndələri ilə mütəmadi qeyd edir. Cəmiyyətin sədri Tomris Azəri uşaqların fəaalığını çox bəyənir, əsl vətənpərvər kimi yetişdiklərinə görə onlarla fəxr edir. Uşaqlar Azərbaycanın BMT-dəki səfiri Yaşar Əliyevlə görüşü, onun "Harada yaşamağınızdan asılı olmayaraq qəlbiniz həmişə Vətənlə döyünsün" – öyüdünü unutmurlar.

Tansu təbiəti, heyvanları, oxumağı, bişirməyi, velosiped sürməyi, üzməyi və rəsm çəkməyi çox sevir. Ən çox xoşladığı bayramlar Novruz, Ramazan və "Hallovin"dir. Riyaziyyat və üzgüçülük dərslərində iştirak edir.

Maqsud isə futbol oynamağı sevir, şahmatla məşğul olur və proqramlaşdırma ilə maraqlanır, gələcəkdə kosmonavt olmağı arzu edir. O, Bakıda yaşayarkən Vüqar Həşimov adına Şahmat Akademiyasında məşğul olub, ABŞ-da şahmat yarışlarında bir neçə mükafat qazanıb.

Sız Azərbaycanın fəxrisiniz, uşaqlar. Çox sevinirik ki, harada yaşayıb işləmələrindən asılı olmayaraq soydaşlarımız Azərbaycan övladının nələrə qadir olduqlarını öz əməlləri və bacarıqları ilə sübut edirlər.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

# Ermənilər Xankəndi-Xəlfəli yolu ilə yenə silah daşıyıblar

**Rusiya sülhməramlı kontingentinin müşayiəti altında növbəti dəfə Xankəndi-Kərkicahan-Xəlfəli yolu ilə ermənilərin döyüş mövqelərinə təminat vasitələri daşınır.**



Ordu.az-a istinadən xəbər verirk ki, onların hərəkəti bölmələrimizin texniki müşahidə vasitələri ilə qeydə alınıb.

Videogörüntüdə Rusiya sülhməramlı kontingentinə məxsus döyüş maşınının müşayiəti altında ermənilərin döyüş mövqelərinə təminat vasitələrinin daşınması aydın müşahidə olunur.

## "SAVALAN" Açıq Səhmdar Cəmiyyətinin 2022-ci il dekabrın 31-nə balans hesabatı

*manatla*

| AKTİVLƏR | Qeyd | Qalıq 31 dekabr 2022-ci il | Qalıq 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| ***Uzunmüddətli aktivlər*** | | | |
| Torpaq, tikili və avadanlıqlar | 6 | 432,640.00 | 436,535.93 |
| Qeyri-maddi aktivlər | 7 | | - |
| İnvestisiyalar | 8 | | |
| Uzunmüddətli debitor borcları | | | |
| Sair uzunmüddətli aktivlər | 9 | | |
| **Cəmi** | | ***432,640.00*** | ***436,535.93*** |
| ***Qısamüddətli aktivlər*** | | | |
| Ehtiyatlar | 10 | 232,911.69 | 232,911.69 |
| Qısamüddətli debitor borcları | 11 | 365,739.16 | 411,276.09 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 231,133.93 | 32,644.08 |
| Sair qısamüddətli maliyyə aktivləri | 13 | | |
| Sair qısamüddətli aktivlər | 14 | 519,027.01 | 519,027.01 |
| **Cəmi** | | ***1,348,811.79*** | ***1,195,858.87*** |
| **CƏMİ AKTİVLƏR** | | ***1,781,451.79*** | ***1,632,394.80*** |
| **KAPİTAL** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | 15 | 2,416,824.00 | 2,416,824.00 |
| Kapital ehtiyatları | | | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | - 661,267.89 | - 788,320.75 |
| **CƏMİ KAPİTAL** | | ***1,755,556.11*** | ***1,628,503.25*** |
| **ÖHDƏLİKLƏR** | | | |
| ***Uzunmüddətli öhdəliklər*** | | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| ***Qısamüddətli öhdəliklər*** | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Vergilər üzrə öhdəliklər | 16 | 25,241.71 | 3,891.55 |
| Qısamüddətli kreditor borcları | 17 | 653.97 | - |
| Sair qısamüddətli öhdəliklər | 18 | | |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | ***25,895.68*** | ***3,891.55*** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | ***1,781,451.79*** | ***1,632,394.80*** |

### MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HAQQINDA HESABAT

| | | | |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 19 | 613,669.15 | 286,072.36 |
| Satışın maya dəyəri | 22-23 | - 430,824.21 | - 259,299.48 |
| **Ümumi mənfəət** | | **182,844.94** | **26,772.88** |
| Sair əməliyyat gəlirləri | 20 | | - |
| İnzibati xərclər | | | |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **182,844.94** | **26,772.88** |
| Maliyyə gəlirləri | | | |
| Maliyyə xərcləri | | | |
| Fövqəladə gəlirlər | 21 | | |
| Fövqəladə xərclər | 22 | | |
| Gəlirdən çıxılan vergilər və yığımlar | | - 23,047.08 | - 23,193.91 |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | 24 | **159,797.86** | **3,578.97** |
| Keçmiş illərin zərəri | | - 981.79 | **- 3,578.97** |
| **Vergiyə cəlb olunan mənfəət** | | **158,816.07** | **0.00** |
| Mənfəət vergisi | 25 | - 31,763.21 | 0.00 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 26 | **127,052.86** | **0.00** |
| **Mənfəətdə iştirak payı:** | | | |
| Səhmdarların payı | | **0.13** | **0.00** |
| Azlıqların payı | | | |
| **Səhmdarların payına düşən bir səhmin mənfəəti:** | | | |
| 1(bir) səhmin əsas mənfəəti | 26 | **0.11** | **0.00** |

**Müstəqil auditorun rəyi**
**"SAVALAN" ASC-nin rəhbərliyinə**
**Şərti müsbət rəy**

Mən "SAVALAN" ASC-nin (bundan sonra - şirkət) 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Məncə, hesabatımın "şərti müsbət rəy üçün əsaslar" bölməsində əks etdirilən məsələnin nəticələri istisna olmaqla, əlavə edilmiş maliyyə hesabatları şirkətin 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

**Rəy sərbəst auditor Əliyev Natiq Firuddin oğlu tərəfindən 2023-cü il iyunun 8-də verilmişdir.**

# Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.3-cü maddəsinə əsasən 12 ay ərzində lisenziyaların qüvvəsinin iki dəfə dayandırılmasına səbəb olmuş hal, lisenziyaların qüvvəsinin həmin hal əsasında sonuncu dəfə dayandırıldığı tarixdən etibarən 9 ay ərzində təkrar yarandığı nəzərə alınaraq Mərkəzi Bankın İdarə Heyətinin 12 iyul 2023-cü il tarixli qərarına əsasən siyahıda qeyd olunmuş (əlavə olunur) 4 (dörd) nəfər fiziki şəxsə sığorta agenti fəaliyyətinə verilmiş lisenziyalar ləğv edilmişdir.

**"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.3-cü maddəsinə əsasən lisenziyaları ləğv edilən fiziki şəxs olan sığorta agentlərinin SİYAHISI**

| № | Sığorta agentlərinin adları | Lisenziyanın tarixi | Lisenziyanın nömrəsi | VÖEN |
|---|---|---|---|---|
| 1 | Abdullayev Bəlyəddin Əsabəli oğlu | 19.10.2012 | 000794 | 3000712942 |
| 2 | Əliyeva Səbinə Hikmət qızı | 05.10.2018 | SA-0054 | 1305345362 |
| 3 | İbrahimov Şahid Kamal oğlu | 28.04.2009 | 000090 | 1800990202 |
| 4 | Ruhullayev Zaur Eynulla oğlu | 21.05.2013 | 000941 | 4500980912 |


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

tabeliyindəki idarələr üçün elektrik mallarının satın alınması məqsədilə

### AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il iyulun 28-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu– (012) 404-37-00, daxili:1177.

Ünvan– AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

balansındakı gəmilər və idarələr üçün müxtəlif növ süzgəclərin satın alınması məqsədilə

### MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il iyulun 28-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu– (012) 404-37-00, daxili: 1047.

Ünvan– Bakı, M.Useynov küçəsi 2.

## "Bakı–Mexaniki–Təmir" ASC səhmdarlarının nəzərinə!

22 avqust 2023-cü il saat 10.00-da "Bakı–Mexaniki–Təmir" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. Cəmiyyətin təşkilati-hüquqi formasının dəyişdirilərək qapalı səhmdar cəmiyyətinə çevrilməsi.
2. Cəmiyyətin nizamnaməsinin yeni redaksiyada qəbul edilməsi.
3. Seçkili orqanların yenidən formalaşdırılması.
4. Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə telefonu– 0772504002.

Ünvan– Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi, A.Mirzəyev küçəsi 60.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

balansındakı "Atlet-8", "Vixr-8", "E.Xalıqov", "Nefteqaz-62", "Nefteqaz-64", "G.Əsgərova", "V.Seyidov" və "Atlet-24" gəmilərinin "Sulzer 16AV25/30", "Sulzer 6ZL40/48", "Sulzer 16ASV25D" baş və "Sulzer 6AL20/24" köməkçi mühərriklərinin ehtiyat hissələrinin satın alınması məqsədilə

### MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 28 iyul 2023-cü il Bakı vaxtı ilə saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu– (012) 404-37-00, daxili: 1071.

Ünvan– Bakı, Mikayıl Useynov küçəsi 2.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

polad burazlar, zəncirlər, birləşdirici bəndlər və kəmərlərin satın alınması məqsədilə

### MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il iyulun 26-sı saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu– (012) 404-37-00, daxili: 1132.

Ünvan– Bakı, Mikayıl Useynov küçəsi 2.

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 149 (30265) 19 iyul 2023-cü il, çərşənbə
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## 2 qızıl, 1 bürünc medal – Paris Olimpiadasına 5 lisenziya

**Milli Paralimpiya Komitəsinin idmançıları Fransanın paytaxtı Paris şəhərində keçirilən dünya çempionatını 2 qızıl, 1 bürünc medalla başa vurublar. Komandamız Paris Yay Paralimpiya Oyunlarına isə 5 lisenziya qazanıb.**




Hər iki qızıl medalı komandamızın aktivinə atletika üzrə Lamiyə Vəliyeva yazdırıb. Təmsilçimiz 100 metr qaçışda 11.99 nəticə göstərərək fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb. İdmançımız ikinci qızıl medalı 400 metr qaçışda 55:34 saniyə nəticə göstərməklə əldə edib. Bu nəticə ilə Lamiyə Vəliyeva Paris Yay Paralimpiya Oyunlarında ölkəmizi 2 növdə (100 metr və 400 metr) təmsil edəcək.

Milli komandanın digər üzvü Səid Nəcəfzadə isə uzunluğa tullanma növündə 7.11 metr nəticə göstərərək dünya çempionatının bürünc medalına və Paris Olimpiadasında iştirak hüququna yiyələnib.

Paris Oyunlarına digər iki lisenziyanı Oloxan Musayev və Orxan Aslanov qazanıblar. Belə ki, Oloxan Musayev dünya çempionatında nüvə itələmə yarışında 11.74 metr, Orxan Aslanov isə uzunluğa tullanma növündə (T13 kateqoriyasında) 6.95 metr nəticə göstərərək 4-cü yerə sahib çıxıblar.

Qeyd edək ki, dünya çempionatında ilk 4 yerə sahib çıxan atletlər XVII Yay Paralimpiya Oyunlarına birbaşa lisenziya qazanırlar.

## Qadın futbolçularımız Latviyada

**Azərbaycanın qadın futbolçularından ibarət yığması Latviyada təlim-məşq toplanışı çərçivəsində daha bir oyun keçirib.**



Komandamızın Latviya yığması ilə qarşılaşması heç-heçə (1:1) ilə başa çatıb.

Matçda millimizin yeganə qolunu 36-cı dəqiqədə Sevinc Cəfərzadə vurub.

Xatırladaq ki, komandalar arasında keçirilmiş ilk görüşdə də heç-heçə qeydə alınmışdı.

## Bakı Olimpiya Stadionu ilk 100-lükdə 41-cidir



**Dünyanın ən yaxşı 100 stadionunun adı açıqlanıb.**

"FourFourTwo" nəşrinin araşdırmasına görə, Bakı Olimpiya Stadionu siyahıda 41-ci yeri tutur.

İlk 3 pillədə, müvafiq olaraq "La Bombonera" (Argentina), "Marakana" (Braziliya) və "Siqnal İduna Park" qərarlaşıblar.

*L.QURBANOVA, "Xalq qəzeti"*

Texnologiya yenilikləri

## "Threads" istifadəçilərini ikiqat itirib

**"Meta" şirkətinin "Threads" proqramı ən sürətlə böyüyən tətbiq olsa da, fəal istifadəçi sayı gündən-günə azalır. İstifadəçilər "Threads"ə daha az vaxt sərf etməyə başlayıblar.**




Milyonların "Twitter"ə alternativ axtardığı bir vaxtda ortaya çıxan və "İnstagram"la əlaqəsi olduğu üçün istifadəçiləri qısa müddətdə cəlb etməyi bacaran "Threads"də ilk vaxtlar günlük fəal istifadəçi sayı 49 milyon nəfər idi. Lakin "SimilarWeb" analiz şirkətinin hesabatına görə, "Threads"də bu rəqəm indi 23,6 milyon nəfərə düşüb. İstifadə müddəti isə 21 dəqiqədən 6 dəqiqəyə qədər azalıb.

Qrafiklər istifadəçilərin "Twitter"də daha çox vaxt keçirdiklərini göstərir. Həmçinin spam hücumları artıb. Bunun qarşısını almaq üçün isə şirkət görüntüləmə limiti kimi tədbirlərin görüləcəyini bildirib.

*Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"*

## "Youtube" sadə oyunlar təklif edir

**İnternet oyunları sevənlərin nəzərinə: Artıq "Youtube"da da əyləncəli oyunlar mümkün olacaq. "Playables" funksiyası üzərində işləyən platforma hələlik istifadəçilər üçün sadə oyunlar təklif edir.**




Oyunları mobil cihazlarda və masaüstü kompüterlərdə də oynaya biləcəksiniz. Artıq bəzi oyunların sadələşdirilmiş versiyalarının istifadəçilər üçün təqdim ediləcəyi planlaşdırılır. "Youtube" bu addımı reklam sahəsində gəlirlərin azalması səbəbindən atır. Buna görə də oyunlararası bir neçə dəqiqədə reklamların verilməsi nəzərdə tutulur. "Youtube" bu addımla reklamçılar üçün cəlbedici məkana çevrilməyi hədəfləyir.

*F. HÜQUQQIZI, "Xalq qəzeti"*

## Avropada görünməmiş istilər gözlənilir

### *İtaliyada "qırmızı" xəbərdarlıq elan olunub*

**Avropada yaxın günlər həddindən artıq isti keçəcək. İtaliyada havanın temperaturu +50°C-yə çata bilər. Bu, rekord göstəricidir. Bundan əvvəl temperatur rekordu 2021-ci ildə qeydə alınıb - o zaman Siciliyada +48°C istilik olub. Bu dəfə isə Siciliya və Sardiniya adalarında temperaturun +47-48 °C dərəcəyə yüksələcəyi bildirilib.**



İtaliya Səhiyyə Nazirliyi ölkədə müşahidə olunan anomal istilər səbəbindən "qırmızı" xəbərdarlıq elan edilən şəhərlərin sayını artırıb. İyulun 19-da 23 şəhər üçün "qırmızı" xəbərdarlıq elan olunub.

Şimali Afrikadan gələn yeni istilik dalğası bir neçə Avropa ölkəsində də göstəriciləri yeniləyə bilər. Hazırda Yunanıstan və İspaniyada anomal isti hava şəraitinin müşahidə edildiyi vurğulanır. İspaniyada bu həftə temperatur +44 °C qədər qalxacaq. İsveçrə və Avstriyada anomal isti havadan sonra fırtına və yağış gözlənilir. İngiltərədə anomal isti hava davam edəcək.

Türkiyədə isə yüksək temperatur bu gündən iyulun 24-dək Mərmərə və Egeydə müşahidə olunacaq. İstanbulda havanın temperaturunun +35°C, Manisa və Muğlada isə +43°C olacağı gözlənilir.

Agentliyin məlumatına görə, artıq Avropanın cənubunda yerləşən dövlətlərin hakimiyyət orqanları dəyişən hava şəraiti ilə əlaqədar insanları mümkün yanğınlar, nəqliyyat və enerji infrastrukturunda nasazlıqlar barədə xəbərdar etməyə başlayıb. Mütəxəssislər anomal istilərin təkcə yaşlılar, klinik cəhətdən həssas insanlar və uşaqlar deyil, bütün əhali üçün təhlükə yaratdığı barədə xəbərdarlıq ediblər. Əhaliyə saat 11:00-dan 18:00-dək zərurət olmadığı təqdirdə evdən çıxmamaq tövsiyə olunub. Onlara istidə daha çox su içmək və açıq rəngli nazik paltarlar geyinmək məsləhət görülüb.

*Ə.PÜNHAN, "Xalq qəzeti"*

## "Pfizer" şirkətinin nümayəndə heyəti ölkəmizdə

**Səhiyyə Nazirliyində "Pfizer" şirkətinin Qafqaz, Mərkəzi Asiya və Monqolustan üzrə rəhbəri Dmitriy Kozenkovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**



Qonaqları salamlayan nazir Teymur Musayev koronavirus pandemiyasının ən sərt vaxtlarında ölkəmizdə 4 tanınmış vaksin şirkətinin peyvəndlərindən istifadə edildiyini bildirib. Bunlardan biri də məhz "Pfizer-BioNTech" şirkətinin istehsal etdiyi peyvənd olub. Vurğulanıb ki, Ümumdünya Səhiyyə Təşkilatı Pfizer-BioNTech vaksinini təcili istifadə üçün təsdiqlənən vasitələr reyestrinə daxil edib.

Teymur Musayev ölkə əhalisinin sağlamlığı üçün əhəmiyyətli olan digər vaksinlərin Azərbaycanda tətbiqi ilə bağlı müzakirəyə də nazirliyin hazır olduğunu bildirdi.

"Pfizer" şirkətinin Qafqaz, Mərkəzi Asiya və Monqolustan üzrə rəhbəri Dmitriy Kozenkov bildirib ki, Azərbaycan COVID-19 pandemiyasının başladığı ilk günlərdən mübarizədə özünəməxsus yol seçən ölkələrdəndir. Belə ki, Azərbaycan hökuməti koronavirus infeksiyasının yayılmasının qarşısını almaq, onun iqtisadiyyata və insanların sosial vəziyyətinə vurduğu zərəri qarşılamaq üçün vaxtında və uğurlu tədbirlər hazırlayaraq həyata keçirdi.

Görüşdə "Pfizer" şirkəti ilə Səhiyyə Nazirliyi arasında qarşılıqlı əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb və elmi-tibbi aspektlər müzakirə edilib.

*Z.BƏŞİRQIZI, "Xalq qəzeti"*

## Nikah üzüyü və ürəyə gedən damar...

**Nikah üzüyünün tarixi qədim dövrlərə gedib çıxır. Nişanlanma əlaməti kimi adsız barmağa üzük taxmaq ənənəsi Nil sahillərindən gəlib.**



Deyilənlərə görə, nikah üzüyünü ilk dəfə qədim Misir kraliçası Nefertiti taxıb. O, üzük taxmaq üçün sol əlin ikinci barmağını seçib. O dövrlər elm və təbabət hələ inkişaf etməmişdi.Yüz illər sonra birbaşa ürəyə gedən damarın nikah üzüyü taxılan barmaqda olduğu müəyyən edilmişdir.

Qədim Şərqdə üzükdən sədaqət sınağı kimi də istifadə edərdilər. Hələ 2000 il əvvəl kişilər uzun müddətli səfərlərə gedəndə xanımlarına yığılıb-sökülən üzüklər bağışlayırdılar. Qadın üzüyü barmağından çıxarmaq istəyəndə üzük dağılar, ovulub tökülən hissəcikləri yenidən yığmaq çox çətin olardı. Bu yolla kişilər həyat yoldaşlarının vəfalı olub-olmadığını yoxlayır, əxlaqını, sədaqətini sınaqdan keçirərdilər.

*F. SALMANOVA, "Xalq qəzeti"*

## Limfaları və qanı təmizləyən Tibet resepti

***Tibet rahiblərinin resepti yalnız qan və limfanı təmizləmir, eyni zamanda, qaraciyər, böyrək, bağırsaq, damarlar da şəfa tapır. Bədəndən duzlar və zəhərlər çıxır. Bu təmizlənmə oynaq xəstəliklərində də faydalıdır, mədə-bağırsaq traktına isə müsbət təsir göstərir.***



Tibet resepti ödqovucu, sidikqovucu, limfa və qan təmizləyici, parazit və iltihab əleyhinədir. Bundan əlavə, onun istifadəsi xolesterol və yağ tıxaclarını çıxarmağa və metabolik prosesləri normallaşdırmağa imkan verir.

Əlavə olaraq, ateroskleroz, infarkt və insultun qarşısının alınmasına kömək edir. Möcüzəli iksirin hazırlanması və qəbulu qaydası belədir:

1. Hərəsindən 100 q olmaqla çobanyastığı, dazıotu, solmazçiçəyi və ağcaqayın qönçələri qarışdırılır (bəzən üyüdülür) və quru yerdə saxlanılır.
2. Məlhəmin bir hissəsini hazırlamaq üçün 1 xörək qaşığı qarışıq 2 stəkan (0,5 litr) qaynar suda 20–30 dəqiqə dəmlənir. Dəmləmə üçün termos məsləhətdir.
3.Qarışığı tənzifdən süzüb, qəbul etməzdən əvvəl 1 çay qaşığı bal əlavə edilir.
4.Hazırlanmış dəmləmə bitənə qədər səhər və yatmazdan əvvəl 1 stəkan içilir.

Sonra 2 ay fasilə verib prosedura yenidən başlamaq lazımdır.

*Zərifə HÜSEYNLİ, "Xalq qəzeti"*

Proqnoz



## Hava isti olacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 19-da Bakıda və Abşeron yarımadasında yağmursuz keçəcək. Cənub küləyi əsəcək. Gecə 17-22°, gündüz 27-32° isti olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 23-24° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 24-25° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 17-21°, gündüz 28-33°, dağlarda gecə 8-13°, gündüz 15-20° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

**✓ 2005-ci il mayın 31-də Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İqtisadiyyat və Hüquq" İctimai Birliyinə verilmiş təsis sənədləri– nizamnamə, qeydiyyat şəhadətnaməsi, reyestrdən çıxarış və təsis protokolu itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN

Süleyman İsmayılov və şöbənin əməkdaşları iş yoldaşları Kənan Nuruyevə anası

**AİDƏ NURUYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4518
SİFARİŞ 1790
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00